Xalqın qəzeti!

# Xalq qəzeti

№ 218 (30334) 7 oktyabr 2023-cü il, şənbə

Gündəlik ictimai-siyasi nəşr

1919-cu ildən çıxır | Təsisçi: Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi və qəzetin redaksiya heyəti | xalqqazeti.az

**Günün sözü**

**Prezident İlham Əliyev:**

**Biz, həqiqətən, bir ailə kimi yaşayırıq və bir sıra beynəlxalq təşkilatlar bunu qeyd edib və bu, onların qərarlarında öz əksini tapıb. BMT Azərbaycanın multikulturalizmin təşviqi sahəsindəki səylərini tam dəstəkləyib.**

## Azərbaycan–Serbiya əlaqələri dostluq və qarşılıqlı dəstəyə əsaslanır



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 6-da Serbiya Respublikası Milli Assambleyasının sədri Vladimir Orliçi qəbul edib.**

Dövlətimizin başçısı ölkələrimiz arasında dostluq əlaqələrinin zəngin tarixə malik olduğunu deyərək bunun qarşılıqlı dəstəyə əsaslanan münasibətlərimizin inkişafı üçün yaxşı zəmin yaratdığını bildirdi, Serbiyaya səfərini məmnunluqla xatırladı.

İqtisadi sahədə əlaqələrə toxunan Prezident İlham Əliyev investisiya, enerji, sənaye sahələri ilə bağlı fəal əməkdaşlığın həyata keçirildiyini dedi. Dövlətimizin başçısı münasibətlərimizin inkişafında parlamentlərarası əlaqələrin də önəmini qeyd etdi.

Azərbaycan Prezidenti Vladimir Orliçin səfərinin dinamik şəkildə inkişaf edən əməkdaşlığımızın genişlənməsi işinə töhfə verəcəyinə əminliyini bildirdi.

Qonaq, ilk növbədə, Serbiya Prezidenti Aleksandar Vuçiçin salamlarını dövlətimizin başçısına çatdırdı. Prezident İlham Əliyev salamlara görə minnətdarlığını bildirdi, onun da salamlarını Serbiyanın dövlət başçısına çatdırmağı xahiş etdi.

Serbiya Milli Assambleyasının sədri ölkələrimiz arasında strateji tərəfdaşlığa əsaslanan dostluq əlaqələrinin mövcud olduğunu dedi.

Görüşdə Azərbaycan ilə Serbiyanın daim bir-birinin ərazi bütövlüyünü və suverenliyini, həmçinin beynəlxalq təşkilatlar çərçivəsində haqlı mövqelərini dəstəklədikləri qeyd edildi, münasibətlərimizin strateji tərəfdaşlıq prinsiplərinə, qarşılıqlı anlaşma və qarşılıqlı hörmətə əsaslandığı vurğulandı, parlamentlərarası əlaqələrin və parlamentlərarası beynəlxalq təşkilatlarda əməkdaşlığımızın vacibliyi vurğulandı.

***AZƏRTAC***

## Araz üstündən yeni yol salınır



**Dünən Zəngilan rayonunun Ağbənd qəsəbəsi yaxınlığında “Azərbaycan Respublikası Hökuməti ilə İran İslam Respublikası Hökuməti arasında İran İslam Respublikasının ərazisindən keçməklə Azərbaycan Respublikasının Şərqi Zəngəzur iqtisadi rayonu ilə Naxçıvan Muxtar Respublikası arasında yeni kommunikasiya bağlantılarının yaradılması haqqında Anlaşma Memorandumu” çərçivəsində avtomobil körpüsü, həmçinin sərhəd-gömrük infrastrukturunun inşası, ərazidə sahilbərkitmə tədbirləri layihələrinin təməlqoyma mərasimi keçirilib.**

Təməlqoymada Baş nazirinin müavini, Azərbaycanla İran arasında iqtisadi, ticarət və humanitar sahələrdə əməkdaşlıq üzrə Dövlət Komissiyasının həmsədri Şahin Mustafayev və İranın yol və şəhərsalma naziri, Komissiyanın İran tərəfdən həmsədri Mehrdad Bəzrpaş iştirak ediblər.

*(ardı 8-ci səhifədə)*

## Makronun uğursuz “Lambada”sı

**Gedişatdan göründüyü kimi, Avropa İttifaqının Avropa Siyasi Birliyi (ASB) çərçivəsində Qarabağ münaqişəsinin tənzimlənməsi ilə bağlı görüşlər bir daha olmayacaq. Əslində, Ermənistan və Azərbaycan arasında sülh danışıqlarının Brüssel formatı Aİ prezidenti Şarl Mişelin moderatorluğu ilə keçirilir və dialoqun “dörtərəfli” və ya “beştərəıfli ” formatı gözlənilən səmərəni vermədi.**



Rusiyanın baş diplomatı Sergey Lavrovun “ayaqüstü görüşlər” kimi politoloji leksikona daxil etdiyi ASB Sammitini az qala rəsmiyyətdən uzaq, saatın əqrəblərinin dəqiqləşdirilməsi adlandırmaq olar. Bəzi yerli ekspertlər artıq yetişmiş və bağlanması real görünən ikitrəfli sülh sazişinin Avropa Siyasi Birliyinin köməyi olmadan da imzalamasının mümkünlüyü ehtimalını irəli sürürlər.

Azərbaycanın qatılmadığı Qranada sammitinin yekunları barədə danışan Fransa prezidenti Emmanuel Makronun Bakının Qarabağın erməni sakinlərinə münasibətilə bağlı reallıqdan uzaq, yalan məlumatları tirajlaması, əslində, beynəlxalq hüquq və diplomatik etika ilə bir araya sığmayan davranışdır. O, Azərbaycanın Qarabağın erməni sakinlərinin təhlükəsizliyinə təminat vermək istəmədiyi kimi cəfəng iddiası ilə yanaşı, Avropa İttifaqının rəsmi Bakıya qarşı sanksiya tətbiqi variantını da nəzərdən keçirilə biləcəyini də istisna etməyib.

*(ardı 5-ci səhifədə)*

## Qranadada “fransızsayağı kommünike”

**Oktyabrın 5-də İspaniyanın Qranada şəhərində Avropa Siyasi Birliyinin sayca üçüncü sammiti keçirilib. Sammitdə Azərbaycan ictimaiyyətinin diqqətini daha çox cəlb edən məsələ onun gedişi zamanı Avropa İttifaqı Şurasının prezidenti Şarl Mişelin, Fransa prezidenti Emmanuel Makronun və Almaniya Kansleri Olaf Şoltsun Ermənistan baş naziri Nikol Paşinyanla görüşməsidir.**



Görüşün yekunlarına dair birgə bəyanat qəbul edilib. Bəyanatda Mişel, Makron və Şolts Ermənistanın müstəqilliyi, suverenliyi, ərazi bütövlüyü və sərhədlərinin toxunulmazlığına dəstəyin dəyişilməz olaraq qaldığını vurğulayıblar. Onlar, həmçinin Ermənistan Respublikasının ehtiyacları əsasında Ermənistan-Avropa İttifaqı münasibətlərinin bütün ölçülərdə gücləndirilməsini dəstəklədiklərini bildiriblər. Avropa liderləri “Qarabağ ermənilərinin bu yaxınlarda kütləvi köçkünlüyünün nəticələri ilə üzləşən Ermənistana əlavə humanitar yardımın göstərilməsi zərurəti haqqında” razılığa gəliblər.

*(ardı 5-ci səhifədə)*

## Azərbaycanın etirazı və Makronun Avropa Siyasi Birliyi layihəsi üçün fiasko

**Məlum olduğu kimi, oktyabrın 5-də Avropa Siyasi Birliyinin Qranadada üçüncü Zirvə toplantısı təşkil edildi. Tədbir Azərbaycan üçün də önəmli ola bilərdi. Çünki orada Prezident İlham Əliyevlə Ermənistan baş naziri Nikol Paşinyan arasında Avropa İttifaqı Şurasının prezidenti Şarl Mişelin vasitəçiliyi ilə görüşün təşkili planlaşdırılırdı. Görüşdə, eyni zamanda, Fransa Prezidenti Emmanuel Makronun və Almaniya Kansleri Olaf Şoltsun iştirakı nəzərdə tutulmuşdu.**



Lakin Azərbaycan Prezidenti görüşə qatılmaqdan imtina etdi. Ona görə ki, ölkəmizin, belə demək mümkünsə, “beşli masa”nı Türkiyə ilə “altılı masa”ya çevrilmək təklifi keçmədi. Belədə beşli masa dördlü masaya çevrildi. Nüfuzlu “Politoco” nəşri Qranada Sammiti ilə bağlı məqaləsində məsələyə geniş yer verib. Nəşrin üçüncü zirvə toplantısına münasibətdə gündəmə gətirdiyi fiasko məntiqində də başlıca səbəb elə vurğuladığımız məqamdır.

Bəli, “Politico” yazır ki, Avropanın 50-yə yaxın ölkəsinin liderlərinin, onların köməkçilərinin və digər rəhbər şəxslərinin, həmçinin yüzlərlə jurnalistin qatıldığı Avropa Siyasi Birliyinin üçüncü zirvə toplantısı fiaskoya uğradı. Nəşrin bildirdiyinə görə, toplantıya yığışanlar Avropanın astanasında olan münaqişələrin, yaxud hansısa digər regional problemin həllində əhəmiyyətli irəliləyiş əldə edə bilməyiblər.

*(ardı 4-cü səhifədə)*

## Regional media cəmiyyətdən dəstək gözləyir



**Medianın İnkişafı Agentliyinin təşkilatçılığı ilə Lənkəranda “Regional Medianın İnkişafı” layihəsi çərçivəsində cənub bölgəsinin jurnalistləri ilə görüş keçirilib.**

Audiovizual Şura və UNEC Tədqiqat Fondunun da təmsil olunduğu görüşün məqsədi regionlarda fəaliyyət göstərən media nümayəndələri üçün müzakirə platforması yaratmaq, həmçinin media subyektlərinin dayanıqlı fəaliyyət mexanizmini formalaşdırmaq, kadr potensialının gücləndirilməsinə töhfə vermək, eləcə də jurnalistlərin fərdi və peşəkar inkişafını dəstəkləmək məqsədilə konseptual proqramlarının hazırlanmasını təmin etməkdir. Görüşdən əvvəl Medianın İnkişafı Agentliyinin nümayəndələri və tədbir iştirakçıları Lənkəranda ümummilli lider Heydər Əliyevin abidəsini ziyarət etdilər, mətbuata daim yüksək önəm vermiş ulu öndərin xatirəsinə dərin ehtiramlarını bildirdilər.

*(ardı 14-cü səhifədə)*

## Qarabağ həmişə öz çörəyini yeyib

Səhifə ⇨ 8

## Koronavirus zəifləri haqlayır



Səhifə ⇨ 15

# Ümumdünya Səhiyyə Təşkilatı Azərbaycanın qlobal səhiyyə təşəbbüslərini dəstəkləyir



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 6-da Ümumdünya Səhiyyə Təşkilatının Avropa üzrə regional direktoru Hans Henri Klugeni qəbul edib.**

Hans Henri Kluge Ümumdünya Səhiyyə Təşkilatının baş direktoru Tedros Adhanom Qebreyesusun salamlarını dövlətimizin başçısına çatdırdı.

Prezident İlham Əliyev salamlara görə minnətdarlığını bildirdi, onun da salamlarını Tedros Adhanom Qebreyesusa çatdırmağı xahiş etdi.

Qonaq qlobal səhiyyə liderliyi sahəsində Azərbaycanın, şəxsən Prezident İlham Əliyevin Qoşulmama Hərəkatının sədri kimi həyata keçirdiyi fəaliyyətin çox yüksək qiymətləndirildiyini qeyd etdi. O, Qoşulmama Hərəkatının sədri kimi Prezident İlham Əliyevin təşəbbüsü ilə Qoşulmama Hərəkatının Təmas Qrupunun 2020-ci ilin mayında koronavirusla mübarizəyə həsr olunmuş "COVID-19-a qarşı birlikdəyik" mövzusunda onlayn Zirvə görüşünün keçirilməsinə, Azərbaycanın vaksinlərin ədalətli, bərabər bölgüsünə dair qətnamənin təşəbbüskarı olmasına və həyata keçirdiyi fəaliyyətə görə minnətdarlığını bildirdi. Hans Henri Klugen Azərbaycanın pandemiya dövründə 80-dən artıq ölkəyə dəstək göstərdiyini qeyd etdi, ölkəmizin Qoşulmama Hərəkatı çərçivəsində yaratdığı COVID-19-a qarşı mübarizə üzrə məlumat bazası sisteminin çox səmərəli olduğunu və Davamlı İnkişaf Məqsədlərinin həyata keçirilməsinə böyük töhfə verdiyini dedi.

Söhbət zamanı Azərbaycanın Qarabağ bölgəsindəki vəziyyətlə bağlı fikir mübadiləsi aparıldı.

Hans Henri Kluge BMT-nin rezident əlaqələndirici ofisinin və ÜST-ün Bakı ofisinin nümayəndələrinin də daxil olduğu missiyanın Azərbaycanın Qarabağ bölgəsinə həyata keçirdiyi səfərinin yüksək qiymətləndirildiyini diqqətə çatdırdı.

Prezident İlham Əliyev COVID-19-a qarşı mübarizədə ÜST-ün ölkəmizə göstərdiyi dəstəyi yüksək qiymətləndirdi, Azərbaycanın Qoşulmama Hərəkatının sədri kimi 80-dən artıq ölkəyə yardım etməsindən, Qoşulmama Hərəkatı çərçivəsində COVID-19-a qarşı mübarizə üzrə məlumat bazası sistemi yaradılmasından və vaksin həmrəyliyi ilə bağlı səylərimizdən danışdı.

Dövlətimizin başçısı Azərbaycanın milli, regional və beynəlxalq səviyyədə yardım proqramlarını həyata keçirdiyini vurğuladı.

Prezident İlham Əliyev Azərbaycanın Qarabağ bölgəsindəki vəziyyətlə bağlı bildirdi ki, Qarabağda yerli əhali arasında təşviş yaradan və onları Ermənistana köçməyə məcbur edən məhz qondarma rejim olub.

Dövlətimizin başçısı vurğuladı ki, "Laçın" dövlət sərhəd-buraxılış məntəqəsinin yaradılmasından etibarən Azərbaycan tərəfindən Beynəlxalq Qırmızı Xaç Komitəsi vasitəsilə tibbi təxliyələrin təşkili prosesinə dəstək göstərilib.

Prezident İlham Əliyev Xankəndidə yanacaq stansiyasında baş vermiş partlayışdan sonra Azərbaycan yanğınsöndürənlərinin bu yanğının qarşısını aldığını, zərərçəkmiş insanlara dəstək göstərildiyini, hazırda Azərbaycanın tibbi heyətinin Xankəndidə yerli əhaliyə xidmətlər göstərdiyini diqqətə çatdırdı.

Azərbaycan Prezidenti Dövlət Miqrasiya Xidmətinin, Əmək və Əhalinin Sosial Müdafiə Nazirliyinin nümayəndələrinin yerlərdə xidmət göstərdiklərini, əhalinin qeydiyyata alınması prosesinin başlandığını, bunun üçün ayrıca portalın fəaliyyət göstərdiyini bildirdi, gündəlik ehtiyacların ödənilməsi və qida təchizatı üçün aidiyyəti qurumların yerində xidmət apardıqlarını dedi.

Dövlətimizin başçısı ərazidə mühüm infrastruktur obyektlərinin, eləcə də tarixi, dini və mədəni abidələrin polis tərəfindən mühafizə olunduğunu, elektrik təchizatının həyata keçirildiyini bildirdi. Prezident İlham Əliyev vurğuladı ki, bütün bunlar Qarabağın erməni sakinlərinin reinteqrasiyası proqramının hazır olmasının və həyata keçirilməsinin göstəricisidir.

Görüşdə yaxın vaxtlarda BMT-nin Azərbaycanda rezident əlaqələndirici ofisinin təşkilatın aidiyyəti ixtisaslaşmış qurumlarının nümayəndələri ilə birlikdə ərazilərə yenidən səfər edəcəkləri diqqətə çatdırıldı, ölkəmizin bu prosesi dəstəklədiyi qeyd olundu.

# İranla birgə nəqliyyat dəhlizləri şaxələndirilir



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 6-da İran İslam Respublikasının yol və şəhərsalma naziri, Azərbaycanla İran arasında iqtisadi, ticarət və humanitar sahələrdə əməkdaşlıq üzrə Dövlət Komissiyasının İran tərəfdən həmsədri Mehrdad Bəzrpaşı qəbul edib.**

Dövlətimizin başçısı bu gün Zəngilan rayonunun Ağbənd qəsəbəsi yaxınlığında keçirilmiş avtomobil körpüsü və sərhəd-gömrük infrastrukturunun inşası, ərazidə sahilbərkitmə tədbirləri layihələrinin təməlqoyma mərasiminin önəmini qeyd edərək, bunun dostluq əlaqələrimizin daha da möhkəmləndirilməsi işinə töhfə verəcəyini bildirdi.

Prezident İlham Əliyev Azərbaycanın həm ikitərəfli, həm də çoxtərəfli formatlarda nəqliyyat dəhlizlərinin yaradılması ilə bağlı fəaliyyətini davam etdirdiyini bildirərək, bu gün Zəngilan rayonunun Ağbənd qəsəbəsi yaxınlığında avtomobil körpüsü və sərhəd-gömrük infrastrukturunun inşası, ərazidə sahilbərkitmə tədbirləri layihələrinin təməlinin qoyulmasının bu yolların şaxələndirilməsi baxımından da önəmini qeyd etdi.

Prezident İlham Əliyev vurğuladı ki, ölkələrimizi birləşdirən və region üçün böyük əhəmiyyətə malik olan avtomobil və dəmir yollarının çəkilişi bütün bölgə üçün sabitliyə və əməkdaşlığa xidmət edəcək.

Dövlətimizin başçısı, həmçinin Şimal-Cənub nəqliyyat dəhlizinin inkişafı və ötürücülük qabiliyyətinin daha da genişləndirilməsi istiqamətində aparılan işlərin önəmini qeyd etdi.

İkitərəfli münasibətlərimizin gündəliyinin yalnız nəqliyyat sektorunu deyil, eyni zamanda, daha geniş sahələri əhatə etdiyini deyən Azərbaycan Prezidenti Hökumətlərarası Komissiyanın fəaliyyətini yüksək qiymətləndirdi, bütün sahələr üzrə yaxşı nəticələrin əldə edildiyini qeyd etdi. Dövlətimizin başçısı Azərbaycan-İran dostluğunun və əməkdaşlığının bütün bölgə üçün önəmli amil olduğunu vurğuladı.

Prezident İlham Əliyev regional məsələlərin region ölkələrinin iştirakı ilə həll edilməsinin vacibliyini bildirərək, bu xüsusda 3+3 əməkdaşlıq formatının da təşəbbüskarının məhz Azərbaycan olduğunu qeyd etdi, tezliklə bu formatda görüşlərin keçiriləcəyini müsbət bir addım kimi qiymətləndirdi.

Mehrdad Bəzrpaş ilk növbədə İran İslam Respublikasının Prezidenti Seyid İbrahim Rəisinin salamlarını dövlətimizin başçısına çatdırdı.

Prezident İlham Əliyev salamlara görə minnətdarlığını bildirdi, onun da salamlarını İranın dövlət başçısına çatdırmağı xahiş etdi.

Qonaq Azərbaycanın Qarabağ bölgəsinin reinteqrasiyası ilə bağlı təbriklərini çatdırdı və bunu çox mühüm hadisə kimi dəyərləndirdi. O qeyd etdi ki, Azərbaycanın pozulmuş haqlı və ədalətli mövqeyi 30 ildən sonra xoşbəxtlikdən öz yerini tutdu və ölkə suverenliyini bərpa etdi.

Mehrdad Bəzrpaş region ölkələri və xalqlarının bir-biri ilə dərin tarixi və mədəni əlaqələrə malik olduğunu deyərək, Cənubi Qafqazda sülhün region üçün böyük perspektivlər yaradacağını bildirdi.

**AZƏRTAC**

## Azərbaycan Respublikası Prezidentinin 2008-ci il 5 avqust tarixli 2965 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikası dövlət büdcəsinin vəsaiti hesabına saxlanılan daxili işlər orqanları əməkdaşlarının, Daxili Qoşunların hərbi qulluqçularının və Daxili İşlər Nazirliyinin sisteminə işə götürülən mülki işçilərin ştat sayı həddi"ndə dəyişiklik edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

**1.** Azərbaycan Respublikası Prezidentinin 2008-ci il 5 avqust tarixli 2965 nömrəli Sərəncamı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2010, № 10, maddə 882; 2011, № 2, maddə 143, № 6, maddə 534, № 9, maddə 810; 2012, № 1, maddə 18, № 3, maddə 248; 2013, № 5, maddə 548, № 11, maddə 1346; 2014, № 1, maddə 28, № 2, maddə 174, № 9, maddələr 1080, 1108; 2015, № 11, maddə 1361, № 12, maddə 1552; 2016, № 3, maddə 531; 2017, № 5, maddə 919; 2018, № 2, maddə 269, № 10, maddə 2043; 2019, № 4, maddə 687; 2020, № 2, maddə 166; 2021, № 12, maddə 1445; 2023, № 6, maddə 805) ilə təsdiq edilmiş "Azərbaycan Respublikası dövlət büdcəsinin vəsaiti hesabına saxlanılan daxili işlər orqanları əməkdaşlarının, Daxili Qoşunların hərbi qulluqçularının və Daxili İşlər Nazirliyinin sisteminə işə götürülən mülki işçilərin ştat sayı həddi"ndə dəyişiklik lər təsdiq edilsin.

**2.** Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 6 oktyabr 2023-cü il**

## Gəncə şəhər stadionunun yenidən qurulması ilə bağlı tədbirlər haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq qərara alıram:

**1.** Gəncə şəhər stadionunun yenidən qurulması işlərinin layihələndirilməsi və həyata keçirilməsi məqsədilə Azərbaycan Respublikasının 2023-cü il dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Respublikası Prezidentinin ehtiyat fondundan Azərbaycan Respublikasının Gənclər və İdman Nazirliyinə ilkin olaraq 1,0 (bir) milyon manat ayrılsın.

**2.** Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Sərəncamın 1-ci hissəsində göstərilən məbləğdə maliyyələşməni təmin etsin.

**3.** Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi bu Sərəncamın 1-ci hissəsində göstərilən stadionun yenidən qurulmasının başa çatdırılması üçün zəruri olan maliyyə vəsaitini Azərbaycan Respublikasının 2024-cü il dövlət büdcəsi layihəsində dövlət əsaslı vəsait qoyuluşu xərclərinin bölgüsündə nəzərdə tutsun.

**4.** Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 6 oktyabr 2023-cü il**

## Azərbaycan Respublikasının Türkiyə Respublikasındakı Səfirliyinin tabeliyində Mədəniyyət Mərkəzinin yaradılması haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, Azərbaycan mədəniyyətinin, tarixinin və dilinin təbliği işini genişləndirmək məqsədilə **qərara alıram:**

**1.** Ankara şəhərində Azərbaycan Respublikasının Türkiyə Respublikasındakı Səfirliyinin tabeliyində Mədəniyyət Mərkəzi yaradılsın.

**2.** Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamın 1-ci hissəsi ilə yaradılan Mədəniyyət Mərkəzinin fəaliyyətinin təmin edilməsi ilə bağlı zəruri tədbirlər görsün.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 6 oktyabr 2023-cü il**

# Qətər ölkəmizlə hərtərəfli əməkdaşlıqda maraqlıdır



**Oktyabrın 6-da Xarici İşlər naziri Ceyhun Bayramov Qətər Dövlətinin xarici işlər üzrə dövlət naziri Soltan bin Saad Al-Murayxi ilə görüşüb.**

Görüşdə Azərbaycan ilə Qətər arasında ikitərəfli münasibətlərin hazırkı səviyyəsi, gündəlikdə duran məsələlər və müxtəlif sahələrdə əməkdaşlığın inkişaf etdirilməsi perspektivləri müzakirə olunub.

Söhbət zamanı Azərbaycan ilə Qətər arasında beynəlxalq təşkilatlar və platformalar, xüsusən İslam Əməkdaşlıq Təşkilatı, Qoşulmama Hərəkatı və BMT çərçivəsində mövcud olan səmərəli əməkdaşlıq qeyd edilib. Eyni zamanda, iki ölkə arasında birgə hökumətlərarası komissiyanın gündəliyində duran məsələlərə toxunulub.

Nazir Azərbaycanın özünün suveren ərazisində beynəlxalq humanitar hüquqa tam uyğun şəkildə həyata keçirdiyi lokal antiterror tədbirlərini şərtləndirən səbəblərdən bəhs edib.

Qətər tərəfi Azərbaycanla hərtərəfli əməkdaşlıqda maraqlı olduğunu vurğulayıb.

**XQ**

## Dövlət orqanlarında (qurumlarında) normayaratma fəaliyyətinin təkmilləşdirilməsi və bundan irəli gələn bir sıra məsələlərin tənzimlənməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, dövlət orqanları (qurumları) tərəfindən normayaratma fəaliyyətinin təşkilində və həyata keçirilməsində müasir informasiya-kommunikasiya texnologiyalarından istifadə etməklə səmərəliliyin və operativliyin təmin olunması məqsədilə, habelə "Normativ hüquqi aktlar haqqında" Azərbaycan Respublikasının Konstitusiya Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2023-cü il 14 iyul tarixli 971-VIKQD nömrəli Konstitusiya Qanununun icrası ilə əlaqədar **qərara alıram:**

**1.** "Normativ hüquqi aktlar" informasiya sistemi yaradılsın.

**2.** "Normativ hüquqi aktlar" informasiya sistemi haqqında Əsasnamə" təsdiq edilsin (əlavə olunur).

**3.** "İcra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının layihələrinin hazırlanması, razılaşdırılması, qəbul edilməsi və dərc edilməsi qaydası haqqında Əsasnamə" təsdiq edilsin (əlavə olunur).

**4.** Müəyyən edilsin ki:

4.1. "Normativ hüquqi aktlar" informasiya sistemi (bundan sonra — Sistem) Azərbaycan Respublikasının Nazirlər Kabineti, mərkəzi icra hakimiyyəti orqanları, digər dövlət orqanları, habelə nizamnamələrinə əsasən normativ hüquqi akt layihələrinin hazırlanmasında iştirak etmək səlahiyyəti olan Azərbaycan Respublikasının Prezidenti və ya Azərbaycan Respublikasının Nazirlər Kabineti tərəfindən yaradılan publik hüquqi şəxslər, dövlət mülkiyyətində olan və paylarının (səhmlərinin) nəzarət zərfi dövlətə məxsus olan hüquqi şəxslər tərəfindən normativ hüquqi aktların layihələrinin hazırlanmasını, digər dövlət orqanları (qurumları) ilə razılaşdırılmasını və yuxarı orqanlara təqdim olunmasını elektron qaydada təmin edir;

4.2. Sistemin sahibi funksiyalarını Azərbaycan Respublikası Prezidentinin Administrasiyası, operatoru funksiyalarını Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi həyata keçirir.

**5.** Azərbaycan Respublikasının Nazirlər Kabineti:

5.1. normativ hüquqi aktların bu Fərmana uyğunlaşdırılmasına dair təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

5.2. Sistemin aparılması və saxlanılması ilə əlaqədar xərclərin cari ildə dövlət büdcəsində nəzərdə tutulmuş vəsait çərçivəsində maliyyələşdirilməsi üçün, növbəti illərdə isə dövlət büdcəsi layihələrində müvafiq vəsaitin nəzərdə tutulması üçün tədbirlər görsün;

5.3. bu Fərmandan irəli gələn digər məsələləri həll etsin.

**6.** Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi:

6.1. Sistemin formalaşdırılması və fəaliyyətinin təkmilləşdirilməsi ilə bağlı tədbirlər görsün;

6.2. Sistemin "Hökumət buludu"nda yerləşdirilməsi üçün texnoloji mühiti təmin etsin;

6.3. "Dövlət informasiya ehtiyatları və sistemlərinin formalaşdırılması, aparılması, inteqrasiyası və arxivləşdirilməsi Qaydaları"nın təsdiq edilməsi və elektron hökumətlə bağlı bəzi tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 12 sentyabr tarixli 263 nömrəli Fərmanına uyğun olaraq, Sistemin digər dövlət informasiya ehtiyatları və sistemləri ilə əlaqələndirilməsini "Elektron Hökumət İnformasiya Sistemi" vasitəsilə təmin etsin.

**7.** Azərbaycan Respublikasının Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidməti:

7.1. Sistemi mühafizə olunan telekommunikasiya kanalları ilə təmin etsin və həmin Sistemin təhlükəsizlik meyarları üzrə monitorinqini həyata keçirsin;

7.2. Sistemin informasiya təhlükəsizliyinin təmin edilməsi məqsədilə sahib və operatorla birlikdə zəruri tədbirlər görsün.

**8.** "İcra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının hazırlanması və qəbul edilməsi qaydası haqqında Əsasnamə"nin təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2002-ci il 24 avqust tarixli 772 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2002, № 8, maddə 492; 2007, № 11, maddə 1103; 2011, № 7, maddə 645; 2014, № 3, maddə 243; 2018, № 5, maddə 948) 1-ci hissəsi ləğv edilsin.

**9.** Bu Fərmanın 3-cü hissəsi ilə təsdiq edilən Əsasnamənin 1.4-cü bəndi və 6-cı hissəsi 2024-cü il yanvarın 1-dən qüvvəyə minir.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 6 oktyabr 2023-cü il**

## Əli Əsədovun Serbiya parlamentinin sədri ilə görüşü



**Azərbaycan Respublikasının Baş naziri Əli Əsədov oktyabrın 6-da ölkəmizdə rəsmi səfərdə olan Serbiya Respublikası Milli Assambleyasının sədri Vladimir Orliçlə görüşüb.**

Nazirlər Kabinetinin mətbuat xidmətindən bildirilib ki, görüşdə Azərbaycan ilə Serbiya arasında dostluq və strateji tərəfdaşlıq əlaqələrinin səviyyəsindən məmnunluq ifadə edilib. Dövlət başçıları arasında sıx təmasların və qarşılıqlı səfərlərin münasibətlərin inkişaf etdirilməsi baxımından əhəmiyyəti vurğulanıb.

Azərbaycan Prezidenti İlham Əliyevin ötən ilin noyabr ayında Serbiyaya rəsmi səfəri zamanı prezidentlər tərəfindən imzalanan Strateji Tərəfdaşlıq Şurasının yaradılması haqqında Memorandumun dövlətlərarası əlaqələri keyfiyyətcə yeni səviyyəyə qaldırdığı qeyd olunub. Eyni zamanda, Serbiya Prezidenti Aleksandar Vuçiçin ötən ilin dekabrında Azərbaycana işgüzar səfərinin ikitərəfli əməkdaşlığın genişlənməsinə töhfə verəcəyinə əminlik ifadə olunub.

Baş nazir cari ilin may ayında Milli Məclisin ümummilli lider Heydər Əliyevin anadan olmasının 100 illik yubileyinə həsr olunmuş xüsusi iclasında iştirak və çıxış etdiyinə görə Vladimir Orliçə təşəkkürünü bildirib.

Qeyd olunub ki, Azərbaycan və Serbiya həm ikitərəfli formatda, həm də beynəlxalq təşkilatlar çərçivəsində hər zaman bir-birinin ərazi bütövlüyünü və suverenliyini dəstəkləyib.

Tərəflər ticarət dövriyyəsinin və qarşılıqlı investisiyaların artırılması istiqamətində əlavə addımların atılması zərurətini təsdiq ediblər. Bu xüsusda, cari ilin aprel ayında Belqradda keçirilən birgə Hökumətlərarası Komissiyanın 7-ci iclasında əldə olunan razılaşmaların praktiki icrasının vacibliyi vurğulanıb.

Energetika sahəsində əməkdaşlığa toxunularaq ötən ilin oktyabr ayında Sofiya şəhərində Yunanıstan-Bolqarıstan Qaz İnterkonnektorunun açılışının əhəmiyyəti vurğulanıb, Bolqarıstan-Serbiya İnterkonnektoru istismara veriləndən sonra Serbiyanın da Azərbaycan qazını ala biləcəyi diqqətə çatdırılıb.

Görüşdə, həmçinin iki ölkə arasında nəqliyyat-tranzit, bərpaolunan enerji, humanitar və bir çox digər sahələrdə əməkdaşlığın genişləndirilməsi perspektivləri müzakirə olunub.

***AZƏRTAC***

## Vladimir Orliç Milli Məclisdə



**Milli Məclisin Sədri Sahibə Qafarova ölkəmizdə rəsmi səfərdə olan Serbiya Respublikası Milli Assambleyasının Sədri Vladimir Orliçlə görüşüb.**

S.Qafarova qonağı Azərbaycan parlamentində salamlayaraq, Vladimir Orliçin ölkəmizə ikinci dəfə səfər etdiyini qeyd edib, bunun ölkələrimiz arasında dostluq münasibətlərinin səviyyəsinin göstəricisi və əlaqələri bütün sahələrdə inkişaf etdirməyə hazır olmağımızın təzahürü kimi dəyərləndirib. O, serbiyalı qonağın ümummilli lider Heydər Əliyevin 100 illik yubileyinə həsr olunmuş xüsusi iclasında iştirakı çərçivəsində Azərbaycana, həmçinin, özünün bu ilin mayında Serbiyaya rəsmi səfəri və bu səfərlər çərçivəsində aparılan müzakirələri məmnunluqla xatırladıb.

Qeyd olunub ki, Azərbaycan və Serbiya dost və strateji tərəfdaş ölkələrdir. Prezident İlham Əliyevin dediyi kimi, Serbiya Azərbaycanın Avropada ən yaxın dostlarından biridir.

O deyib ki, artıq Qarabağ bölgəsinin etnik ermənilərinin reinteqrasiya prosesinin həyata keçirilməsinə başlanılıb. S.Qafarova daha sonra Qarabağın erməni sakinlərinə humanitar yardımların göndərildiyini, onlara miqrasiya və sosial müdafiə sahəsində yerlərdə xidmətlər göstərildiyini, müvafiq qeydiyyat proseslərinə başlanıldığını bildirib. Əlavə edib ki, Azərbaycan vətəndaşlığını qəbul edəcək şəxslərin bütün hüquqları və təhlükəsizliyi təmin olunacaq.

Görüşdə iqtisadi əlaqələrin daha da dərinləşməsinin əhəmiyyəti vurğulanıb. Azərbaycanın işğaldan azad edilmiş ərazilərində aparılan yenidənqurma işlərində Serbiya şirkətlərinin də iştirak etmək istəyi diqqətə çatdırılıb.

İki ölkə arasında humanitar sahədə əməkdaşlıq məsələlərinə də toxunulub. Qeyd olunub ki, Azərbaycan və Serbiya xalqları arasında dostluq dövlətlərarası münasibətlərin inkişafı üçün möhkəm əsasdır. Şuşa şəhəri ilə Serbiyanın Novi Pazar şəhərinin qardaşlaşması bu baxımdan yüksək qiymətləndirilib.

Serbiya Milli Assambleyasının Sədri dost Azərbaycanda səfərdə olmaqdan məmnunluğunu bildirib.

Serbiyanın spikeri Azərbaycana onun ölkəsinin ərazi bütövlüyünə verdiyi dəstəyə görə minnətdarlığını ifadə edərək, Serbiyanın da hər zaman Azərbaycanın ərazi bütövlüyü və suverenliyini dəstəklədiyini diqqətə çatdırıb.

Görüşdə qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında da fikir mübadiləsi aparılıb.

***Ə.BƏDƏLOV***
***XQ***

## Qazaxıstanın hərbi heyəti Azərbaycanda

**Oktyabrın 6-da Qazaxıstan Respublikasının Müdafiə naziri general-polkovnik Ruslan Jaksılıkovun rəhbərlik etdiyi nümayəndə heyəti ölkəmizə səfər edib.**



Geniş tərkibdə keçirilən görüşdə Müdafiə naziri general-polkovnik Zakir Həsənov qonaqları salamlayaraq ölkələrimiz arasında həyata keçirilən ikitərəfli hərbi əməkdaşlığın dostluq və qardaşlıq münasibətləri üzərində qurulduğunu vurğulayıb.

Qazaxıstanın müdafiə naziri Azərbaycanın ərazi bütövlüyü və suverenliyinin bərpa olunması münasibətilə həmkarını təbrik edib, şəhid olanlara Allahdan rəhmət diləyib və onların yaxınlarına dərin hüznlə başsağlığı verib.

Xəzər dənizinin Azərbaycana məxsus ərazi sektorunda hər iki ölkənin Hərbi Dəniz Qüvvələrinin (HDQ) gəmilərinin və hərbi qulluqçularının iştirakı ilə keçirilən "Xəzri-2023" birgə taktiki təliminin əhəmiyyəti vurğulanıb. Keçirilən birgə taktiki təlimin hərbi qulluqçuların peşəkarlığının artırılması baxımından vacibliyi qeyd olunub.

Sonda "Azərbaycan Respublikası Müdafiə Nazirliyi ilə Qazaxıstan Respublikası Müdafiə Nazirliyi arasında 2024-cü il üçün ikitərəfli hərbi əməkdaşlıq planı" imzalanıb.

***XQ***

## Serbiya Milli Assambleyasının sədri Azərbaycana rəsmi səfərə gəlib



**Serbiya Respublikası Milli Assambleyasının sədri Vladimir Orliç oktyabrın 6-da Azərbaycan Respublikasına rəsmi səfərə gəlib.**

Hər iki ölkənin Dövlət bayraqlarının dalğalandığı Heydər Əliyev Beynəlxalq Aeroportunda Serbiya Milli Assambleyasının sədrini Milli Məclis sədrinin müavini Adil Əliyev, Azərbaycanın Serbiyadakı səfiri Kamil Xasiyev, Serbiyanın ölkəmizdəki səfiri Draqan Vladisavljeviç və digər rəsmi şəxslər qarşılayıblar.

**XQ**

## Sülhməramlılar 3 müşahidə məntəqəsini bağlayıblar

**Azərbaycan ərazisində müvəqqəti yerləşdirilmiş Rusiya sülhməramlıları son 24 saat ərzində iki daimi və bir müvəqqəti müşahidə məntəqəsini bağlayıb.**

Bu barədə Rusiyanın Müdafiə Nazirliyi məlumat yayıb.

Qeyd edilir ki, gün ərzində üç müşahidə məntəqəsi bağlanıb.

***XQ***



## Baş Prokurorluğun təmsilçiləri beynəlxalq tədbirdə

**İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatının Fransanın Paris şəhərindəki mənzil qərargahında Şərqi Avropa və Mərkəzi Asiya üzrə Antikorrupsiya Şəbəkəsinin 22-ci plenar iclası və Şəbəkənin İdarə Heyətinin 28-ci görüşü keçirilib.**



Tədbirlərdə ölkəmiz Baş prokurorun müavini – Baş Prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin rəisi Nazim Rəcəbovun rəhbərlik etdiyi nümayəndə heyəti tərəfindən təmsil olunub.

İclasda Nazim Rəcəbov ölkəmizin korrupsiyaya qarşı mübarizə təcrübəsinə dair geniş məlumat verib, eləcə də ölkəmiz üzrə dəyərləndirilən hər bir fəaliyyət sahəsi üzrə tədbir iştirakçılarının sualları cavablandırılıb.

***XQ***

# Azərbaycanın etirazı və Makronun Avropa Siyasi Birliyi layihəsi üçün fiasko

## "Politico" Qranadadakı Zirvə toplantısını əhəmiyyətsiz sayır

**(əvvəli 1-ci səhifədə)**

"Politico" yazır ki, Fransa prezidenti Emmanuel Makronun layihəsi olan Avropa Siyasi Birliyi ideyası, indiki halda bu platformanın üçüncü zirvə toplantısı Ermənistan və Azərbaycan arasında sülhə nail olmaq, Balkanlarda gərginliyi azaltmaq və qitənin təhlükəsizliyinə dair strateji söhbətlər aparmaq imkanı kimi təqdim edilib. Avropa liderləri ABŞ-ın Ukraynaya yardımı ilə bağlı narahatlıqlar fonunda, Avropanın dəstəyini hiss etdirmək üçün Qranadada olan Ukrayna Prezidenti Vladimir Zelenskinin ətrafında dolaşsalar da, əsas oyunçuların olmaması səbəbindən, digər münaqişələrdə irəliləyiş əldə edə bilmədilər.



Nəşrin diqqət yetirdiyi başlıca məqamlardan biri Azərbaycan Prezidenti İlham Əliyevin və Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan üçüncü zirvə toplantısında iştirak etməməsi idi. Bu isə "Politico"nun fikrincə, Qarabağdakı humanitar böhranın həlli üçün hərəkətə keçmək ümidlərini puça çıxardı. Halbuki, liderlər Azərbaycanın bölgədə, 100 min qaçqının (?) ölkəni tərk etməsinə səbəb olan, ildırım sürətli hücumundan sonra Prezident İlham Əliyevlə baş nazir N.Paşinyan arasında ilk görüşü keçirməyə ümid bəsləyirdilər.

Nəşr bildirir ki, Azərbaycan Fransanı danışıqlarda qərəzli olmaqda ittiham etdiyindən, Prezident İlham Əliyev Qranadaya getmədi. Amma ümumən Bakı son nəticədə danışıqlara razıdır, bir şərtlə ki, proses ancaq Avropa İttifaqının himayəsi altında Brüsseldə gerçəkləşsin. Nüfuzlu Avropa nəşri bunu Azərbaycan Prezidentinin köməkçisi, Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyevin "X" sosial şəbəkəsində bildirdiklərinə istinadən yazıb.

"Politico" toplantıda Kosovo və Serbiya arasındakı gərginliyi aradan qaldırmaq cəhdlərinin də Azərbaycan–Ermənistan münasibətlərinin tənzimlənməsi kimi, nəticəsiz qaldığından söz açıb. Nəşr bu baxımdan Kosovo Prezidenti Vjosa Osmaninin mövqeyi üzərində dayanıb. Mövqe isə bundan ibarətdir ki, o, Belqrada qarşı sanksiyaların tətbiq edilməyəcəyi təqdirdə, serb həmkarı Aleksandr Vuçiçlə danışıqlardan imtina qərarını verib.

"Politico" bu qənaətdədir ki, qeyri-rəsmi sammitin mənasızlığı ev sahibi ölkənin – İspaniyanın 700-ə yaxın jurnalist üçün toplantının gözlənilən məqamlarına dair əvvəlcədən planlaşdırılmış mətbuat konfransını son anda ləğv etdikdə özünün pik həddinə çatıb. Halbuki, mətbuat konfransında İspaniya qəbul edilən bəyanatların mətnini açıqlamalı, həmçinin Avropa Siyasi Birliyinə rəhbərliyin özündən Böyük Britaniyaya keçdiyini rəsmən təsdiqləməli idi.

Nəşr liderlərin sammitə həvəssizliyi məsələsinə də diqqət yetirib. Media orqanının yazdığına görə, bu, günün əvvəlindən açıq-aydın görünürdü. Bir çox dövətlilər jurnalist kütləsi ilə fikirlərini bölüşməkdən çəkindilər. İtaliyanın baş naziri Corcio Meloni isə sən demə, mediaya münasibətdə lap saymazyana davranıbmış. Xanım baş nazir jurnalistlərin qarşısından mobil telefonla danışa-danışa keçibmiş. Bundan başqa nə Almaniya Kansleri Olaf Şolts, nə də Böyük Britaniyanın baş naziri Rişi Sunak mətbuata açıqlama verib. Öz növbəsində Avropa Siyasi Birliyinin yaradılması ideyasının irəli sürən Fransa lideri E.Makronun da media təmsilçilərinə deyəcək heç nəyi yox idi.

"Politico" Makronun yalnız günün sonuna yaxın mətbuat konfranslarının birində tədbirlə bağlı danışmaq üçün özündə cəsarət tapdığına diqqət çəkib. O, Avropa Siyasi Birliyinin 47 üzvü arasında kibercinayətkarlıqla mübarizə sahəsində əməkdaşlığı gücləndirmək məsələlərindən söz açıb. Ən əsası isə Makron görüşün faydalılığına sübut kimi, Azərbaycanın olmadığı şəraitdə, Ermənistanla aparılmış danışıqların faydalarını reklam etməyə girişib. Bəli, reklam etmək. Nəşrin qənaəti məhz belədir. Aydın görünür ki, "Politico" mövcud istiqamətdəki danışıqları əhəmiyyətsiz saymaqdadır...

Fransa Prezidenti ABŞ-ın Ukraynaya yardımı gecikdirməsi ilə bağlı suala cavab olaraq, Birləşmiş Ştatların Kiyevə milyardlarla dollarlıq dəstəyini, habelə Aİ-nin töhfəsini böyük tamamlayıcı faktor adlandırıb. Lakin bir qədər də populist tonlarla xəbərdar edib ki, mövcud durum "Avropa səfərbərliyimizi əvəz edə bilməyəcək". "Politico" Avropa Siyasi Birliyi ideyasının orijinallıq məntiqini irəli sürən Makrona, Əlhambrada axşam turu üçün liderlərə qoşulmazdan əvvəl, jurnalistlərdən həmişəkindən daha az sual ünvanlandığını da nəzərəçarpan mənfi hal olaraq vurğulayıb. Nəşrin qənaəti belədir ki, bu durum tədbirə və ideyaya olan marağın zəifləməsindən xəbər verir.

Qeyd edək ki, İspaniya Administrasiyası Avropa Siyasi Birliyinin üçüncü Zirvə toplantısı ilə bağlı əsas mətbuat konfransının niyə ləğv edildiyinə izahat verməkdən yayınıb. Aİ diplomatlarından birinin sözlərinə görə, bu halın yaşanmasında "heç bir fundamental problem" yox idi və mətbuat üçün bəyanatlara, demək olar, ehtiyac qalmamışdı: "Bu, mini BMT-dir. Bu, liderlərin hərəkətə keçə və sövdələşmələr bağlaya biləcəyi bazardır".

Onu da deyək ki, E.Makron Rusiya–Ukrayna münaqişəsi başlandıqdan sonra, konkret olaraq 2022-ci ilin mayında Avropa Siyasi Birliyi ideyasını işə salıb. O zaman bu təşəbbüs xeyli ambisiyalı görünüb. Hesab edilib ki, mövcud platforma liderlər üçün sadəcə Davos İqtisadi Forumu kimi bir yer olmayacaq, eyni zamanda, onlara "əməkdaşlıq üçün yeni məkan" yaratmaq, sülh və təhlükəsizliyin daha əzmlə təşviqi müstəvisinə çevriləcək.

Ancaq məlumdur ki, ASB münaqişələrin həllində az irəliləyiş əldə etdi. Danışıqlarda əsas diqqət miqrasiya məsələlərinə yönəldi. Elə indi də belə oldu. Nəzərə alaq ki, bu, Britaniya lideri Rişi Sunak üçün başlıca mövzudur. Çünki onun ölkəsinin məlum "Brexit"dən sonra məsələni Avropa dövlətləri ilə müzakirə imkanı yoxdur. Makronun bildirdiyinə görə, zirvə toplantısı çərçivəsində R.Sunak, C.Meloni (İtaliyanın baş naziri) və Albaniyanın baş naziri Edi Rama arasında keçirilən görüşdə tranzit ölkələrində məlumat mübadiləsi və insan alverinə qarşı əməliyyatlar üzrə əməkdaşlığı artırmaq üçün öhdəliklər götürülüb. "Politico" yalnız bu cəhəti oktyabrın 5-də keçirilmiş toplantının başlıca uğuru kimi qiymətləndirib.

Sonda ümumən qeyd edək ki, aparılan bir sıra təhlillər Almaniyada Angela Merkelin hakimiyyətinin sona çatması ilə Avropada liderlik probleminin yarandığını göstərib. Mövcud kontekstdə Fransa Almaniyadan boş qalan yeri doldurmağı hədəfləyən siyasət yürüdüb. ASB ideyası da bundan qaynaqlanıb. Əslində, Parisin gərgin diplomatik səyləri ilə fəaliyyətə başlayan yeni mexanizm Avropanın dünya siyasətində nüfuzunun artırılmasını qarşısına məqsəd qoyub. Fransa Prezidenti Makron üçün məsələ çox vacibdir. Ona görə ilk növbədə ASB Makronun Avropa siyasətində və dünya diplomatiyasında liderlik mövqeyini gücləndirmək cəhdi kimi qiymətləndirilib.

Onu da nəzərə alaq ki, bu platformanın toplantıları son illərdə dünya diplomatiyasında təsiri azalan Fransa və bu mövzuda tənqidlərə məruz qalan Makron üçün xüsusi məna və əhəmiyyət kəsb edir. "Politico" haqqında söz açdığımız məqaləsi ilə göstərdi ki, tədbirə maraq aşağı səviyyədədir. Yəni, toplantı elə bir mühüm məna yükü daşımır. Azərbaycan isə Türkiyənin Bakı–İrəvan danışıqlarında iştirakı təklifini irəli sürməklə, həm də onu sübut etdi ki, aşkar ermənipərəst mövqe tutan Makron Fransasının Avropa liderliyini qəbul etmir.

**Ə.RÜSTƏMOV**
**XQ**

# Baş nazirin müavini Şahin Mustafayev İranın yol və şəhərsalma naziri ilə görüşüb

**Oktyabrın 6-da Bakıda Azərbaycan Respublikası Baş nazirinin müavini, Azərbaycan Respublikası ilə İran İslam Respublikası arasında iqtisadi, ticarət və humanitar sahələrdə əməkdaşlıq üzrə Dövlət Komissiyasının həmsədri Şahin Mustafayev ilə İran İslam Respublikasının yol və şəhərsalma naziri, Komissiyanın İran tərəfdən həmsədri Mehrdad Bəzrpaş arasında görüş keçirilib.**



Tərəflər bu gün Zəngilan rayonunun Ağbənd qəsəbəsi yaxınlığında təməlqoyma mərasiminin keçirilməsi, müvafiq inşaat işlərinə başlanılması və inşa ediləcək yeni dəmir yolu xətti və körpülərinin planlarının müzakirəsi ilə bağlı məmnunluqlarını ifadə etdilər.

İki ölkənin nümayəndə heyətlərinin iştirakı ilə keçirilmiş görüşdə Azərbaycanla İran arasında nəqliyyat və kommunikasiya, enerji və su ehtiyatlarından istifadə ilə bağlı ikitərəfli gündəlikdə duran aktual məsələlər müzakirə edildi.

Tərəflər regionun tranzit cəlbediciliyinin artırılmasının önəmini qeyd edərək, "Şimal-Cənub" dəhlizinin vacib komponenti olan Astaraçay üzərində inşa edilmiş körpünün yaxınlaşma yollarının tikintisi və sərhəd-gömrük infrastrukturunun yaradılması ilə bağlı təxirəsalınmaz tədbirlərin görülməsinin zəruriliyini vurğuladılar.

Eyni zamanda, Astara yük terminalının tikintisinin tezliklə başa çatdırılması üçün dövlət qurumlarına müvafiq tapşırıqlar verildi.

Görüşdə, həmçinin "Xudafərin", "Qız qalası" və "Ordubad-Marazad" hidroqovşaqlarının və su elektrik stansiyalarının tikintisi layihələrinin tezliklə yekunlaşdırılması məqsədilə işlərin sürətləndirilməsinin vacibliyi qeyd edildi.

Danışıqların yekunlarına görə, iki ölkə arasında aşağıdakı sənədlər imzalandı:

- İran İslam Respublikasının ərazisindən keçməklə Azərbaycan Respublikasının Şərqi Zəngəzur İqtisadi Rayonu ilə Naxçıvan Muxtar Respublikası arasında yeni dəmir yolu xəttinin və dəmir yolu körpülərinin tikintisi haqqında Niyyət Protokolu;
- Azərbaycan-İran dövlət sərhədində Ağbənd (Azərbaycan Respublikası) - Kəlalə (İran İslam Respublikası) dövlət sərhədinin buraxılış məntəqələrində Araz çayı üzərində avtomobil sərhəd körpüsünün və piyada keçidinin tikintisinə dair Birgə İşçi Qrupun həmsədrlərinin görüşünün Protokolu.

**XQ**

**KÖŞƏ**

# ...Haqqın da bükülməz qolu, dönməz üzü vardır

## Azərbaycanın son günlərdəki uğurları böyük Tofiq Fikrətin bu inamını yada salır

**Doğrusu, Azərbaycanın son üç ildə nail olduğu genişmiqyaslı tarixi uğurları başqaları kimi mən də heç zaman ağlıma belə gətirə bilməzdim. Çünki düşmənin qaniçənlik, terrorçuluq, təxribatçılıq "təcrübəsi" də çox idi, qahmar çıxanları da. Üstəlik, düşmən otuz il əsarətdə saxladığı torpaqlarımızda bir-birindən möhkəm olan çoxsaylı istehkamlar, özlərinin də fəxr etdiyi kimi "Ohanyan sədləri" qurmuşdu. Onları adlamaq mümkünsüz görünürdü.**



**İttifaq MİRZƏBƏYLİ**
**i-mirzebeyli@mail.ru**

Bizim hansısa məqsədə çatmağımızı "mümkünsüz edən" xarici amillər də çox idi. Bir tərəfdən, Rusiya öz vassalının ayaq üstdə durması üçün gah açıq, gah da gizli havadarlıq edir, digər tərəfdən Qərb və Avropa Azərbaycanla dostluqda, əməkdaşlıqda maraqlı olsa da, anti-Türk, anti-Azərbaycan, anti-İslam əhval ruhiyyəsindən qopa bilmir, orta əsrlərdəki "Xaç yürüşləri"ni müasir ideoloji və texniki vasitələrlə davam etdirirdi. Bu yandan da İran Türk dünyasının tərəqqisini həzm edə bilmirdi. Yəni Azərbaycanın öz hüquqlarını qoruya bilməsi, ərazi bütövlüyünə nail olması mümkünsüz görünürdü.

Ona görə də biz on illər idi ki, Türkiyənin istiqlal şairi Tofiq Fikrətin qətiyyətli çağırışlarla dolu olan məşhur şeirini xatırlayaraq köks ötürürdük:

**Çeynəndi yetər, varlığımız cehl ilə qəhrə,**
**Doğrandı mübarək Vətənin bağrı səbəbsiz.**
**Birlikdə bu gün bulmalıyız dərdinə çarə,**
**Can qardaşı, qan qardaşı, şan qardaşıyız biz.**
**Millət yoludur, haqq yoludur tutduğumuz yol,**
**Ey Haqq, yaşa, ey sevgili millət, yaşa, var ol!**

Ancaq zaman gəldi, biz cahillərin varlığımızı çeynəməsinin, mübarək Vətənin bağrının səbəbsiz yerə doğranmasının çarəsini birlikdə tapdıq. Can qardaşlarının, qan qardaşlarının, şan qardaşlarının millət yolunda, haqq yolunda apardığı mübarizə haqqı da yaşadı, milləti də var etdi. Biz çoxsaylı dəstəyi olan şərə qalib gəldik və bütün dünyaya sübut etdik ki, Azərbaycan xalqı məğlubedilməz xalq, dövlət başçımız isə müasir dünyanın ən qətiyyətli liderlərindən biridir.

Mən Rusiya Prezidenti Vladimir Putinin Valday Beynəlxalq Diskussiya Klubunun (həmin tribuna bizə hələ İkinci Qarabağ müharibəsindən əvvəl də yaxşı tanışdır) plenar iclasında söylədiyi fikirləri eşidəndən sonra bu sətirləri qələmə almaq qərarına gəldim. Rusiya Prezidenti dedi ki, Qarabağın Azərbaycan ərazisi kimi statusu müəyyən ediləndən sonra sülhməramlılarımızın statusu keyfiyyətdə dəyişikliyə uğradı: "Azərbaycan Prezidenti mənə dedi ki, sizin sülhməramlılar bizim ərazimizdə yerləşir. Gəlin, indi onların statusu ilə bağlı ikitərəfli əsasda danışaq. Ermənistan baş naziri Paşinyan da bunu təsdiq etdi, bəli, siz indi ikitərəfli əsasda razılaşmalısız. Yəni ki, Qarabağ getdi... İndi bu status haqqında nə istəsən demək olar. Bu, əsas məsələ idi, ötən on illiklər ətrafında hər şey o statusun ətrafında fırlanırdı. Bitdi. Ermənistan onu həll etdi. Qarabağ rəsmən Azərbaycanın tərkibinə keçdi. Müasir Ermənistan dövlətinin mövqeyi belə oldu. Biz nə edə bilərik ki?"

Yəni Rusiya artıq ədalətli mövqe nümayiş etdirir. Halbuki, 2021-ci ilin yayında Rusiya müdafiə naziri Ermənistan müdafiə naziri ilə görüş zamanı söyləmişdi ki, Ermənistana Rusiya silahlarının göndərilməsi prosesi başlamışdır. Ona görə də avqustun 14-də Azərbaycan Prezidenti Rusiya rəhbərliyinə mesaj göndərmişdi: "Kremldən gözləntimiz odur ki, Rusiya Ermənistanı silahlandırmasın. Biz bu məsələni Rusiya tərəfinə çatdırmışıq. Bu, bizi narahat edir".

Deməli, Tofiq Fikrətin "Zülmün topu var, güllesi var, qələsi varsa,

Haqqın da bükülməz qolu, dönməz üzü vardır" fikrini birbaşa Azərbaycan həqiqətlərinə tətbiq edə bilərik.

Hələ bu, harasıdır? Azərbaycanın Xarici İşlər Nazirliyi Emmanuel Makronun Qranadadakı mətbuat konfransında Bakının sentyabrın 19-da apardığı lokal antiterror əməliyyatına şər atmaq, həmin əməliyyatları, az qala, Fransanın Afrikada törətdiyi vəhşiliklərdən də betər olduğunu sübut etmək cəhdlərinə görə onu başa saldı ki, ağlınızı başınıza yığın: "Azərbaycanla təzyiq dilində danışmaq mənasız və qəbuledilməzdir".

Onu da xatırladaq ki, bədxahlarımız əvvəllər də Azərbaycanla təzyiq dilində danışırdılar. Sonra nə oldu? Bədxahlarımızın neylənləməsindən asılı olmayaraq, ermənilər bizim dediklərimizi etməli oldular.

Dövlət başçımız sentyabrın 20-də xalqa müraciətində ermənilərin bizim dediklərimizlə razılaşdıqlarını aydın şəkildə dilə gətirmişdir: "Artıq qanunsuz erməni silahlı birləşmələrinin mövqelərdən çıxarılma prosesi başlamışdır. O cümlədən, onlar bizim şərtimizi qəbul edərək silahların da təhvil verilməsinə başlamışlar. Sual olunur: Bu vəziyyətə gətirib çıxarmaq kimə xeyir gətirdi? Axı, İkinci Qarabağ müharibəsindən dərhal sonra biz haqlı narahatlığımızı ifadə edərək dəfələrlə Ermənistan rəhbərliyinə, onların xaricdəki havadarlarına və digər tərəflərə müraciət edərək deyirdik ki, Ermənistan silahlı qüvvələrinin Azərbaycan ərazisində qalması qanunsuzdur və buna son qoyulmalıdır... Qarabağ Azərbaycan ərazisidir və bunu bütün dünya tanıyır, o cümlədən, Ermənistan rəhbərliyi artıq bunu başa düşüb. Əgər vaxtilə "Qarabağ Ermənistandır və nöqtə" deyirdisə, indi "Qarabağ Azərbaycandır" deyir və nəinki deyir, hətta bizim ərazimizin ölçülərini də dilə gətirməyi unutmur".

Sonda – TASS xəbər verir ki, Ermənistan baş naziri Nikol Paşinyan Qranadada keçirilən Avropa Siyasi Birliyinin sammiti çərçivəsində Aİ, Almaniya və Fransa ilə görüşdə bəyanname imzalayıb. Aİ Şurasının yaydığı həmin sənəddə deyilir ki, "Tərəflər Ermənistanın (29 800 kv. km) və Azərbaycanın (86 600 kv. km) suverenliyi, sərhədlərinin toxunulmazlığı və ərazi bütövlüyünün qarşılıqlı tanınması əsasında Ermənistan və Azərbaycan arasında münasibətlərin normallaşdırılmasına yönəlmiş bütün səylərə sadiq qalırlar".

Fikrimcə, burada "İlan ulduz görməyincə ölməz" – deyimi də yada düşür, Tofiq Fikrətin yuxarıda xatırlatdığımız şeiri də. Hər halda, zalımın, zülmkarın nəyi olsa da, "Haqqın da bükülməz qolu, dönməz üzü vardır."

# Makronun uğursuz "Lambada"sı

## Fransa Prezidenti Afrikada öyrəndiyi rəqsi Cənubi Qafqazda oynamaq istəyir

(əvvəli 1-ci səhifədə)

*DOSYE: 2022-ci ildə siyasi və strateji diskussiyalar üçün təsis edilmiş hökumətlərarası təşkilat kimi Avropa Siyasi Birliyinin (ASB) məqsədi "Köhnə qitə"nin siyasətini əlaqələndirəcək platforma yaratmaqdır. Bu birliyə Aİ-nin üzvü olmayan ölkələr, o cümlədən, Böyük Britaniya, Azərbaycan, İslandiya, Ukrayna, Moldova, Türkiyə, Gürcüstan və Ermənistan da daxildir. ASB-nin ilk sammiti 2022-ci ilin oktyabrında Praqada, ikincisi isə cari ilin iyununda Moldovada keçirilib. Qranada zirvəsi ASB-nin sayca üçüncü toplantısı olub.*

"Fransa prezidentinin Azərbaycan və Türkiyənin Qranadakı tədbirdə iştirakdan imtina etməsi məsələsi ilə bağlı iddiaları riyakarlıq nümunəsidir". Azərbaycan Xarici İşlər Nazirliyinin yaydığı bəyanatda yer alıb.

Rəsmi Bakının Qranada görüşündə iştirakdan imtinasını Ermənistanla sülh danışıqlarından boyun qaçırması kimi təqdim edilməsinin qətiyyən düzgün olmadığını bildirən Azərbaycan Prezidentinin köməkçisi – Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev bununla bağlı "X" hesabında aşağıdakıları yazıb: "Fransanın regionda qərəzli və militarizasiya siyasətinə, Cənubi Qafqazda regional sülh və sabitliyə zərər gətirən və Avropa İttifaqının Cənubi Qafqaz siyasətini risk altına qoyan addımlarına və rəsmi Bakının israrına baxmayaraq, region ölkəsi olaraq qardaş Türkiyənin beşlik formatında (Azərbaycan, Ermənistan, Avropa İttifaqı, Fransa və Almaniya) olan görüşdə iştirakına imkan verilmədiyinə görə Azərbaycan Qranadada iştirak etməməyə qərar verdi. Biz, həmçinin ev sahibi kimi İspaniyanın da bu formatda keçirilən görüşdə iştirakının tərəfdarı idik. Bəzi beynəlxalq media resurslarında bunun Azərbaycanın Ermənistanla təmaslardan və ya danışıqlardan imtina etməsi kimi təqdim edilməsi düzgün deyil". H.Hacıyev, həmçinin Bakının sülh danışıqlarının üçtərəfli Brüssel formatını dəstəklədiyini və Türkiyənin Qranadada nəzərdə tutulan görüşdə iştirakına qarşı çıxan Fransanın mövqeyini pislədiyini qeyd etmişdi.

Paris hər vəchlə Ermənistanı, guya, Azərbaycanın ehtimal olunan təcavüzündən müdafiə edəcəyindən, bu məqsədlə İrəvana ən müasir silahları göndərəcəyindən danışır. Bir qədər əvvəl Ermənistana səfər edən Fransanın XİN başçısı Ketrin Kolonna "X" platformasındakı hesabında Ermənistanla hərbi əməkdaşlığı gücləndirəcəklərini, Yerevana hərbi attaşe təyin olunacağını, Zəngəzurda konsulluğun açılacağını bildirmişdi. Bəs sıravi fransızların Yelisey sarayının Qafqaz siyasətinə münasibəti necədir? Fransanın BFM TV kanalının sifarişi ilə yerli KİV-lər Parisin Azərbaycanın Qarabağ regionu məsələsində fəaliyyətsizliyi, o cümlədən, erməniləri qorumalı olduğu ilə bağlı yayılan materiallardan sonra fransızlar arasında rəy sorğusu keçiriblər. Məlum olub ki, respondentlərin böyük əksəriyyəti – 63 faizi bu məsələyə müdaxilənin əleyhinədir. Bəzilərinin isə bölgədə baş verənlərdən xəbəri yoxdur. Rəyi soruşulanların 38 faizi sorğuda iştirak etmək istəmədiyini, 25 faizi isə bu məsələ ilə bağlı fikir bildirməkdə çətinlik çəkdiyini bildirib. Cəmi 6 faiz "yerli əhalini qorumaq"la bağlı Qarabağa hərbi müdaxilə barədə absurd ideyanı dəstəkləyib.

*

"Köhnə qitə"nin ən böyük dövləti sayılan Fransanın BMT, ATƏT, Avropa İttifaqı kimi qurumların yaranmasında və formalaşmasında müstəsna rolunu danmaq olmaz. Amma son otuz ildə rəsmi Parisin əksər liderləri Ermənistan–Azərbaycan münaqişəsinə münasibətdə açıq-aşkar ermənipərəst mövqe sərgiləyiblər. Fəqət ondan heç biri diplomatik qırmızı xətti keçməyib. Emmanuel Makron üçün isə sanki bu xətt mövcud deyil. O, son çıxışları ilə göstərir ki, Rusiyanı Cənubi Qafqazdan sıxışdırıb çıxarmaq fikrindədir. Yəni, Paris Rusiyanın Ukraynadakı müharibə nəticəsində zəiflədiyini anlayır və yaranmış "əlverişli məqamdan" maksimum yararlanmağa çalışır.

E.Makron Qarabağla bağlı qeyri-adekvat bəyanatları ilə həm də ölkəsindəki erməni elektoratın rəğbətini qazanmağa çalışır. Axı Fransada kifayət qədər böyük və güclü erməni diasporu var. Bu ölkədə, təxminən, 600 min erməni yaşayır və onların seçki prosesinə təsir imkanları var. Makron iqtidarı həm də Afrikada məruz qaldığı siyasi-iqtisadi itkilərini Cənubi Qafqazda kompensasiya etməyə cəhd edir. Artıq gizlədilməsi mümkün olmayan fakt budur ki, Fransanın Afrika qitəsinin ondan çox ölkəsi ilə strateji səviyyədə davam edən münasibətləri Makron hakimiyyətə gəldikdən sonra ikitərəfli diplomatik əlaqələrin dondurulmasına qədər pisləşib. Yəqin bunun səbəbini həm tarix, həm də sadə fransızlar ondan soruşacaq. Kənar müşahidəçiyə elə gəlir ki, Ermənistana dayaq durmağı, guya, özünün şərəf məsələsi kimi təqdim edən Fransanın indiki iqtidarı qeyri-ixtiyari özünüqoruma instinkti ilə hərəkət edir.

*

Emmanuel Makrona, eləcə də Avropanın ermənipərəst digər siyasilərinə "Şalaxo" ilə "Lambada"nı səhv salmamağı məsləhət görərdik. Çünki dünyanın hər bir qitə və regionunun özünəməxsus mədəni dəyərləri olduğu kimi, onlara riayət etməyənlərə münasibətdə xüsusi davranış üsulları da mövcuddur. Cənubi Qafqazın geosiyasi məkanında "afrikasayağı siyasi "Lambada" oynamağa girişən Makronun Azərbaycanla ultimatum dilində danışmağa çalışması əvvəlcədən uğursuzluğa məhkum nömrədir. Həmin uğursuzluq halqalarından artıq zəncir əmələ gəlib. Azərbaycana yuxarıdan-aşağı baxmağa həvəslilərə mükəmməl cavabın ən bariz nümunəsini isə Prezident İlham Əliyev sentyabrın 20-də xalqa müraciətində bu sözlərlə nümayiş etdirdi: "Bizimlə heç kim diktə və ultimatum dilində danışa bilməz!".

Ötən əsrdə Yaxın Şərqdən, XXI yüzillikdə isə Afrikadan məhz etnik soyqırımı, müstəmləkəçilik və irqçilik siyasətinə görə qovulan Fransanın, bu ölkənin ən uğursuz rəhbəri "titulunu" qazanmış Emmanuel Makronun müxtəlif xalqların, millətlərin, dini konfessiyaların sülh və əmin-amanlıq şəraitində birgə yaşadığı Azərbaycana qarşı milli azlıqların haqlarının təminatı ilə bağlı nəinki irəli sürməyə, ona məsləhət verməyə, hətta, bu barədə danışmağa belə ixtiyarı yoxdur.

***İmran BƏDİRXANLI***
**XQ**

### EKSPERT RƏYİ



**Rasim MUSABƏYOV,**
**Milli Məclisin deputatı, politoloq**

Qranada görüşü elə Emmanuel Makronun təşəbbüsü ilə keçirilib. Bu toplantının məqsədinin, nəticəsinin nə olacağını heç özləri də bilmirlər. Sonda heç bir mənaya və qüvvəyə malik olmayan kommünikelər imzalanması ilə tamamlanır. Azərbaycana bu tədbirin heç bir aidiyyatı yoxdur. Makrona gəldikdə isə, yuyulmamış çömçə kimi düşüb ortalığa. O, indi heç Fransanın özündə nüfuz sahibi deyil. Afrikadan qovular, Parisdə isə üzünə tüpürüblər. Bunların əvəzi kimi gəlib Cənubi Qafqazda siyasi xal toplamaq istəyir. Buradan da əli ətəyindən uzun çıxıb getməyə məcbur olacaq. Ümumiyyətlə, bundan sonra Azərbaycan hökuməti heç bir məsələdə Fransanı özünə yaxın buraxmamalıdır. İspaniyada, yaxud öz ölkəsində nə danışsa, danışsın, onun dedikləri Bakı üçün mənasızdır.

Əgər hünəri varsa, getsin bizə qarşı sanksiya qəbul etdirsin. Bunu bacarmaz. Çünki sanksiyaların tətbiqinə heç bir əsas yoxdur. Qəti əminəm ki, bu zaman Makronun itirəcəkləri qazancından qat-qat çox ola bilər. Fransa rəhbəri bunu deməklə, guya, Azərbaycana hədə-qorxu gəlmək istəyir. Amma bunu elan edə bilməz. Avropa İttifaqının daxilində bir ölkənin təkbaşına hansısa sanksiya tətbiq etmək imkanı yoxdur. Həmin Avropa İttifaqının tərkibində Azərbaycanla yaxın dostluq, əməkdaşlıq əlaqələrinə malik İtaliya, Bolqarıstan, Rumıniya, Macarıstan kimi ölkələr var. Bizdən qaz alan Yunanıstan belə Parisin cəfəng təklifinə qoşulmayacaq.

### EKSPERT RƏYİ



**Tofiq ABBASOV,**
**siyasi şərhçi**

Azərbaycan Prezidentinin Qranada görüşündə iştirak etməməsi tədbiri şou səviyyəsinə saldı. Bəli, Makron və Şolts orada siyasi oyunbazlıq etdilər. Şarl Mişelin özü də görüş öncəsi ikibaşlı açıqlama verdi. Həqiqətən də o görüş Azərbaycan diplomatiyasına lazım deyildi. Heç nə itirmədik. İndi bizi sanksiya ilə hədələyirlər. Hansı səbəbə görə? Azərbaycan hansı qanunu pozub? Separatizmdən, terrordan, mina təxribatlarından məğər Ermənistan əziyyət çəkib? Bakı bütün bunlara son qoydu. Ermənilərin Qarabağdan çıxmalarına gəldikdə isə Makron soydaşlarımızın hansı vəziyyətdə qovulduğunu qoy yadına salsın. Əsl etnik təmizləmə o vaxt törədilib. O, bu proseslərdən heç də məlumatsız deyil. Bu həqiqətləri Şolts və Şarl Mişel də yaxşı bilirlər.

Diplomatiyamızın dəst-xətti ondan xəbər verir ki, Azərbaycan düşmənə, bədxahlara, təftiş düşkünlərinə ölkəmizi ittiham etməyə şans vermir. Məsuliyyətsiz ittihamlara, hədə-qorxulara isə layiqincə cavab vermişik, bundan sonra da verəcəyik. Fransa neomüstəmləkəçilik siyasətini Qafqaza gətirməyə çalışır. Bura Afrika deyil. Yeri gəlmişkən, həmin "Köhnə qitə" də səndən üzünü döndərib. Əgər əvvəllər deyilirdisə ki, Cənubi Qafqaz supergüclərin marağı var, indi burada supergücə çevrilmiş Azərbaycan var.

Azərbaycan sülh danışıqları üçün Brüssel, Moskva, Vaşinqton platformalarını özünə uyğun görür. Amma bu prosesdə kənar "subyektlərin" iştirakı yolverilməzdir.

### EKSPERT RƏYİ



**Fərhad MƏMMƏDOV,**
**politoloq**

Fransanın qeyri-konstruktiv bəyanatları, qeyri-sağlam hərəkətləri barədə Bakının rəsmi cavab və şərhləri açıqlandı. Fransa liderinin müəllifi olduğu həmin Anti-Azərbaycan tezisləri, neqativ məqamlar bəyanatda da öz əksini tapıb. Toplantının yekununda Emmanuel Makronun söylədikləri açıq-aşkar yalandır. Rəsmi Bakı Qarabağ ermənilərinin qayıtması ilə bağlı öz fikrini bildirib, prinsipial mövqeyini ortaya qoyub. Amma düşünürəm ki, Azərbaycanın ermənipərəst çıxışlara ən düzgün adekvat cavabı Qranada görüşündə iştirakdan imtina etməsi oldu. Bu cavabın konkret və praktiki nəticəsi var. Artıq oktyabrın sonlarında yalnız Şarl Mişelin iştirakı ilə üçtərəfli (Ermənistan – Azərbaycan – Aİ – red.) Brüssel formatının növbəti raundu planlaşdırılır. Bu barədə cənab Prezidentin Almaniya Kansleri ilə ayrıca telefon danışığı olub. Yəni, Azərbaycan aydın şəkildə bildirib ki, Fransanın iştirakı olmadan Avropa İttifaqının sülh təşəbbüslərinə müsbət yanaşır. Əgər Avropa İttifaqı geosiyasi gücə çevrilmək iddiasında olan bir siyasi təsisat kimi Cənubi Qafqazda cərəyan edən proseslərdə nizamlayıcı kimi iştirak etmək istəyirsə, bu halda Azərbaycanın ədalətli, beynəlxalq hüquqa və daxili qanunvericiliyə söykənən mövqeyini mütləq nəzərə almalıdır. Amma bu təmaslar, təbii ki, Fransasız baş tutacaq.

# Qranadada "fransızsayağı kommünike"

## *İspaniyada imzalanan bəyanatda anklavlar və Zəngəzur dəhlizi nədənsə "unudulub"*

(əvvəli 1-ci səhifədə)

Mişel, Makron və Şolts qeyd ediblər ki, bu "qaçqınlar" heç bir şərt olmadan, beynəlxalq nəzarət altında və öz tarixlərinə, mədəniyyətlərinə və insan hüquqlarına lazımi hörmətlə evlərinə və yaşayış yerlərinə qayıtmaq hüquqlarını sərbəst şəkildə həyata keçirə bilməlidirlər. Onlar Şarl Mişelin 14 may və 15 iyul 2023-cü il tarixli bəyanatlarında qeyd olunduğu kimi, Ermənistanın (29800 kvadratkilometr) və Azərbaycanın (86600 kvadratkilometr) suverenliyi, sərhədlərinin toxunulmazlığı və ərazi bütövlüyünün qarşılıqlı tanınması əsasında Ermənistan və Azərbaycan arasında münasibətlərin normallaşdırılmasına yönəlmiş bütün səylərə sadiq qalırlar. Mişel, Makron və Şolts gücdən istifadə etməmək və onun tətbiqi ilə hədələməmək prinsipinə ciddi əməl etməyə çağırıblar.

Onlar SSRİ Silahlı Qüvvələrinin Baş Qərargahının tərəflərə təqdim edilmiş ən son xəritələri əsasında sərhədlərin delimitasiyası üzərində işin təcili aparılmasının zəruriliyini vurğulayıblar ki, bu xəritələr həm də qüvvələrin ayrılması, habelə sülh müqaviləsi və bütün humanitar məsələlərin həlli üçün əsas olmalıdır.

Mişel, Makron və Şolts regional əməkdaşlığın genişləndirilməsinə və bütün sərhədlərin, o cümlədən, Ermənistan və Türkiyə arasındakı sərhədin, eləcə də ölkələrin suverenliyinə və yurisdiksiyasına tam hörmət, həmçinin bərabərlik və qarşılıqlılıq əsasında regional nəqliyyat əlaqələrinin açılmasına çağırıblar. Avropa liderləri Ermənistan və Azərbaycanı bütün saxlanılanları azad etməyə, itkin düşmüş şəxslərin taleyinin müəyyən olunmasında əməkdaşlığa və minalardan təmizləmə işlərinə birgə işləməyə çağırıblar.

Göründüyü kimi, Fransa, Almaniya liderləri və Aİ Şurasının rəhbəri yenə də Azərbaycanla Ermənistan arasında bərabərlik işarəsi qoyublar. Onların Ermənistanın ərazi bütövlüyü ilə bağlı dərin narahatlıq keçirməsindən belə anlaşılır ki, sanki Azərbaycan həmin ölkəyə hücuma hazırlaşır. Halbuki, ölkəmizin belə bir niyyəti yoxdur və Ermənistanın ərazi bütövlüyünü tanıyır. Bu məsələ bir neçə dəfə yüksək səviyyədə bəyan olunub. Sonuncu dəfə sentyabrın 20-də xalqa müraciəti zamanı Prezident İlham Əliyev bu barədə deyib: "Mən ümid etmək istəyirəm ki, bizim atdığımız addımlar və antiterror tədbirlərinin nəticələri imkan verəcək ki, nəhayət, sülh danışıqları üçün olan, Ermənistan tərəfindən qoyulan, verilən, təklif olunan, necə adlandırırsınız adlandırın, maneə aradan qalxa bilər. Bu, Cənubi Qafqazda yeni reallıq yaradacaq, uzunmüddətli sülh yaradacaq. Biz əmin olmalıyıq ki, qarşı tərəf revanşist fikirlərlə yaşamır və onlar da əmin olmalıdırlar ki, bizim onların torpağında gözümüz yoxdur. Biz onların ərazi bütövlüyünü tanıyırıq və bunu bəyan etmişik, bütün ölkələrin ərazi bütövlüyünü tanıyırıq". Ermənistanın ərazi bütövlüyü ilə bağlı Azərbaycanın ən yüksək səviyyədə bəyanatın verilməsindən sonra Avropa liderlərinin nümayiş etdirdikləri bu mövqe anlaşılmazdır.

Bundan əlavə, sənəddə ümumi sözlərlə SSRİ Silahlı Qüvvələrinin Baş Qərargahının tərəflərə təqdim edilmiş ən son xəritələrindən söhbət açılır. Bəyanatdan bilmək olmur ki, söhbət neçənci illərin xəritələrindən gedir. Həmin xəritələrdə nələrin qeyd olunduğu isə ümumiyyətlə, müəmmalıdır. Güman etmək olar ki, Ermənistan baş nazirinin də iştirak etdiyi görüşdən sonra açıqlanan bəyanatda haqqında bəhs edilən xəritələr İrəvanın maraqlarına cavab verir.

Bəyanatda Azərbaycanın hələ də erməni işğalı altında olan 8 anklav kəndinin taleyi barədə heç nə deyilmir. Əgər Ermənistan Azərbaycanın 86,6 min kvadratkilometrdə ərazi bütövlüyünü tanıdığını bəyan edirsə, bura anklav kəndlər də daxil olmalıdır. Çünki ölkəmizin ərazisi həmin anklav ərazilərlə birlikdə 86,6 min kvadratkilometrdir.

Həmçinin, Azərbaycanın cənub-qərb rayonları ilə Naxçıvan MR arasında əlaqənin yaradılmasına xidmət edəcək Zəngəzur dəhlizinin də adı çəkilmir. Görünür, Ermənistan bu sözdən qıcıqlandığı üçün onun baş nazirinin olduğu tədbirdə dəhliz ifadəsini işlətməkdən yayınıblar. Əvəzində regional nəqliyyat əlaqələrindən bəhs ediblər. Olsun. Amma məsələ bundandır ki, İrəvan hətta Zəngəzur dəhlizi sözü olmadan da bu prosesə qarşı çıxır. Daha doğrusu, 10 noyabr 2020-ci il tarixli üçtərəfli Bəyanatla üzərinə götürdüyü öhdəliyi icra etmir.

Ermənistan, Fransa, Almaniya liderləri və Aİ Şurası rəhbərinin bəyanatında əksini tapan fikirlərdən Qərbi Azərbaycan İcması da narazı qalıb. İcmanın yaydığı bəyanatda bu barədə bildirilib: "Ermənistan, Fransa, Almaniya və Avropa İttifaqının Qranadada verdikləri bəyanat ayrı-seçkilik xarakteri daşıyır. Biz, Ermənistandan zorla qovulmuş azərbaycanlıları təmsil edən Qərbi Azərbaycan İcması Ermənistan, Fransa, Almaniya və Avropa İttifaqı liderlərinin 5 oktyabr 2023-cü il tarixində İspaniyanın Qranada şəhərində verdikləri ayrı-seçkilik xarakterli bəyanatla bağlı dərin məyusluğumuzu və narahatlığımızı bildiririk. Onlar Ermənistandan qovulmuş azərbaycanlıların öz evlərinə qayıtmaq üçün bərabər və legitim hüquqlarını tanımaqdan imtina ediblər. Geri qayıtmaq hüququmuzu inkar edən bu yanlış və birtərəfli bəyanat bizim iztirablarımızı dərinləşdirməklə yanaşı, regionda gərginliyi daha da artırır və davamlı sülhün və barışığın əldə edilməsinə mane olur".

Qeyd olunub ki, Qərbi Azərbaycan İcması dəfələrlə Ermənistana, Aİ-yə və onun üzv dövlətlərinə müraciət edərək, ata-baba torpaqlarımıza təhlükəsiz və ləyaqətlə qayıtmağımıza imkan yaratmağı xahiş edib: "Təəssüflər olsun ki, bu müraciətlərimiz biganəlik və sükutla qarşılanıb. Qranadada yaydıqları qərəzli bəyanatla Aİ və onun bəzi üzv dövlətləri Ermənistanın azərbaycanlılara qarşı etnik təmizləmə siyasətinə faktiki olaraq dəstək veriblər. Biz Ermənistanı, Fransanı, Almaniyanı və Aİ-ni öz mövqelərinə yenidən baxmağa və Ermənistandan qovulmuş azərbaycanlıların təhlükəsiz şəkildə və ləyaqətlə öz evlərinə qayıtmaq hüquqlarını tanımağa çağırırıq".

Onu da bildirək ki, Avropa Siyasi Birliyinin yaradılması təşəbbüsü Emmanuel Makrona məxsusdur. O, 2022-ci il mayın 9-da Ukrayna kimi Aİ-dən kənar ölkələrin daxil ola biləcəyi yeni siyasi birliyin yaradılmasını təklif edib. Avropa Siyasi Birliyi qitə ölkələri arasında siyasi əlaqələndirmə platforması kimi düşünülüb. Birliyin məqsədi ümumi maraq doğuran məsələlər həlli üçün siyasi dialoqu və əməkdaşlığı inkişaf etdirmək, Avropa qitəsinin təhlükəsizliyini, sabitliyini və rifahını gücləndirməkdir. Onun ilk sammiti 2022-ci il oktyabrın 6-da Çexiyanın paytaxtı Praqada, ikinci sammiti 2023-cü il iyunun 1-də Moldovanın paytaxtı Kişineuda keçirilib. Qranada sammiti sayca üçüncü idi.

Ancaq Makronun digər təşəbbüsləri kimi bu təşəbbüsünün də uğursuz olduğunu söyləmək üçün əsaslar var. Azərbaycan və Türkiyə liderlərinin Fransanın qərəzliliyi üzündən sammitə qatılmadıqları belə əsaslardan biridir. "Politico" nəşri isə Qranada sammitinin fiaskoya uğradığını yazır. Nəşr 50-yə yaxın dövlət və hökumət başçısının, siyasətçilərin və jurnalistlərin qatıldığı sammitin Avropada münaqişələrin, yaxud hansısa digər regional problemin həlli baxımından əhəmiyyətli irəliləyişin əldə olunmadığı tədbir kimi yadda qaldığını bildirib.

Qeyd olunur ki, üçüncü sammit siyasi texnoloqlar tərəfindən Ermənistan və Azərbaycan arasında sülhə nail olmaq, Balkanlarda gərginliyi azaltmaq və qitənin təhlükəsizliyi ilə bağlı strateji danışıqlar imkanı kimi təqdim edilirdi: "Liderlər ABŞ-ın Ukraynaya yardımı ilə bağlı narahatlıqlar fonunda Avropanın dəstək verməsi üçün Qranadada olan Ukrayna Prezidenti Vladimir Zelenskinin ətrafında toplaşsalar da, əsas iştirakçıların olmaması səbəbindən digər münaqişələrin həllində irəliləyiş əldə edə bilmədilər. İlham Əliyev və Rəcəb Tayyib Ərdoğan görüşdə iştirak etməmək qərarına gəldilər, amma iştirakçılar Azərbaycan və Ermənistan liderləri arasında antiterror tədbirlərindən sonra ilk görüşün keçiriləcəyinə ümid edirdilər.

O da bildirilir ki, İspaniya hökumətinin 700-ə yaxın jurnalisti akkreditasiyadan keçirdiyi sammitdə mətbuat konfransı gözlənilmədən ləğv edilib. Halbuki, ev sahibi bəyanatları açıqlamalı və Avropa Siyasi Birliyi rəhbərliyinin İspaniyadan Böyük Britaniyaya keçdiyini rəsmi şəkildə bildirməli idi. Rəsmi Madrid mətbuat konfransının niyə ləğv edildiyi barədə məlumat verməyib.

"Politico" onu da qeyd edir ki, liderlərin sammitə həvəssiz gəldiyi günün əvvəlindən açıq-aydın görünürdü. Nə Almaniya Kansleri Olaf Şolts, nə də Böyük Britaniyanın Baş naziri Rişi Sunak mətbuata açıqlama verib. "Avropa Siyasi Birliyinin ideyası Emmanuel Makrona məxsus olsa da, onun da deyəcək sözü yox idi", – deyə nəşr qeyd edib.

***Səxavət HƏMİD***
**XQ**



### EKSPERT RƏYİ



**Fərid ŞƏFİYEV,**
**Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzinin rəhbəri:**

– Qəbul olunan bəyanatın bizə və ümumiyyətlə proseslərə heç bir təsiri yoxdur. Qranadada görüşənlər dərk ediblər ki, Azərbaycansız bu işi irəli aparmaq mümkün olmayacaq. Ona görə də Şarl Mişel oktyabrın sonunda Brüsseldə görüş təşkil olunacağını və orada yalnız Azərbaycanla Ermənistanın iştirak edəcəyini bəyan edib. Bu, Qranada bəyanatının effektini müəyyən dərəcədə aşağı salır. Amma Qranada bəyanatında bizim üçün vacib olan bəzi məqamlar var. Məsələn, Paşinyan konkret rəqəmlə göstərməklə Azərbaycanın ərazi bütövlüyünü tanıdığını etiraf edib.

Mənfi məqamlara gəldikdə isə qeyd etmək lazımdır ki, oktyabrın 5-də Avropa Parlamentinin ölkəmizlə bağlı qərəzli qətnaməsi qəbul olunub. Həmin qətnamədə ikili standartlar öz əksini tapıb. Azərbaycanlı qaçqınlar, vaxtilə işğal olunmuş ərazilərdəki dağıntılar barədə orada heç nə deyilməyib, mina problemi də öz əksini tapmayıb. Biz bunları lap əvvəldən müşahidə edirik. Hələ 1989-cu ildə – Sovet İttifaqının mövcud olduğu dövrdə Avropa Parlamentinin Azərbaycanla bağlı qətnaməsi qəbul olunmuşdu. Ona görə də biz buna öyrəşmişik. Avropa İttifaqı və Avropa Parlamenti bununla ancaq özlərini nüfuzdan salırlar.

# “Azərbaycanı ədalətli mövqeyindən heç bir qüvvə döndərə bilməz”

## Milli Məclisdə Avropa Parlamenti kəskin tənqid olundu

**Dünən Sahibə Qafarovanın sədrliyi ilə Milli Məclisin 2023- cü il payız sessiyasının növbəti plenar iclası keçirildi. Parlamentin Sədri gündəliyə 18 məsələnin çıxarıldığını bildirdi. İlk olaraq, oktryabrın 5-də Avropa Parlamentinin ölkəmiz haqqında qəbul etdityi qərəzli qətnamə müzakirə olundu. S.Qafarova dedi ki, Avropa Parlamentində Azərbaycanı hədəf alan çirkin siyasi aksiya təşkil olunmuş və ölkəmizə qarşı böhtanlar üzərində qurulan qərəzli qətnamə qəbul edilmişdi.**



S.Qafarovanın qeyd etdiyi kimi, belə bir qeyri-obyektiv sənədin ortaya çıxması onu göstərir ki, Avropa Parlamentində bəzi qüvvələr Azərbaycanın həyata keçirdiyi antiterror tədbirləri, Qarabağ bölgəsində suverenliyimizin tam bərpa olunması, münaqişənin tarixə qovuşması ilə heç cür barışa bilmirlər. İşğal dövründə mövcud olmuş və artıq özünü buraxmış qondarma qurumun dəstəklənməsi separatizmə rəvac verməyə yönəlmişdir. Qarabağ bölgəsində yaşayan erməni sakinlərin Azərbaycan cəmiyyətinə reinteqrasiyası üçün dövlətimiz tərəfindən həyata keçirilən tədbirlərin görməzliyə vurulması Avropa Parlamentinin ikili standartlardan əl çəkə bilmədiyini göstərir. Azərbaycanın etnik təmizləmədə ittiham edilməsi isə siyasi məsuliyyətsizliyin ən bariz nümunəsidir.

Bu qətnamənin, əsasən, fransalı deputatların təşəbbüsü ilə hazırlanması və müzakirəyə çıxarılması diqqətə çatdırıldı. Fransa bu gün bütün dəyərləri bir kənara qoyaraq, açıq-aşkar təcavüzkar Ermənistan dövlətinin yanında yer alıb. Həm Fransada, həm də bəzi digər ölkələrdə və təşkilatlarda Azərbaycanın uğurlarını həzm edə bilməyən qüvvələr bilsinlər ki, onların bütün cəhdləri əbəsdir. Haqq-ədalət Azərbaycanın tərəfindədir. Azərbaycan güclü dövlətdir və xalqımızı yenidən fəlakətə sürükləmək istəyən qüvvələrin qarşısını almağa qadirdir. Möhtərəm Prezidentimiz İlham Əliyevin dediyi kimi, “uzaqda, Avropada yerləşən “erməni cəfakeşləri” bilsinlər – nə qədər uzaq dursalar bizim bölgəmizdən, o qədər də bölgə rahat nəfəs alacaq və biz bunu təklif edirik”.

Sonra deputatlar Avropa Parlamentinin qərəzli və böhtanla dolu qətnaməsindən söhbət açdılar. Qeyd olundu ki, heç kim Azərbaycanı suverenliyini tam bərpa etməsi yolundan döndərə bilməz. Ölkəmizə qarşı hər zaman qərəzli mövqe nümayiş etdirən Avropa Parlamentinin növbəti qərəzli qətnaməsi həm də islamofob xarakteri daşıyır. Adətən, Fransa başda olmaqla ermənipərəst qüvvələrin müstəmləkəçilik siyasəti iflasa uğrayandan sonra bu qəbildən qətnamələr qəbul edilir.

Avropa Parlamentinin belə siyasət yürütməsindən təəssüflənən deputatlar bildirdilər ki, bu qurumun qəbul etdiyi qətnamə və qərarların Azərbaycan üçün heç bir əhəmiyyəti yoxdur. Avropa Parlamentinin qərəzli qətnaməsi onun fəaliyyətini və varlığını şübhə altına qoyur. Fransa başda olmaqla, bir sıra ölkələr Azərbaycanın öz suveren ərazilərini tam bərpa etməsi ilə barışa bilmirlər. Bu, onların problemidir. Azərbaycanı ədalətli mövqeyindən heç bir qüvvə döndərə bilməz.

Milli Məclis Avropa Parlamentinin ölkəmizlə bağlı qərəzli qətnaməsinə cavab olaraq bəyanat qəbul etdi.

Sonra gündəlikdəki digər məsələlərinin müzakirəsi başlandı.

“Azərbaycan Respublikası Milli Məclisinin Daxili Nizamnaməsi”ndə dəyişiklik edilməsi haqqında qanun layihəsini Milli Məclis Sədrinin birinci müavini, Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri Əli Hüseynli təqdim etdi. Dəyişikliyə əsasən, Azərbaycan Prezidentinin təqdimatı ilə Azərbaycan Respublikası diplomatik nümayəndəliklərinin təsis edilməsi, inzibati ərazi bölgüsü, dövlət təltifləri barədə qanun layihələrinə Milli Məclisdə bir oxunuşda baxılacaq.

“Qiymətləndirmə fəaliyyəti haqqında” qanun layihəsinin müzakirəsi zamanı bəlli oldu ki, Azərbaycanda Qiymətləndiricilər Palatası yaradılacaq. Bu palatanın üzvü olmayan şəxslər ölkə ərazisində qiymətləndirmə fəaliyyəti ilə məşğul ola bilməzlər.

“Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının dövriyyəsi haqqında” Qanuna dəyişiklik olunması təklif edildi. Dəyişikliyə əsasən, narkotik vasitələrin, o cümlədən, tərkibində narkotik maddələr olan bitkilərin (onların hissələrinin) və psixotrop maddələrin, habelə onların prekursorlarının müvafiq qanunlarla müəyyən edilmiş xeyli miqdarından aşağıdırsa, şəxsin inzibati məsuliyyətə cəlb edilməsinə əsas verən az miqdar hesab olunur.

Ölkəmizdə səfərdə olan Serbiya Respublikası Milli Assambleyasının Sədri Vladimir Orliç Milli Məclisin bu gün keçirilən iclasında iştirak etdi.

Bununla da Milli Məclis öz işini başa çatdırdı.

*Əliqismət BƏDƏLOV*
*XQ*

*Avropa Parlamentinin 2023-cü il 5 oktyabr tarixli qətnaməsi ilə əlaqədar*

# Azərbaycan Respublikası Milli Məclisinin Bəyanatı

**Azərbaycan Respublikasının Milli Məclisi 2023-cü il oktyabrın 5-də Avropa Parlamentinin qərəzli və obyektivlikdən uzaq qətnamə qəbul etməsinə qəti etirazını bildirir və ölkəmizi hədəf alan bu hərəkəti şiddətlə qınayır. Xatırladırıq ki, Azərbaycanın Avropa Parlamenti qarşısında heç bir öhdəliyi yoxdur. Yaxşı olar ki, Avropa Parlamenti Avropada tüğyan edən islamofobiya, antisemitizm, miqrantların hüquqlarının kütləvi və kobud surətdə pozulması və digər bu kimi köklü problemlərlə məşğul olsun.**

Sözügedən qətnamə Fransa hökumətinin təhriki ilə əksəriyyəti bu ölkədən olan anti-Azərbaycan, islamofob deputatların saxta məlumatları əsasında hazırlanmışdır. Avropa Parlamentinin bu addımı onun ikili standartlara əsaslandığının növbəti bariz nümunəsi olub, məsələlərə selektiv yanaşdığını sübut edir. Beynəlxalq səviyyədə tanınmış Azərbaycan ərazisinin 20 faizinin 30 ilə yaxın davam edən işğalının doğurduğu ağrı-acıya, etnik təmizləməyə, Xocalı soyqırımına, 1 milyondan artıq qaçqın və məcburi köçkünün taleyinə, şəhər və kəndlərin yerlə-yeksan edilməsinə, tarixi, mədəni və dini irsin dağıdılmasına etinasızlıq göstərən Avropa Parlamentinin Azərbaycan ərazisində qalmaqda davam edən Ermənistan Respublikası silahlı qüvvələrinin birləşmələrinə və qanunsuz erməni dəstələrinə qarşı həyata keçirilmiş anti-terror tədbirlərindən sonra Ermənistan Respublikası tərəfindən yaradılmış qondarma qurumun müdafiəsinə yönələn belə bir qətnaməni qəbul etməsi separatizmə açıq dəstək verməkdir.

Qətnamənin əsas təşəbbüskarı olan Fransa son illər Cənubi Qafqaz bölgəsində sülh və təhlükəsizliyin təmin edilməsi yolunda başlıca maneəyə çevrilmişdir. Dünyanın müxtəlif regionlarında iflasa uğrayan Fransa Cənubi Qafqaz bölgəsini yeni təhlükələrə sürükləyərək qeyri-sabit zonaya çevirməyə çalışır. Fransanın Azərbaycanın Qarabağ bölgəsində erməni separatizmini dəstəkləyərək, özünün mənfur yeni müstəmləkəçilik təcrübəsini Cənubi Qafqaz bölgəsində tətbiq etməyə çalışması, xristianlıq amilini qabartması və keçmiş münaqişəyə dini təəssübkeşlik mövqeyindən yanaşması onun səlibçi siyasətinin təzahürüdür.

Qondarma “Dağlıq Qarabağ Respublikası” özünü buraxdığını elan etdikdən sonra Avropa Parlamentinin onu müdafiə etməsi siyasi riyakarlıqdan xəbər verir və bölgədə vəziyyətin yenidən gərginləşməsinə xidmət edir. Avropa Parlamenti Azərbaycan torpaqlarının işğalı dövründə bu qondarma quruma dəstək verməklə işğalın uzun illər davam etməsi, on minlərlə azərbaycanlının qətlə yetirilməsi üçün məsuliyyət daşıyır.

Məhz bu cür qərəzli və obyektivlikdən uzaq fəaliyyəti ilə Avropa Parlamenti öz nüfuzuna sarsıdıcı zərbə endirir, erməni lobbisinin və onu dəstəkləyən qüvvələrin əlində oyuncağa çevrildiyini göstərir. Avropa Parlamentinin anti-Azərbaycan və islamofob siyasətinin nəticəsidir ki, Avropa Parlamenti ilə Azərbaycanın münasibətləri aşağı səviyyədədir. Avropa Parlamentində təmsil olunan bir sıra deputatlar Avropa seçicilərinin deyil, lobbi qruplarının maraqlarını təmsil edir. Belə davranış həm də şovinizmin, ifrat sağ düşüncənin təzahürüdür. Bu yanlış siyasəti ilə Avropa Parlamenti Avropa İttifaqının Cənubi Qafqaz siyasətini təhlükə altına atır.

Qətnamədə irəli sürülən iddialardan fərqli olaraq, Azərbaycan hökuməti Azərbaycan Respublikasının Qarabağ bölgəsində yaşayan erməni sakinlərin Azərbaycan cəmiyyətinə dayanıqlı reinteqrasiyasının təmin edilməsi və Azərbaycan dövlətinin himayəsindən istifadə etməsinə imkan yaradılması məqsədi ilə Qarabağ bölgəsində sosial, humanitar, iqtisadi və infrastruktur məsələlərinin həlli istiqamətində kompleks tədbirlər həyata keçirir.

BMT-nin, Beynəlxalq Qırmızı Xaç Komitəsinin, BMT-nin Qaçqınlar üzrə Ali Komissarlığının və digər beynəlxalq təşkilatların səsləndirdiyi bəyanatlara tamamilə zidd olaraq, Avropa Parlamentinin bölgədən könüllü getmiş erməni sakinlərin ərazidən zorla köçkün düşdüyünü iddia etməsi beynəlxalq ictimaiyyəti çaşdırmaq məqsədi daşıyır.

Azərbaycan Respublikasının Milli Məclisi Avropa Parlamentinin rəhbərliyini korrupsiyaya qurşanmış destruktiv və qərəzli qüvvələri dayandırmağa, Cənubi Qafqaz bölgəsində yaranmış yeni reallıqları əks etdirən obyektiv sənədlər qəbul etməklə bölgədə sülh və sabitlik yaradılması səylərinə dəstək göstərməyə çağırır.

Parlament xəbərləri

# Deputatlar nələrdən danışıblar?



### Seçki Məcəlləsinə dəyişiklik zəruridir

“Qarşıdan parlament seçkiləri gəlir və ona görə də Seçki Məcəlləsinə ciddi dəyişikliklər edilməlidir”. Bu təklifi Milli Məclisin komitə sədri Siyavuş Novruzov irəli sürüb. Onun sözlərinə görə, mövcud seçki qanunvericiliyi dövrün tələblərinə cavab vermədiyindən effektivliyini itirib: “İstər mövcud şərait, istərsə də “Siyasi partiyalar haqqında” Qanunun qəbul edilməsi Seçki Məcəlləsinə dəyişikliyi zəruri edir. Biz bu məsələyə yenidən baxmalıyıq”.

### Sovet maşını olanlar niyə sosial yardım ala bilməz?

Milli Məclisin payız sessiyasının ilk plenar iclasında Siyavuş Novruzov sosial yardımların effektivliyindən söhbət açıb: “Bilməliyik ki, bu sosial yardımlar effekt verir, ya yox? Çünki indiyədək sosial yardımların effektivliyi ilə bağlı heç bir hesabatlılıq həyata keçirilməyib.

Ünvanlı sosial yardımla bağlı da dinləmələrin keçirilməsinə ehtiyac var. Hər il buna 150-300 milyon manat sərf olunur. Bəlkə qaydaları dəyişək ki, daha effektli olsun? Birinin adına köhnə sovet maşını, yaxud torpaq sahəsi olduğu üçün ona ünvanlı sosial müavinət verilmir. Köhnə sovet maşının ünvanlı sosial yardıma nə aidiyyatı var?”

### “Matəm günləri” lazımdırmı?

Bu fikiri deputat Fazil Mustafa bildirib. O, bunu Azərbaycanın qalib ölkə olması ilə əlaqələndirib: “Azərbaycan artıq dünyada qalib ölkə kimi qəbul edilir. Qalib dövlətin ancaq qələbə günləri olmalıdır. Artıq yeni dövrə başlamaq lazımdır. Matəm günlərinin təqvimdən çıxarılmasına baxılmalıdır. 31 Mart və digər bunun kimi günlər də bura aid edilməlidir”.

### Qərbi azərbaycanlılar Qarabağa köçürülməlidir

“Azərbaycan bu günlərdə öz tarixinin ən şanlı səhifələrini yazır, xalqımız özünün ən qürurlu günlərini yaşayır”. Bu fikirləri parlamentin payız sessiyasında deputat Qüdrət Həsənquliyev səsləndirib.

O bildirib ki, bugünkü Ermənistan ərazisindən acımasızcasına, işgəncələrə məruz qoyularaq, təhqir olunaraq qovulmuş soydaşlarımız Qarabağı tərk etmiş, Azərbaycan vətəndaşlığını qəbul etməyən separatçıların yaşadığı Xankəndi və digər yaşayış məntəqələrinə köçürülməlidir: “Həm də bunu bacardıqca tez etməliyik”.

### 20 Sentyabr “Bütövlük Günü” olsun!

Deputat Zahid Oruc maraqlı təkliflə çıxış edib: “Antiterror tədbirləri 44 günlük Vətən müharibəsinin davamıdır. Buna görə, nəticələr 45 günlük müharibə kimi simvollaşa, Azərbaycanın siyasi təqviminə qızıl hərflərlə yazıla bilər”.

O təklif edib ki, soyqırımı, kütləvi insan və torpaq itkiləri yaşayan bir xalqın 8 noyabrda qazandığı Zəfərin davamı olaraq, 20 sentyabrı “Bütövlük günü” kimi qeyd edək və onu rəsmiləşdirək: ”Bu, hər bir azərbaycanlının, bütövlükdə xalqımızın iradəsini əks etdirir”.

*Hazırladı:*
*Ə.BƏDƏLOV*
*XQ*

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 356** **Bakı şəhəri, 4 oktyabr 2023-cü il**

***Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2007-ci il 28 avqust tarixli 136 nömrəli Qərarı ilə təsdiq edilmiş “İnzibati orqanların Təsnifatı”nda dəyişiklik edilməsi haqqında***

“Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 4 iyun tarixli 646 nömrəli Fərmanı ilə təsdiq edilmiş “Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsinin strukturu”nda dəyişiklik edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 5 may tarixli 2132 nömrəli Fərmanının 2-ci hissəsinə əsasən Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2007-ci il 28 avqust tarixli 136 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2007, № 8, maddə 861, № 9, maddə 923, № 10, maddə 1021, № 12, maddə 1331; 2009, № 1, maddələr 22, 32, № 2, maddə 150, № 4, maddələr 282, 293, № 8, maddələr 674, 675, 680, № 10, maddələr 846, 852, 856; 2010, № 2, maddələr 146, 161, № 11, maddə 1040; 2011, № 1, maddə 54, № 5, maddə 447, № 9, maddə 855; 2012, № 5, maddə 475, № 8, maddə 817, № 10, maddə 1028, № 11, maddə 1204, № 12, maddələr 1363, 1388; 2013, № 1, maddə 73, № 8, maddələr 1015, 1038, № 10, maddə 1219; 2014, № 1, maddə 69, № 3, maddə 312, № 6, maddə 736, № 7, maddə 918, № 10, maddə 1308; 2015, № 2, maddə 227, № 5, maddə 612, № 6, maddə 799, № 11, maddə 1413; 2016, № 2 (II kitab), maddə 381, № 4, maddələr 781, 831, № 5, maddə 955, № 7, maddə 1342, № 8, maddələr 1439, 1450, № 9, maddələr 1583, 1585, 1588, № 11, maddə 1976, № 12, maddə 2241; 2017, № 2, maddələr 283, 295, 310, № 5, maddə 972, № 8, maddə 1610, № 10, maddə 1920; 2018, № 2, maddə 335, № 3, maddələr 577, 626, № 7 (II kitab), maddə 1654, № 10, maddələr 2142, 2161; 2019, № 1, maddə 159, № 3, maddələr 529, 563, 565, № 4, maddə 743, № 5, maddələr 944, 972, № 12, maddələr 2064, 2068; 2020, № 2, maddə 204, № 5, maddə 652, № 7, maddə 1005, № 10, maddə 1311, № 11, maddə 1413; 2021, № 2, maddə 203, № 3, maddə 280, № 8, maddə 965, № 11, maddə 1280; 2022, № 4, maddələr 375, 379, 384, 412, № 6, maddə 686, № 7, maddə 810, № 8, maddələr 974, 1024, № 12, maddə 1552; 2023, № 1, maddə 139, № 4, maddə 583; Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2023-cü il 20 aprel tarixli 129 nömrəli, 21 iyul tarixli 236 nömrəli qərarları) ilə təsdiq edilmiş “İnzibati orqanların Təsnifatı”nın II bölməsinin 21-ci hissəsində aşağıdakı dəyişikliklər edilsin:

**1.** 21.1.1-ci yarımbənd aşağıdakı redaksiyada verilsin:

“21.1.1. ərazi gömrük idarələri:

21.1.1.1. Bakı Baş Gömrük İdarəsi

21.1.1.2. Naxçıvan Baş Gömrük İdarəsi

21.1.1.3. Astara Gömrük İdarəsi

21.1.1.4. Balakən Gömrük İdarəsi

21.1.1.5. Biləsuvar Gömrük İdarəsi

21.1.1.6. Gəncə Gömrük İdarəsi

21.1.1.7. Xaçmaz Gömrük İdarəsi

21.1.1.8. Sumqayıt Gömrük İdarəsi

21.1.1.9. Şərqi Zəngəzur Gömrük İdarəsi

21.1.1.10. Tovuz Gömrük İdarəsi”.

**2.** 21.1.2.2-ci yarımbənddə “Enerji Resursları və Dəniz Nəqliyyatında Baş Gömrük İdarəsi” sözləri “Dəniz Nəqliyyatı və Enerji Resursları Baş Gömrük İdarəsi” sözləri ilə əvəz edilsin.

**3.** Aşağıdakı məzmunda 21.1.2.4-cü yarımbənd əlavə edilsin:

“21.1.2.4. Azad və Xüsusi İqtisadi Zonalar üzrə Gömrük İdarəsi”.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının***
***Baş naziri***

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 358** **Bakı şəhəri, 5 oktyabr 2023-cü il**

***“Azərbaycan Respublikası Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidmətinin hərbi qulluqçularının və dövlət qulluqçusu olmayan mülki işçilərinin aylıq vəzifə (tarif) maaşlarının və hərbi qulluqçularının hərbi rütbəyə görə maaşlarının məbləğləri”nin təsdiq edilməsi haqqında” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2022-ci il 19 mart tarixli 106 nömrəli Qərarında dəyişiklik edilməsi barədə***

“Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 22 dekabr tarixli 1509 nömrəli Fərmanı ilə təsdiq edilmiş “Azərbaycan Respublikasının Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidmətinin strukturu”nda dəyişiklik edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 5 sentyabr tarixli 2316 nömrəli Fərmanının 2-ci hissəsinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2022-ci il 19 mart tarixli 106 nömrəli Qərarı ilə təsdiq edilmiş 1 nömrəli əlavə – “Azərbaycan Respublikasının Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidmətinin hərbi qulluqçularının (Xidmətin rəhbərliyinə aid olan hərbi qulluqçular istisna olmaqla) aylıq vəzifə (tarif) maaşlarının məbləğləri” yeni redaksiyada təsdiq edilsin (əlavə olunur, məxfi).

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının***
***Baş naziri***

Astronavtika Konqresinin gündəliyi

# Kosmik turizm xəyal deyil

## *Bu bahalı əyləncə 60 milyon dollara başa gəlir*






**Bakıda keçirilən 74-cü Beynəlxalq Astronavtika Konqresi çərçivəsində oktyabrın 6-da Beynəlxalq Astronavtika Federasiyasının təşkilatçılığı və "Azərkosmos"un tərəfdaşlığı ilə "Astronavtlar sessiyası: "Kosmosun populyarlaşması – kosmos insanları ilə tanışlıq" mövzusunda plenar iclas keçirilib.**

Heydər Əliyev Mərkəzinin Auditoriya zalında baş tutan sessiyada moderator almaniyalı astronavt, Ştutqart Universitetinin astronavtika üzrə professoru Reinold Evald olub. Plenar iclasda TUA-nın (Türkiyə Uzay Ajansı) nümayəndəsi astronavt Tuva Cihangir Atasever, "Blue origin" şirkətinin astronavtı Viktor Hespanha, Rusiyadan "Roskosmos"un nümayəndəsi astronavt Anna Yuryevna Kikina, NASA-nın Kosmik Araşdırmalar Assosiasiyasından (ASE) astronavt John David Bartoe və misirli astronavt Sara Sabry çıxış ediblər.

Kosmosda həyat tərzi, yanaşma və kosmik fəaliyyətlər barədə məlumatı bölüşən astronavtlar gənclərə bu sahənin sirlərindən danışıblar. Kosmosda zamanın çox sürətlə keçdiyini vurğulayan astronavtlar, kosmosa yollanmazdan öncə keçdikləri asan olmayan məşqlərdən də söz açıblar.

"Bu günlərdə insanları kosmosa aparmağın yeni yollarının çoxaldığını görürük. Kosmos öz orijinal, eksklüziv xarakterini itirirmi? Biz – kosmos səyahətçiləri kosmosa buraxılış motivləri haqqında düşünürük. Çünki artıq hər kəs, astronavt olmadan belə kosmosa yollana bilər. 2022-ci ildə "Artemis-1" missiyasının pilotsuz "Orion" kosmik gəmisi Ayın ətrafında uğurlu dövrə vurdu. Bu, insanların Yerin peykinə uçmasına və ora enməsinə hazırlıq mərhələsi idi. 2024-cü ildə isə bizi Ay missiyaları gözləyir", – deyə R.Evald əlavə edib.

Qeyd olunub ki, "Orion" missiyasından sonra NASA bu uğuru inkişaf etdirmək və Aya yeni ekspedisiyalar göndərmək niyyətindədir. Məqsəd 2025-ci ilə planlaşdırılan pilotlu uçuşlardan əvvəl orada elmi təcrübələr həyata keçirmək və avadanlıqları sınaqdan keçirməkdir.

Bildirilib ki, kosmik turizm sahəsi də sürətlə inkişaf edir. Bu, bahalı əyləncədir – təxminən, 60 milyon dollara başa gəlir.

Anna Yuryevna Kikina isə bildirib ki, turist kimi ilk dəfə 2021-ci ildə Rusiyanın "Soyuz" kosmik gəmisində Beynəlxalq Kosmik Stansiyada olub. O, öz təcrübəsini iştirakçılarla bölüşüb.

John David Bartoe qeyd edib ki, Avropa Kosmik Agentliyi apreldə Yupiterdə tədqiqat aparmaq üçün kosmosa aparat göndərməyi planlaşdırır. Bu missiya 13 il davam edəcək.

İclasda iştirakçıları maraqlandıran suallar cavablandırılıb.

### Sərgidə fəal iştirak edən ölkələr mükafatlandırılıb

**"Azərkosmos"un sərgi pavilyonunda stendlərin mükafatlandırılması mərasimi keçirilib.**

Səudiyyə Ərəbistanı, İtaliya Kosmik Agentliyi (ən innovativ stend), Çin Astronavtlar Assosiasiyası, "Airbus" şirkətinin nümayəndələri (ən kreativ), Yaponiyanın JAXA Kosmik Agentliyi, Polşa Kosmik Agentliyi (ən fəal), Milanın "Plan-S" şirkəti və Türkiyə Kosmik Agentliyinin (ən işgüzar) stendləri mükafatlandırılıblar.

### Astronavtlar Uşaq-Gənclər İnkişaf Mərkəzində

**Respublika Uşaq-Gənclər İnkişaf Mərkəzində rumıniyalı astronavt Dumitru Dorin Prunariu və braziliyalı astronavt Viktor Hespanha ilə məktəblilər arasında görüş keçirilib.**

Astronavtlar kosmik missiya və kosmosa uçuş təcrübələrini bölüşüblər. sual-cavab sessiyası keçirilib, ekoklub üzvləri üçün avtoqraf imzalanması mərasimi və fotosessiya təşkil edilib.

Astronavtlarla görüşdə Respublika Uşaq-Gənclər İnkişaf Mərkəzinin ekoklubunun 100-dək üzvü iştirak edib.

**XQ**

# Türkiyə ilə enerji əməkdaşlığının növbəti hədəfləri



**Azərbaycan ilə Türkiyə arasında uğurlu iqtisadi əməkdaşlıq, birgə reallaşdırılan enerji layihələrinin əhəmiyyəti və əməkdaşlığın perspektivləri nəzərdən keçirilib.**

İqtisadiyyat naziri Mikayıl Cabbarov və SOCAR-ın prezidenti Rövşən Nəcəf İstanbulda Türkiyənin energetika və təbii sərvətlər naziri Alparslan Bayraktarla görüşüb.

Görüşdə iqtisadiyyat naziri ölkələrimiz arasında səmərəli enerji tərəfdaşlığını, birgə reallaşdırılan layihələrin regional inkişafa, stabilliyə və təhlükəsizliyə, Azərbaycan və Türkiyənin strateji maraqlarının təmin olunmasına xidmət etdiyini vurğulayıb.

Türkiyənin energetika və təbii sərvətlər naziri Alparslan Bayraktar ölkələrimizin iştirakı ilə həyata keçirilən genişmiqyaslı enerji layihələrinin Avropanın enerji təhlükəsizliyinin təmin olunmasında xüsusi əhəmiyyət kəsb etdiyini bildirib.

**XQ**

# YAP-ın nümayəndə heyəti qardaş Türkiyədə

**Yeni Azərbaycan Partiyası nümayəndə heyətinin qardaş Türkiyəyə səfəri davam edir.**



Dünən Ankarada YAP Sədrinin müavini – Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov ilə Türkiyə Böyük Millət Məclisinin sədri, İstanbul millət vəkili Numan Kurtulmuş arasında görüş keçirilib.

Numan Kurtulmuş Azərbaycan–Türkiyə münasibətlərinin bənzərsiz dostluq və qardaşlıq örnəyi kimi istər ikitərəfli münasibətlərin inkişafı, istərsə də regional əməkdaşlıq və təhlükəsizlik kontekstində xüsusi əhəmiyyət daşıdığını diqqətə çatdırıb. Parlament sədri Azərbaycan ilə Türkiyənin bir-birinin milli maraqları və dövlətçilik mənafelərini beynəlxalq arenada layiqincə müdafiə etdiklərini vurğulayıb. TBMM-in sədri iki ölkə arasında parlamentlərarası əməkdaşlığın önəmindən də söz açıb.

Tahir Budaqov Azərbaycan ilə Türkiyənin "Bir millət, iki dövlət" şüarı əsasında ortaq dəyərlərə, milli maraqlara və ümumi hədəflərə uyğun uğurla fəaliyyət göstərərək strateji müttəfiqlik münasibətlərini dərinləşdirdiklərini diqqətə çatdırıb. O qeyd edib ki, bu gün Türkiyə–Azərbaycan münasibətləri ilk növbədə hər iki ölkənin liderləri – cənab İlham Əliyevlə cənab Rəcəb Tayyib Ərdoğanın iradəsi və səyləri sayəsində inkişaf edir.

YAP Sədrinin müavini 44 günlük Vətən müharibəsinin Azərbaycan ilə Türkiyə arasındakı qardaşlıq münasibətlərinin sarsılmazlığını bir daha sübut etdiyini xüsusi olaraq diqqətə çatdırıb. O, Qarabağda lokal antiterror tədbirləri həyata keçirərək suverenliyini tam bərpa edən ölkəmizin haqlı və ədalətli mövqeyinin qardaş Türkiyə tərəfindən qətiyyətlə müdafiə olunmasının böyük mənəvi-siyasi önəm daşıdığını bildirib.

*

Həmin gün Tahir Budaqov AK Parti Sədrinin birinci müavini, Bursa millət vəkili Efkan Ala, partiyanın xarici əlaqələr üzrə müavini, İstanbul millət vəkili Zafer Sırakaya və Türkiyə Prezidentinin köməkçisi Cevdet Yılmazla da görüşüb.

Qeyd edək ki, nümayəndə heyətinin tərkibinə Milli Məclisin deputatları – YAP İdarə Heyətinin üzvü Pərvin Kərimzadə, YAP Təftiş Komissiyasının sədri Sevinc Hüseynova, YAP ilə AK Parti arasında əlaqələndirici Ramil Həsən və YAP Mərkəzi Aparatının İnformasiya texnologiyaları və ictimaiyyətlə əlaqələr şöbəsinin müdiri Nurlan Qələndərov daxildir.

# Bakıda qlobal Astronavtika müzakirələri sona çatdı





**Bakının evsahibliyi etdiyi 74-cü Beynəlxalq Astronavtika Konqresinin bağlanış mərasimi keçirilib.**

Mərasimində çıxış edən Beynəlxalq Astronavtika Federasiyasının icraçı direktoru Kristian Faytinger bu mötəbər tədbirin 50 il öncə Bakıda keçirildiyini xatırladıb. O bildirib ki, Azərbaycan bu dəfə yenidən bütün kosmos icmasını öz dəyərli və zəngin mədəniyyətinə layiq yüksək səviyyədə qəbul etdi. Kosmos icmasının bu gün Bakıda toplaşıb Azərbaycanın yaratdığı əlverişli şəraitdə ideyalarını, biliklərini bölüşməsi tarixi məqamdır.

Beynəlxalq Astronavtika Federasiyasının prezidenti Kley Mouri Konqresin iştirakçılarını bu möhtəşəm tədbirin yüksək səviyyədə keçməsi ilə əlaqədar təbrik edib və növbəti tədbirlərdə iştiraka dəvət edib. 4 mindən çox insanın bu il İAC-2023-ə qoşulmasını təşkilat üçün yeni rekord adlandıran Kley Mouri, hər kəsi bu uğurla əlaqədar təbrik edib.

"Azərkosmos"un İdarə Heyətinin sədri Saməddin Əsədov bildirib ki, bu gün İAC-2023 bitir, lakin onun barədə xatirələr sonsuzadək bizlərlə qalacaq. Konqresin Bakıda keçirilməsi üçün İAF-a təşəkkürünü bildirən S.Əsədov bütün İAC tərəfdaşlarına, sponsorlara, iştirakçılara təşəkkürünü bildirib.

Daha sonra Bakının ev sahibliyində keçirilən 74-cü Beynəlxalq Astronavtika Konqresinə həsr olunmuş videoçarx nümayiş etdirilib.

Tədbir çərçivəsində bir sıra mükafatlar təqdim olunub.

Sonra Bakıda keçirilmiş 74-cü Beynəlxalq Astronavtika Konqresinin rəsmi bayrağı tədbirin bağlanış mərasimində İtaliyaya təhvil verilib.

Beləliklə, növbəti Konqres 2024-cü ilin oktyabrında İtaliyanın Milan şəhərində keçiriləcək.

# Ombudsman Ruben Vardanyana baş çəkib

**Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə müvəkkili (ombudsman) şəxslərin öz iradəsi ilə tərk edə bilmədiyi saxlama yerlərinə əvvəlcədən xəbərdarlıq etmədən baş çəkib. Başçəkmə çərçivəsində bir çox təqsirləndirilən şəxs, o cümlədən Azərbaycan–Ermənistan dövlət sərhədinin Laçın sərhəd-keçid məntəqəsində saxlanılaraq həbs edilmiş Vardanyan Ruben Karlenoviç ilə də görüşülüb.**



Cari ilin oktyabrın 3-də keçirilmiş başçəkmə zamanı Ruben Vardanyan ombudsman tərəfindən fərdi qaydada dinlənilib, müraciətləri yerində cavablandırılıb.

O, saxlanma şəraitindən razılığını bildirib, ilkin tibbi müayinədən də keçdiyini və səhhətində hər hansı bir problemi olmadığını qeyd edib. Ailə üzvü ilə telefon danışığı, sovqat qəbulu, kitabxanadan istifadə və informasiyaya çatım imkanları təmin olunub. Eyni zamanda, həbs edilmiş şəxsin istintaq dövründə hüquqlarının müdafiəsi ailəsinin seçdiyi vəkil tərəfindən həyata keçirilir.

Ombudsmanın işgəncələrin qarşısının alınması üzrə Milli Preventiv Qrupunun üzvlərinin, ixtisasca həkim və psixoloq ekspertlərinin iştirak etdiyi başçəkmə çərçivəsində görüşdən sonra ona öz dilində qanunvericilik aktları, ombudsmanın səlahiyyətləri və Çağrı Mərkəzinə birbaşa müraciət imkanı ilə bağlı məlumatlandırıcı nəşrlər də təqdim olunub.

Başçəkmə çərçivəsində müəssisədə saxlanma şəraiti – şəxsi gigiyena və sanitariya, tibbi xidmət, qidalanma məsələləri yerində araşdırılıb, saxlanılan şəxslərə münasibətdə də heç bir ayrı-seçkiliyə yol verilmədən hüquqlarının, informasiyaya çatım imkanlarının, lazımi tibbi-psixoloji xidmətin təmin olunduğu müəyyən edilib.

**XQ**

# Tərtərdə 2 nəfər minaya düşüb

**Oktyabrın 6-da saat 20:30 radələrində Tərtər rayonunun Həsənqaya kəndi ərazisində kənd sakini 1986-cı il təvəllüdlü Zaməddin Həsənlinin minaya düşməsi barədə polisə məlumat daxil olub.**



DİN Mətbuat Xidmətindən bildirilib ki, Z.Həsənli minaya düşməsi nəticəsində ayağından xəsarət alıb. O, dərhal xəstəxanaya çatdırılıb. Araşdırma aparılır.

Həmin gün saat 17 radələrində rayonun işğaldan azad edilmiş Həsənqaya kəndi ərazisində 1989-cu il təvəllüdlü mülki şəxs Yaquar Hadıyevin dəmir tullantıları toplayarkən mina partlaması nəticəsində ölməsi faktı üzrə Tərtər rayon prokurorluğunda araşdırma aparılır.

**XQ**

# Araz üstündən yeni yol salınır

## Ağbənd qəsəbəsində tikilən körpü Zəngilanı Naxçıvanla birləşdirəcək



(əvvəli 1-ci səhifədə)

Araz çayı üzərindən tikintisi başlanılan körpünün koordinatları və texniki parametrləri, körpüyə yaxınlaşma yolu layihəsi, ərazidə yaradılacaq müvafiq sərhəd-gömrük məntəqəsinin göstəriciləri, çayın əvvəlki məcrasına qaytarılma məqsədilə görüləcək sahilbərkitmə və məcratəmizləmə tədbirləri və İran ərazisindən keçməklə Şərqi Zəngəzur iqtisadi rayonu ilə Naxçıvan Muxtar Respublikası arasında inşa ediləcək yeni dəmiryolu xətti və körpülərinin planları barədə aidiyyəti dövlət qurumları tərəfindən Şahin Mustafayevə və Mehrdad Bəzrpaşa ətraflı məlumat verilib.

Həmsədrlər avtomobil körpüsü və sərhəd-gömrük infrastrukturunun göstəricilərinin ölkələrin ərazisindən keçən tranzit yükdaşımalarının artımına və Naxçıvan Muxtar Respublikasına gediş-gəlişin asanlaşdırılmasına xidmət göstərəcəyini xüsusi qeyd ediblər. Belə ki, 7 gediş-gəliş xətləri olacaq dövlət sərhədindən buraxılış məntəqəsinin, eləcə də avtomobil körpüsünün gündəlik qəbul edə biləcək yük-nəqliyyat vasitələrinin sayı, ən azı, 1100 təşkil edəcək.

Baş nazirin müavini Şahin Mustafayev Zəngilanda jurnalistlərə açıqlamasında yeni körpülər vasitəsilə İran ərazisindən keçməklə Naxçıvanla bağlantı yaradılacağını bildirib. İranın yol və şəhərsalma naziri Mehrdad Bəzrpaşın ölkəmizə səfəri zamanı Azərbaycan–İran arasında nəqliyyat əlaqələrinin inkişafı məsələlərinə daha çox vaxt ayrılacağını söyləyən Ş.Mustafayev dünyanı koronavirus pandemiyası bürüsə də, bunun ölkələrimizin nəqliyyat daşımalarına təsir etmədiyini qeyd edib. Onun sözlərinə görə, bu ilin 8 ayında yükdaşımalar 41 faiz artıb. Bundan başqa, tranzit daşımalarının həcmi 47 faiz çoxalıb. Həmçinin Şimal-Cənub Beynəlxalq Nəqliyyat Dəhlizi ilə daşımaların həcmi 57 faiz artıb.

Nəqliyyat sektorunda daha böyük potensialın olduğunu vurğulayan baş nazirin müavini bildirib ki, Azərbaycanın 44 günlük müharibədə əldə etdiyi qələbədən sonra regionda yeni vəziyyət yaranıb, nəqliyyat-logistik sektorda yeni imkanlar açılıb.

Ş.Mustafayev qeyd edib ki, Prezident İlham Əliyev işğaldan azad edilən ərazilərdə bərpa işlərinin aparılmasına və ərazilərin potensialından səmərəli istifadə olunmasına xüsusi önəm verir. Hazırda bu ərazilərdə genişmiqyaslı proqramlar yerinə yetirilir, o cümlədən yeni nəqliyyat infrastrukturu yaradılır. Bu gün Horadizdən Ağbəndə kimi avtomobil yolu çəkilir və dəmir yolu infrastrukturu bərpa olunur. Bu tədbirlər nəticəsində bölgənin tranzit imkanları artır. Eyni zamanda, Naxçıvan Muxtar Respublikasına gediş-gəliş imkanlarını yaxşılaşdırmaq və yüklərin asan daşınması istiqamətində addımlar atılır. İran İslam Respublikası ilə sözügedən məsələdə razılıq əldə olunması da bunun bariz ifadəsidir.

Onun sözlərinə görə, Zəngilanın Ağbənd qəsəbəsi yaxınlığında və Naxçıvan ərazisində tikiləcək körpülər vasitəsilə İran ərazisindən keçməklə bağlantı yaradılacaq. Ş.Mustafayev bildirib ki, qarşılıqlı razılaşma əldə olunub, körpünün layihəsi hazırlanıb. Bundan başqa, Araz çayı sahilinin bərpası işləri də aparılıb və çay əvvəlki məcrasına qaytarılıb. Eyni zamanda, gömrük keçid məntəqəsi infrastrukturunun da yaradılması nəzərdə tutulur.

Baş nazirin müavini qeyd edib ki, Ağbənd avtomobil yolu ilə gündəlik 1100 avtomobilin, 30 avtobusun, 15 min insanın sərhəddən keçidi təmin olunacaq. Bu yol tranzit yüklərin daşınmasına da xidmət edəcək. Həm Azərbaycan, həm İran, həm də region üçün əhəmiyyətli olacaq. Bu yol Şərqi Zəngəzur iqtisadi rayonu üçün zəruri infrastrukturdur. Bunun nəticəsində bölgə logistik mərkəzə çevriləcək. O əlavə edib ki, ərazidə avtomobil yolu ilə yanaşı, dəmir yolu körpüsünün də tikintisi nəzərdə tutulub. Bütün infrastruktur bir il ərzində reallaşdırılacaq.

*XQ*

# Qarabağ həmişə öz çörəyini yeyib

## İşğalın nəticələri aradan qalxdıqca taxılçılıq yenidən dirçəldilir

**İşğal altında olan torpaqlarımızın əkin dövriyyəsinə daxil edilməsi məhsul istehsalının artırılmasına mühüm təsir göstərir. Bu istiqamətdə tədbirlər "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərində kənd təsərrüfatı təyinatlı torpaqların idarə edilməsi ilə bağlı bəzi məsələlər haqqında" Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin 2021-ci il 27 aprel tarixli fərmanının icrası çərçivəsində həyata keçirilir.**

Sənədə uyğun olaraq ərazilərin minalardan təmizlənməsi prosesinə paralel olaraq kənd təsərrüfatı əkinlərinin aparılması işləri görülür. Bu vaxt hər bir iqtisadi rayonun təbii-iqlim şəraiti nəzərə alınır. Ötən müddətdə bu istiqamətdə müəyyən işlər görülüb. Füzuli, Zəngilan, Qubadlı rayonlarında, o cümlədən Laçının bir hissəsində taxıl əkilib. Keçən il 50 min hektardan məhsul yığılıb. Bu il isə 70 min hektar sahədə taxıl biçini həyata keçirilib.

Ərazilərin minalardan təmizlənməsi işləri genişləndikcə, məskunlaşma artdıqca taxıl əkininə ayrılan sahələrin 100 min hektara çatdırılması gözlənilir. Bu barədə Azərbaycan Prezidenti İlham Əliyev çıxışlarının birində deyib: "Düzdür, məhsuldarlıq çox aşağıdır, bu da təbiidir. Çünki uzun illər bu torpaqlar istifadəsiz qalmışdır, suvarma da yoxdur, dəmyə şəraitində taxıl yetişdirilir və birinci ildir ki, əkin aparılmışdır. Ona görə hektardan orta məhsuldarlıq, təqribən, 1 tondan aşağıdır. Ancaq əminəm ki, növbəti illərdə məhsuldarlıq və əkin sahələri artacaq. Mən hesab edirəm ki, biz azad edilmiş torpaqlarda taxılçılıq üçün, ən azı, 100 min hektarı dövriyyəyə buraxmalıyıq və əlbəttə ki, bütün müasir aqrotexniki tədbirlərin görülməsi, o cümlədən suvarma məsələlərinin düzgün təşkil edilməsi şərtilə".



Ermənistan tərəfindən bu ərazilərdə ekoloji fəlakət yaradılıb, əkinə yararlı torpaqlar deqradasiyaya uğradılıb. Torpaqların bərpa edilməsi, yenidən əkinçilik mədəniyyətinin formalaşdırılması üçün vaxt lazımdır. Bu istiqamətdə tədbirlər görülür. Yararsız torpaqların keyfiyyətinin yaxşılaşdırılması üçün innovasiyalar və texnologiyalar tətbiq edilir. Rayonlara uyğun sertifikatlaşmış taxıl sortlarının seçilməsi itiqamətində işlər görülür. Suvarma, yemləmə gübrələrinin verilməsi, alaqlarla və zərərvericilərlə mübarizə tədbirlərinin vaxtında və keyfiyyətlə həyata keçirilməsi istiqamətində addımlar atılır.

Mütəxəssislərin fikrincə, təqribən, 3-4 il ərzində həm əkin sahəsini, həm də məhsuldarlığı artırmaqla buğda istehsalı 300 tona çatdırıla bilər. Bu isə əhalinin etibarlı ərzaq təminatına mühüm töhfə deməkdir. Çünki taxılçılıq əhalinin çörək və çörək məmulatlarına olan tələbatını ödəməklə yanaşı, həm də heyvandarlığın qüvvəli və qaba yemə tələbatının ödənilməsində mühüm rol oynayır.

Qarabağda heyvandarlıq da aparıcı sahə olacaq. Çünki maldarlığın inkişaf etdirilməsi üçün çox münbit iqlim və təbii şərait var. Bu, həmin ərazilərdə otlaq və yaylaqların üstünlük təşkil etməsi və tarixən təsərrüfatçılıq ənənələrinin olması ilə bağlıdır.

Dövlət Statistika Komitəsinin məlumatlarına əsasən, bölgədə 1980-ci illərdə 321 min qaramal və 1,1 milyon davar mövcud olub. Hazırda onların sayının qaramal üzrə 430 minə və davar üzrə isə 1,6 milyona çatdırılması nəzərdə tutulub. Bu məqsədlə iri fermaların qurulacağı gözlənilir.

Heyvandarlıq sahəsinin inkişafı isə ölkənin ət və süd məhsulları ilə təminatı baxımından xüsusi önəm kəsb edir. Belə ki, bölgədə, təqribən, 45 min ton ət və 240 min ton süd istehsalının olacağı proqnozlaşdırılır. Bu da idxalın əvəzlənməsi və ərzaq təhlükəsizliyinin gücləndirilməsi baxımından regionun əhəmiyyətinin böyük olmasını bir daha göstərir.

***Ə. PÜNHAN***
***XQ***

# "Azad çiçəklər"in balı ikiqat şirindir

## Bu çəmənlərdə 300 min arı ailəsi saxlamaq olar



**Azərbaycanın ərazisi təbii-iqlim şəraiti baxımından arıçılığın inkişafı üçün əlverişlidir. Zəngin bitki örtüyü bal istehsalı üçün geniş imkan yaradır. Arıçılıq iqtisadi cəhətdən yüksək rentabelli fəaliyyət sahəsi, əhalinin sağlamlığını qoruyan qida mənbəyidir.**

Mütəxəssislər göstərirlər ki, arıçılıq həm də kənd təsərrüfatının digər sahələrində məhsuldarlığı artıran ekoloji amildir. Bu sahənin genişləndirilməsi ətraf mühitin heç bir resursunu azaltmır. Əksinə, arı ailələrinin çoxluğu biomüxtəlifliyin qorunmasına, kənd təsərrüfatı bitkilərinin tozlandırılmasına səbəb olur. Bununla keyfiyyət və məhsuldarlıq yüksəldilir.

İşğaldan azad edilən ərazilərdə də arıçılığın inkişafı üçün bu amillər qədərincədir. Bu torpaqlarda, təxminən, 300 min arı ailəsi saxlamaq olar. Daha çox Kəlbəcər və Laçın ərazisi, tarixən, arıçılıq rayonları hesab edilir. Vətən müharibəsindən sonra bu rayonların təhlükəsiz zonalarına pilot layihə çərçivəsində arı ailələrinin köçürülməsi həyata keçirilib. Əgər 2022-ci ildə Şərqi Zəngəzur və Qarabağ iqtisadi zonalarındakı yaylaqlara 1101 arıçı 61 min arı ailəsi aparmışdırsa, bu il həmin göstərici 125 minə çatdırılıb. Mövsüm ərzində Kəlbəcər rayonunda 1603, Laçında 808, Qubadlıda 55, Füzulidə 19, Xocavənddə 10, Cəbrayılda 18, Zəngilanda 8 arıçı fermer fəaliyyət göstərib. Kəlbəcər yaylaqlarında 77 min, Laçın yaylaqlarında 43 min, digər 5 rayonun yaylaqlarında isə 5 minə yaxın arı ailəsi saxlanılıb.

Təcrübəli arıçı fermer, Ağcabədi şəhərində yaşayan Laçın rayonunun Mişni kəndindən məcburi köçkün Nicad Abbasov 2 ildir ki, yay mövsümündə pilot layihə çərçivəsində doğma kəndində arı saxlayır. Təsərrüfatında 68 arı ailəsi var. Məhsul keyfiyyətli olduğu üçün əldə qalmır, daimi müştəriləri olur. Təəssüf ki, bu il davamlı yağışlar səbəbindən məhsul keçən ilə nisbətən az olub.

Müsahibimiz arı ailələrinin sayını artırmaq istəyir:

– Daha məhsuldar arı ailələri almaq, genefondu dəyişmək istəyirəm. Bir arı ailəsi yeşiyi pətəyi ilə birlikdə 300 manata başa gəlir. Odur ki, arıçılığa kredit ayrılmasına böyük ehtiyac var. Bu işlə məşğul olan məcburi köçkünlərə dəstək verilməsi vacibdir.

Hazırda qışa hazırlıq gövrürəm. Arıların yuvasının təmizlənməsi, yeşiklərin çıxarılması, onların mumlarını əritmək və s. hamısı əziyyətdir. Amma bu peşəni çox sevdiyim üçün həm zövq alıram, həm də qazancımı artırıram.

Yeni arıçıların isə təcrübəsi azdır. Onlar üçün təlimlər keçirilsə, lazımi dərmanları rahat tapsalar arıçılığın inkişafı sürətlənər.

Mişni kəndindən olan daha bir arıçı Bəxtiyar Abbaslı isə dedi:

– Bizim regionun bitki örtüyü çox zəngindir. İnanıram ki, bu imkan arıçılığın inkişafına təsir edəcək, yarmarkalara daha çox bal çıxarılacaq. Mən əldə etdiyim balın keyfiyyətinə cavabdehəm. Alıcı istədiyi laboratoriyada onun keyfiyyətini yoxlada bilər. Digər tərəfdən, arıçılıq məhsullarının keyfiyyətinə nəzarət sisteminin təkmilləşdirilməsi saxta məhsulun satışının qarşısını alır.

Qeyd edək ki, builki yarmarkada Qarabağ və Şərqi Zəngəzur geniş təmsil olunub. Bu barədə məlumat verən Azərbaycan Arıçılar Assosiasiyasının sədri Bədrəddin Həsrətov dedi:

– Builki yarmarkada işğaldan azad edilmiş rayonlardan gətirilən ballar digər illərə nisbətən artıb. Bunu uğur və yenilik hesab edirik. Həmin torpaqlardan gətirilən bal, əsasən, Kəlbəcər, Laçın, Hadrut, Xocavənd, Qubadlı və Zəngilandakı arıçılıq təsərrüfatlarının məhsullarıdır. 2020-ci ildən etibarən arıçılar təsərrüfatlarını işğaldan azad olunan ərazilərə köçürməyə başlayıblar. Qarabağ bölgəsinə köçən ilk təsərrüfatçılar da arıçılar idi.



Bədrəddin Həsrətov daha sonra bildirir ki, balın qiymətlərində nəzərəçarpacaq dərəcədə olmasa da, artım müşahidə olunur. Əvvəllər, təxminən, balın bir kiloqramının orta qiyməti 20–25 manat idisə, hazırda alıcılara 30–35 manata təklif olunur. Bu da balın məhsuldarlığının aşağı olması ilə əlaqədardır. Eyni zamanda, son illərdə baş verən qiymət artımı da buna təsir göstərir.

Beləliklə, damazlıq arıçılıq təcrübəsinin genişləndirilməsi, genofond arıxanaların yaradılması, arıçılıq məhsullarının keyfiyyətinə nəzarət sisteminin təkmilləşdirilməsi, sərgi-satış yarmarkalarının təşkili və s. istiqamətlərdə məqsədyönlü tədbirlər əhalinin sağlamlığına xidmət edir. Bu tədbirlərin nəticəsi olaraq, arı ailələrinin sayında, bal və digər arıçılıq məhsullarının istehsalında, həmçinin bal ixracında əhəmiyyətli artım müşahidə ediləcək. Məhsul istehsalı artdıqca qiymətlər də aşağı düşəcək.

***P.ƏFƏNDİYEV***
***XQ***

# Dünya Bankı Azərbaycanın inkişafını yüksək qiymətləndirir

**Azərbaycanın uğurla əməkdaşlıq etdiyi beynəlxalq maliyyə qurumları sırasında Dünya Bankı (DB) xüsusi yer tutur. Respublikamızda bankın göstərdiyi texniki yardım və maliyyə dəstəyi layihələri daim yüksək qiymətləndirilir. Bu gün ölkəmizin DB ilə əlaqələrində özəl sektorun diaqnostikası, innovasiyalar, idarəetmə texnologiyalarının inkişafı, bərpaolunan enerji və digər sahələrdə əlaqələrin getdikcə möhkəmlənməsi, qabaqcıl beynəlxalq təcrübənin tətbiqinə xüsusi önəm verilməsi daha qabarıq nəzərə çarpır.**




Prezident İlham Əliyevin rəhbərliyi ilə son 20 ildə həyata keçirilən iqtisadi strategiyanın, eləcə də DB ilə əməkdaşlıqda xüsusi önəm verilən layihələrin uğurlu nəticələri qurumun proqnozlarında, hesabatlarında daim yer alıb. Xüsusilə bankın hesabatlarında respublikamızın vergi və gömrük strukturlarında mühüm yeniliklərə imza atılması, reallaşdırılan islahatlarda əsas məqsədin sahibkarların vergi yükünün optimallaşması, vergi bazasının genişləndirilməsi, leqallaşma, rəqəmsallaşma və vergi-gömrük administrasiyası ilə sahibkarların münasibətlərinin daha da sivil səviyyəyə qaldırılması kimi məsələlər yüksək qiymətləndirilib.

Fikrimizin təsdiqi kimi, əvvəlcə DB-nin ölkəmizin iqtisadi vəziyyəti ilə bağlı proqnozlarına diqqət yetirək: Bank tərəfindən bu ilin sonunda respublikamızda real ÜDM artımının 1,5 faiz olacağı, bu göstəricinin 2024 və 2025-ci illərdə isə müvafiq olaraq 2,4 və 2,5 faiz artacağı proqnozlaşdırılıb. Xatırladaq ki, 2023-cü ilin yanvar–avqust aylarında Azərbaycanda ÜDM 2022-ci ilin analoji dövrü ilə müqayisədə 0,8 faiz (80 milyard manatadək) yüksəlib.

Yeri gəlmişkən, Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi tərəfindən hazırlanan 2024-cü il və sonrakı üç il üzrə baza ssenaridə (neftin bir barelinin orta illik ixrac qiyməti 2024–2027-ci illər üçün 60 ABŞ dolları fərz edilməklə) makroiqtisadi proqnoz göstəricilərinə əsasən, 2023-cü ildə ölkədə ÜDM real ifadədə 1,9 faiz artaraq 119,6 milyard manat təşkil edəcək.

Qeyd edək ki, ÜDM istehsalında əvvəllər olduğu kimi, bu ilin ötən aylarında da yüksək dinamika müşahidə edilib. Dövlət Statistika Komitəsindən aldığımız məlumata görə, cari ilin 8 ayında ölkədə 70 milyard 372 milyon manatlıq və ya əvvəlki ilin eyni dövrü ilə müqayisədə 0,7 faiz çox ÜDM istehsal edilib. Əhalinin hər nəfərinə düşən ÜDM isə 6 milyon 938 manata bərabər olub.

ÜDM istehsalında yüksək göstəricilərin əldə edilməsini şərtləndirən mühüm amillər sırasında iqtisadiyyatın şaxələndirilməsi mühüm rol oynayıb. Bu istiqamətdə həyata keçirilən tədbirlərin məntiqi nəticəsi olaraq, 2010-cu ildə respublikamızın qeyri-neft sektorunda 18,4 milyon manatlıq məhsul istehsal edildiyi halda, çoxsaylı mənfi şokların təsiri ilə mübarizə aparan qlobal iqtisadiyyatın indiki həssas dövründə qeyri-neft-qaz sənayesində artım neft-qaz sənayesindəki artımı üstələyib. Mövcud sahədə əlavə dəyər 2023-cü ilin ilk yarısında 6,5 faiz artıb. Ümumi olaraq isə qeyri-neft sektorunda 3 faizdən çox artım müşahidə olunub.

Ardıcıl və sistemli surətdə gerçəkləşdirilən sənayenin inkişafına dair Dövlət Proqramının uğurlu icrası da qeyri-neft sektorunun şaxələndirməsini sürətləndirib. Adıçəkilən önəmli sənəd ənənəvi sənaye sahələri ilə yanaşı, ölkə iqtisadiyyatı üçün yeni olan kosmik, müdafiə, gəmiqayırma, alternativ enerji və digər sahələrin, həmçinin müasir istehsal infrastrukturuna malik sənaye zonalarının inkişafına müsbət təsir göstərib. Bunun nəticəsində Azərbaycanın ixrac qabiliyyəti davamlı şəkildə güclənib, idxalı əvəz edən məhsulların istehsalının artırılması reallaşıb. Bunun nəticəsində cari ilin birinci yarısında 1,4 milyard manatlıq məhsul satılıb ki, bunun da 33,6 faizi ixracın payına düşüb.

İnfrastrukturun və sosial əhəmiyyətli obyektlərin modernləşdirilməsi ilə yanaşı, qeyri-neft-qaz məhsullarının istehsalına, habelə ixracına yönələn yeni sənaye və iqtisadi zonaların yaradılması istiqamətində həyata keçirilən uğurlu layihələr də ÜDM istehsalının artmasında önəmli rol oynayır.

Şübhəsiz ki, bu məsələdə qabaqcıl texnologiyalardan və idarəetmə təcrübəsindən səmərəli yararlanmaq da böyük əhəmiyyətə malikdir. Bundan başqa, ölkədə hökm sürən siyasi və makroiqtisadi sabitlik, investorların hüquqlarının etibarlı qorunması, əlverişli coğrafi mövqe, zəngin təbii ehtiyatlar, yüksək ixtisaslı işçi qüvvəsi Azərbaycanı xarici sərmayələr üçün ən cəlbedici dövlətlərdən biri kimi tanıdır.

DB ÜDM ilə yanaşı, 2026-cı ilə kimi ölkəmizin dövlət büdcəsinin gəlirləri ilə bağlı proqnozunu da yaxşılaşdırıb. Qurumun hesabatında cari ilin aprel proqnozuna nisbətən 2023-cü ildə büdcə gəlirlərinin ÜDM-in 33,1 faizindən 34,6 faizə qədər artacağını açıqlayıb. Bank 2024-cü il üzrə bu rəqəmi 33,1 faizdən 34,1 faizə kimi, 2025-ci il üzrə isə 31,6 faizdən 32,7 faizədək artırıb. DB, həmçinin dövlət büdcəsinin ÜDM-də payının 2023-cü ildə 3,4 faiz, 2024-cü ildə 3,3 faiz, 2025-ci ildə isə 3,2 faiz təşkil edəcəyini proqnozlaşdırıb.

Bank Azərbaycanda inflyasiya göstəricisinin bu il 9 faiz, 2024-cü ildə isə 5,8 faiz səviyyəsində olacağını da proqnozlaşdırır. Bankın yaz proqnozlarına nisbətən bu gözləntilərin 2023-cü ildə 0,5 faiz artdığı, 2024-cü ildə isə 0,4 faiz azalacağı bildirilir. Sənədə əsasən, 2025-ci ildə Azərbaycanda inflyasiyanın 5,2 faiz səviyyəsində olacağı proqnozlaşdırılır.

Azərbaycanın sözügedən beynəlxalq maliyyə qurumu ilə əməkdaşlığında xüsusi önəm verildiyi məsələlərdən biri yuxarıda vurğuladığımız məsələlərdən biri–iqtisadiyyatın rəqəmsallaşması ilə bağlı layihələrin uğurla reallaşdırılmasıdır. Rəqəmsallaşma respublikamızın investisiya cəlbediciliyinə mühüm təsir göstərən amillərdən biri olduğu üçün investorlar tərəfindən bu sahəyə aid infrastrukturun qurulması, eləcə də elektron ticarətin inkişaf etdirilməsi daim diqqət mərkəzində saxlanılır. Məhz bunun nəticəsidir ki, Azərbaycanda təhlükəsiz rəqəmsal ödəniş həllərinin genişləndirilməsi, etibarlı logistik şəbəkələrin təkmilləşdirilməsi kimi güclü rəqəmsal infrastruktur yaradılmasına böyük maraq göstərilir və bu sahədə müsbət göstəricilər əldə olunur.

***Vaqif BAYRAMOV***
***XQ***

## EKSPERT RƏYİ



**Hüseynqulu QULİYEV, iqtisadçı-ekspert**

Azərbaycan Dünya Bankının hazırladığı "GovTech Yetkinliyi İndeksi"nin (GovTech Maturity İndex - GTMI) 2022-ci il üzrə hesabatında yüksək rəqəmsallaşma səviyyəsinə görə, ölkələrin daxil ola bildiyi birinci qrupda yer alıb.

Bankın Azərbaycandakı əməliyyatlarının yeni mərhələsi 2015-ci ildə təsdiqlənən və 2016–2020-ci illəri əhatə edən Tərəfdaşlıq Çərçivəsi Proqramı (CPF) ilə tənzimlənib. Lakin bu proqramın 2020-ci ildə səmərəliliyi nəzərə alınaraq onun uzadılması qərara alınıb. Bu zaman iki prioritet istiqamət də təsdiq edilib. Belə ki, adıçəkilən proqramda dövlət sektorunda idarəetmə və xidmətlərin göstərilməsi, ölkənin neft-qaz asılılığının azaldılması və insan kapitalına, fiziki infrastruktura, həmçinin daha güclü institutlara investisiyalar yatırmaq yolu ilə iqtisadiyyatın xarici şoklara davamlılığının artırılması kimi strateji hədəflərə cavab verən iqtisadi rəqabətqabiliyyətliliyin böyük əhəmiyyəti önə çəkilib.

"Azərbaycanda məşğulluğa dəstək" layihəsi üzrə bu beynəlxalq maliyyə qurumu tərəfindən respublikamızda özünüməşğulluq proqramının icrası ilə bağlı da mühüm göstəricilər əldə edilib. Belə ki, 2020–2025-ci illəri əhatə edən həmin layihənin icrası nəticəsində 22 min işsiz şəxsin özünüməşğulluq proqramı çərçivəsində kiçik ailə təsərrüfatının yaradılması, eləcə də məşğulluq xidmətləri və proqramlarının təkmilləşdirilməsinə dəstək verilməsi qarşıya mühüm vəzifə kimi qoyulub.

Bank son hesabatlarında Azərbaycanda investisiya mühitinin yaxşılaşdırılmasını da yüksək dəyərləndirib. Qurumun yaydığı məlumatlarda ölkəmizdə investisiya mühitinin yaxşılaşdırılmasında nəzərəçarpacaq irəliləyiş əldə edildiyi vurğulanıb. Qeyd edilib ki, son illərdə hökumət tərəfindən qanunvericilik və dövlət idarəçiliyinin restrukturizasiyası və müasirləşdirilməsi, vergi və gömrük praktikasında islahatların aparılması, əmək və sosial müdafiənin təşviqi üzrə institusional tədbirlər reallaşdırılmaqla investisiya mühitinin səmərəliliyi artırılıb. Xüsusilə, vergi prosedurlarının sadələşdirilməsi, vergi yükünün azaldılması, kiçik və orta sahibkarlıq üzrə vergi dərəcələrinin aşağı salınması (4 faizdən 2 faizə), qeyri-neft özəl sektoru üçün vergi güzəştlərinin tətbiqi ilə xarici investisiya mühiti yaxşılaşdırılıb.




## Qazaxıstan Orta Dəhlizə əlavə nəfəs verir

***Xarici mediada yayılan məlumata görə, Qazaxıstanın Astana şəhərində keçirilən Beynəlxalq Nəqliyyat və Logistika Forumunda Orta Dəhlizin (Transxəzər Beynəlxalq Nəqliyyat Marşrutu) inkişaf etdirilməsi müzakirə olunub. Tədbirdə nəqliyyat sistemlərinin inteqrasiyası, multimodal daşımalar sahəsində yeni texnologiyaların və innovasiyaların tətbiqi, yükdaşımaların səmərəliliyinin artırılması və təchizat şəraitinin yaxşılaşdırılması məsələləri nəzərdən keçirilib.***

Forum çərçivəsində Mərkəzi Asiyanın ən böyük nəqliyyat, logistika xidmətləri və texnologiyaları sərgisi də reallaşıb. Sərgidə Qazaxıstanla yanaşı, Azərbaycan, Türkiyə, Türkmənistan, Özbəkistan, Qırğızıstan, Tacikistan, Gürcüstan, Rusiya, Belarus, Monteneqro, Latviya, Çin və Cənubi Koreyadan 90-dan çox şirkətin xidmət, avadanlıq və texnologiyaları nümayiş etdirilib.

Xatırladaq ki, Orta Dəhliz 2014-cü ilin fevral ayında Azərbaycan, Qazaxıstan və Gürcüstanın müvafiq strukturlarının iştirakı ilə yaradılıb. Sonradan layihəyə Ukrayna, Rumıniya və Polşa qoşulub. Hazırda marşrut Çin–Qazaxıstan sərhədindən başlayır və Qazaxıstan, Xəzər dənizi, Azərbaycan və Gürcüstan ərazisindən keçərək Avropaya qədər uzanır. Bütün marşrut boyunca vahid tarif yaradılıb, "vahid pəncərə" prinsipi tətbiq olunur.

## 9 ayda qeyri-neft ixracı 2,4 milyard dollar olub

***İxracın və İnvestisiyaların Təşviqi Agentliyinin (AZPROMO) məlumatına görə, cari ilin 9 ayında Azərbaycandan ixrac olunan qeyri-neft məhsullarının dəyəri 2,4 milyard dollar təşkil edib. Bu, ötən ilin analoji dövrü ilə müqayisədə 10,6 faiz çoxdur.***

Xatırladaq ki, 2022-ci ildə ölkəmizin qeyri-neft ixracı illik müqayisədə 12,3 faiz artaraq 3,49 milyard dollara çatıb.

***XQ***



# Köhnə müttəfiqlər, yeni tərəfdaşlar

## *Türkmənistanla əlaqələr yeni mərhələdə*

**Son illər Azərbaycanın keçmiş sovet müttəfiqi, indiki strateji tərəfdaşı olan Türkmənistanla iqtisadi sahədə əməkdaşlığı regionun inkişafına mühüm töhfələr verir. Hazırda oxşar iqtisadi potensiala malik olan bu iki ölkə arasında əlaqələr yüksələn xətlə inkişaf edir.**



Azərbaycanın iqtisadiyyat naziri Mikayılov Cabbarovun dəniz qonşumuz olan Türkmənistana səfəri bu baxımdan xüsusi əhəmiyyət daşıyır. Səfər çərçivəsində iki ölkə arasında iqtisadi əməkdaşlığın perspektivləri və birgə layihələr üzrə tərəfdaşlığın səmərəli nəticələri müzakirə edilib.

Oktyabrın 4-də Türkmənistan Prezidenti Sərdar Berdiməhəmmədov Azərbaycanın iqtisadiyyat naziri Mikayıl Cabbarovu qəbul edib. Qəbulda dövlət başçılarının dostluğa və həmrəyliyə əsaslanan Azərbaycan–Türkmənistan münasibətlərinə verdiyi önəm sayəsində çoxtərəfli əlaqələrin inkişaf etdiyi vurğulanıb.

Nazir Mikayıl Cabbarov Türkmənistana səfəri çərçivəsində bu ölkənin Nazirlər Kabineti sədrinin müavini, xarici işlər naziri Rəşid Meredovla görüşüb, iqtisadi əməkdaşlığın genişləndirilməsi perspektivləri müzakirə edilib. Görüşdə vurğulanıb ki, Türkmənistanla qarşılıqlı münasibətlərin inkişaf etdirilməsində hər iki ölkənin rəhbərlərinin siyasi iradəsinin, yüksək səviyyəli səfərlərin, keçirilən görüş və tədbirlərin önəmli rolu var. Diqqətə çatdırılıb ki, ölkələrimiz arasında əməkdaşlığın güclənməsi fonunda iqtisadi-ticarət əlaqələri də genişlənir. Bildirilib ki, ölkələrimizin ortaq fəaliyyəti və iqtisadi sahədə tərəfdaşlığı regionun inkişafına töhfə verir.

Görüşdə iki ölkə arasında energetika, nəqliyyat, investisiya, ticarət, kənd təsərrüfatı, mədəni, humanitar və digər sahələrdə əlaqələrin inkişafı imkanları diqqətə çatdırılıb.

Türkmənistana səfər çərçivəsində Azərbaycanın iqtisadiyyat naziri "Türkmənqaz" Dövlət Konserninin rəhbəri Maksat Babayevlə görüşüb. SOCAR-ın nümayəndələrinin də iştirak etdiyi görüşdə energetika sahəsində əməkdaşlığın genişləndirilməsi, karbohidrogen resurslarının birgə kəşfiyyatı və işlənməsi, potensial layihələrin reallaşdırılması barədə fikir mübadiləsi aparılıb.

Mikayıl Cabbarov və Türkmənistanın Nazirlər Kabineti sədrinin müavini, Birgə Hökumətlərarası Komissiyanın həmsədri Batır Atdayev arasında keçirilən görüşdə ikitərəfli ticarət dövriyyəsinin artırılması, komissiyanın növbəti iclasının keçirilməsi, işgüzar dairələr arasında əlaqələrin genişləndirilməsi sahəsində əməkdaşlığın inkişafı imkanları müzakirə olunub.

Türkmənistanın hökumət başçısının müavini Batır Amanovla görüş zamanı isə iki ölkə arasında enerji sahəsində əlaqələrin inkişaf perspektivləri, birgə layihələrin reallaşdırılması potensialı nəzərdən keçirilib. SOCAR-ın nümayəndələrinin iştirak etdiyi görüşdə Azərbaycan və Türkmənistan arasında energetika sahəsində imzalanan sənədlərin əməkdaşlığın genişləndirilməsinə mühüm töhfə olduğu vurğulanıb.

Yeri gəlmişkən, Azərbaycan və Türkmənistan keçmiş SSRİ-nin tərkibində müttəfiq respublikalar kimi uzun illər iqtisadi sahədə uğurla əməkdaşlıq ediblər. Lakin müstəqilliyin ilk illərində iki ölkə arasında iqtisadi münasibətlər xeyli zəifləyib. Yalnız 2007-ci ildə Azərbaycanla Türkmənistan arasında iqtisadi və humanitar sahələrdə əməkdaşlıq üzrə birgə hökumətlərarası komissiya yaradıldıqdan sonra bir çox sahələrdə münasibətlər tədricən bərpa olunmağa başlayıb. Ötən müddətdə birgə hökumətlərarası komissiyanın 6 iclası keçirilib. 2022-ci il noyabrın 29-da Bakıda keçirilmiş sonuncu iclasda hökumətlərarası komissiyanın həmsədrləri tərəfindən 6-cı iclasın yekunlarına dair Protokol imzalanıb. Sənəddə iqtisadi-ticari, energetika, nəqliyyat, kənd təsərrüfatı və ərzaq təhlükəsizliyi, şəhərsalma və arxitektura, eləcə də digər sahələrdə əməkdaşlığın gücləndirilməsi məsələləri nəzərdə tutulur.

İki ölkə arasında mehriban qonşuluq və tarixi dostluq əlaqələrinə əsaslanan münasibətlər artıq strateji tərəfdaşlıq səviyyəsinə yüksəlib. Bu baxımdan 2017-ci il avqustun 8-də Bakıda imzalanmış "Azərbaycan Respublikası ilə Türkmənistan arasında strateji tərəfdaşlıq haqqında Bəyannamə" xüsusi önəm daşıyır. Bununla yanaşı, hər iki ölkə beynəlxalq və regional təşkilatlar, xüsusilə ortaq irsə əsaslanan Türk Dövlətləri Təşkilatı çərçivəsində sıx əməkdaşlıq edirlər.

Bütövlükdə isə, son illər dövlət başçılarının qarşılıqlı səfərləri, iki ölkə arasında əməkdaşlığa dair imzalanmış sənədlər bir çox sahələrdə olduğu kimi, iqtisadi münasibətlərin də genişləndirilməsinə imkan yaradıb. Bu, özünü iki ölkə arasında getdikcə artmaqda olan ticarət dövriyyəsində də aydın göstərir. Dövlət Statistika Komitəsinin məlumatına görə, 2023-cü ilin yanvar–iyul aylarında Azərbaycanla Türkmənistan arasında ticarət dövriyyəsi 568 milyon 54,4 min dollar təşkil edib ki, bu da ötən ilin müvafiq dövrünə nisbətən, təqribən, 4 dəfə çoxdur. Ümumi ticarət dövriyyəsinin 515 milyon 267,1 min dolları idxalın, 52 milyon 787,3 dolları isə ixracın payına düşüb. Əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə idxal 354,1 faiz, ixrac isə 462,2 faiz artıb. Bir məqamı da qeyd edək ki, hesabat dövründə Türkmənistan Azərbaycanla ticarət dövriyyəsinə görə ilk 15 ölkədən biri olub.

Azərbaycanla Türkmənistan arasında neft-qaz sahəsində əməkdaşlıq üçün potensial imkanlar mövcuddur. Artıq bu istiqamətdə də ilkin addımlar atılıb. Bu baxımdan 2021-ci ilin yanvarında Aşqabadda imzalanmış "Azərbaycan Respublikası Hökuməti ilə Türkmənistan Hökuməti arasında Xəzər dənizində "Dostluq" yatağının karbohidrogen resurslarının birgə kəşfiyyatı, işlənməsi və mənimsənilməsi haqqında Anlaşma Memorandumu" xüsusi önəm daşıyır.

Göründüyü kimi, iki ölkə arasında əməkdaşlığın genişləndirilməsi üçün yaxşı imkanlar mövcuddur. Bu istiqamətdə həyata keçirilən tədbirlər isə onu deməyə əsas verir ki, dost və qardaş ölkələr olan Azərbaycanla Türkmənistan arasında iqtisadi münasibətlər yaxın illərdə daha da inkişaf edərək bu potensialı tam əhatə edəcək.

***Mirbağır YAQUBZADƏ***
***XQ***

# Putin–Mişel "atışması" – Qarabağla bağlı "günah keçisi" axtarışı

## Rusiya lideri Aİ Şurasının prezidentinə nələri dedi, nələri dilə gətirmədi?

**Fransa prezidenti Emmanuel Makron 2022-ci ilin oktyabrında yerli mediaya müsahibəsində bildirmişdi ki, Rusiya öz müttəfiqi olan Ermənistana xəyanət edib. Bu, həmin ilin sentyabrında Azərbaycan – Ermənistan sərhədində yaşanmış hərbi eskalasiyanın təsirini özündə ehtiva edən bəyanat idi.**

O eskalasiyanın ki, Ermənistan onun nəticəsində özünün suveren ərazilərinin Azərbaycan tərəfindən işğala məruz qaldığını iddia etmişdi. İndi isə Avropa İttifaqı Şurasının prezidenti Şarl Mişel deyib ki, Rusiya erməni xalqını satdı. Əlbəttə, biz Rusiya Prezidenti Vladimir Putinin Şarl Mişelə cavabındakı saymazyana məntiqin üzərində dayanmaq niyyətindən uzağıq. Hərçənd, Kreml rəhbərinin işlətdiyi atalar məsələnin Azərbaycan dilindəki qarşılığı maraqlıdır – "Oğru elə bağırdı ki, doğrunun bağrı yarıldı". Hər halda, cənab Putinin "kimin inəyi böyürsə də, mənim inəyim sakit qaldı" məntiqindən gəlinən başqa nəticə yoxdur.

Əlbəttə, obrazlı desək, Aİ Şurasının prezidentinə "böyürməyi" yaraşdırmaq mümkün deyil. Bir qayda olaraq, Ş.Mişel birləşdirici, konfrantasiyalardan uzaq adam təsiri bağışlamaqdadır. Əslində, onun indiki məqamda erməni xalqının maraqları müstəvisində nəyəsə münasibət bildirməsi də anlaşılan deyil. Görəsən, cənab Mişel "erməni xalqı" dedikdə kimi nəzərdə tutur? Hazırda bu deyimin beynəlxalq ictimaiyyətə Qarabağ erməniləri formasında sırındığı reallığına diqqət yetirsək, Aİ Şurası prezidentinin ehtiyatı əldən verdiyini söyləmək mümkündür. Görünür, Rusiyaya qarşı hiddət Avropada hər kəsi əndazədən çıxardığı kimi, Mişeli də yerindən oynatmaqdadır.

Ancaq bir məsələ var. Mişel çox nahaq yerə Rusiyaya hiddəti Azərbaycan – Ermənistan münasibətlərinə gətirir. Axı, o nəzərə almalıdır ki, bu, obyektiv həqiqətlərin dərkini çətinləşdirir. Ən pisi isə odur ki, Aİ-nin ali rəsmisinin hazırda baş vurduğu ritorika onun özünə deyil, E.Makrona məxsusdur. Makronun isə aşkar ermənipərəst mövqe tutduğu danılmazdır. Yəni, Aİ Şurasının prezidenti öz vasitəçiliyinin oktyabrın 5-nə təyin olunmuş növbəti raundunun nə üçün baş tutmadığını nəzərə almağa, sadəcə, borclu idi. Onu da nəzərə almalı idi ki, emosiyalara qapılması Rusiyanın xeyrinədir. Çünki Ermənistanla aşkar konfrantasiyada olan Rusiya hazırkı dövrdə, necə deyərlər, sandığı açıb, pambığı tökməklə məşğuldur. Putin Mişelə cavab verdiyi "Valday" Diskussiya Klubundakı çıxışında da bunu etdi.

Bəli, Rusiya hazırda Prezident Putinin şəxsində müəyyən reallıqları dilə gətirməkdədir. Çünki bunu bildirmək ona sərfəlidir. Moskva onsuz da beynəlxalq ictimaiyyətlə ziddiyyətlər içərisindədir. Yəni, ziddiyyətlərin az və ya çox olması əhəmiyyətli deyil. Necə deyərlər, islanmışın yağışdan nə qorxusu. Yəni, Kremlin Qarabağ, Azərbaycan – Ermənistan münasibətləri ilə bağlı da dünya ilə konfliktə getməsi anlaşılandır və bu baxımdan Putinin dediklərini, irəli sürdüklərini heç də tam anlamda ədalətli mövqe kimi qiymətləndirməmək lazımdır. Həm də o səbəbdən ki, Rusiyadan üz döndərmiş və tam şəkildə üz döndərmək əzmində olan Ermənistan var.

Buna görə də Putin "Valday"dakı çıxışında sabiq SSRİ-nin dağılmasından sonrakı ilk dövrə diqqət yetirir. Bildirir ki, həmin vaxt Ermənistanla Azərbaycan arasında etnik münaqişə baş qaldırdı. Nəyə görəsə, Rusiya lideri bu konfliktin başlanğıcını Sumqayıtdan götürür. Birincisi, Sumqayıt hadisələri baş verəndə SSRİ hələ dağılmamışdı. İkincisi, Sumqayıt hadisələri ermənilərin Qarabağdakı aktivliyinin təsiri olaraq yaşanmışdı və onu edənlərlə Qarabağı Azərbaycandan ayırmaq istəyənlər eyni adamlar idilər. Onlar çalışmışdılar



ki, Sumqayıtda yaşayan sadə erməniləri məhv etməklə, Qarabağ avantürası üçün ideoloji motiv qazandırsınlar və sair.

Sözümüz ondadır ki, Putin xronoloji ardıcıllığı düz vermir. Onun məntiqini əsas tutsaq, belə düşünmək mümkündür ki, Qarabağ münaqişəsi Sumqayıta cavab kimi meydana çıxıb. Halbuki, tarixi reallığı vurğuladıq. Lazım olsa, SSRİ-nin birinci və sonuncu prezidenti Mixail Qorbaçovun müşaviri Abel Aqanbekyanın Qarabağ avantürizmini qızışdıran və zaman etibarilə Sumqayıt hadisələrindən əvvəlki fikirlərini də diqqətə çatdıra bilərik. Nəzərə alaq ki, Aqanbekyan Qarabağ avantürasının ideoloqlarından sayılır. Çox güman ki, Rusiya lideri onu tanımamış deyil. Digər yandan, cənab Putin Sumqayıt hadisələrindən sonra Ermənistanın Qarabağı və ətraf əraziləri öz nəzarəti altına aldığını vurğulayarkən, nədənsə İrəvanın ərazi iddiası məsələsini qabartmır. Onun məntiqinə köklənən adamda belə təəssürat formalaşa bilər ki, Sumqayıtda baş verənlər Ermənistanın Qarabağı nəzarət altına almasına səbəb olub.

*

Əlbəttə, Putin işğal edilmiş torpaqların Azərbaycan ərazisinin 20 faizini təşkil etdiyini də vurğulayır. O bildirir ki, təxminən, 15 il müddətində Rusiya Ermənistana beş rayonun qaytarılmasını, Kəlbəcər və Laçının saxlanılması ilə Qarabağla Ermənistan arasında əlaqənin qorunmasını təklif edib. "Ancaq bizim qarabağlı dostlarımız mütəmadi olaraq bildiriblər ki, yox, bu, bizim üçün müəyən təhlükələr yaradacaq. Biz isə öz növbəmizdə demişik: Qulaq asın, Azərbaycan güclənir, iqtisadiyyatı inkişaf edir, bu, neft və qaz ölkəsidir. Bundan başqa (Azərbaycanın – red.), 10 milyondan çox əhalisi var. Gəlin, potensialı müqayisə edək. Hələ ki, imkan var, kompromis tapmaq lazımdır. Biz öz tərəfimizdən əminik ki, BMT-nin Təhlükəsizlik Şurası çərçivəsində müvafiq qərarlar qəbul edəcəyik. Təminat verəcəyik ki, Qarabağla Ermənistan arasındakı Laçın dəhlizinin təhlükəsizliyi olsun. Ərazidə yaşayan ermənilərin təhlükəziliyinə təminat yaransın. Ancaq bizə dedilər ki, yox, biz buna gedə bilmərik. Bəs, nə edəcəksiniz? Döyüşəcəyik! Yaxşı..."

Göründüyü kimi, V.Putin Ş.Mişelə cavab ruhlu əsaslandırmasına, belə demək mümkünsə, çox uzaqdan başlayır. Nəhayət, 2020-ci ilə gəlib çıxır və bildirir: "İş yekunda silahlı toqquşmalara gətirib çıxardı. 2020-ci ildə mən o zaman da bizim dostlarımız və həmkarlarımıza təklif etdim... Yeri gəlmişkən, Prezident Əliyev, yəqin, məndən inciməz. Hansısa an razılıq əldə olundu ki, Azərbaycan silahlı birləşmələri dayansın. Mən, düzünü desəm, düşündüm ki, məsələ həllini tapıb. İrəvana zəng etdim və birdən eşitdim – dedilər, yox, qoy, onlar (Azərbaycan Ordusu – red.) tutduqları yerlərdən geri çəkilsinlər... Dedim, bəs, nə edəcəksiniz? Yenə həmin fikir – Döyüşəcəyik! Dedim, baxın, onlar bir neçə gündən sonra Ağdam rayonunda sizin qüvvələrin arxasına keçəcəklər və hər şey bitəcək. Siz başa düşürsünüz? Bəli. Bəs nə edəcəksiniz? Döyüşəcəyik! Yaxşı..."

Əlbəttə, 2020-ci ilin Vətən müharibəsində bəzi çox qısa müddətli atəşkəslər oldu. Azərbaycan onlarla razılaşdığını bəyan edirdi. Amma, bu, heç də o demək deyildi ki, ölkəmiz özünün mövqeyindən geri çəkiləcək. Ox yaydan çıxmışdı və bunu cənab Putin də gözəl bilirdi və bilir də. Yəni, hər bir halda indi Qarabağ müstəvisində baş verənlər yaşanacaqdı. Necə ki, 2020-ci ilin üçtərəfli Bəyanatından sonra yaşandı. Elə həmin sənədə əsasən, Ağdam, Kəlbəcər və Laçın Azərbaycanın nəzarətinə keçdi. Məgər Rusiya zamanında atəşi dayandırmaqla, bunun qarşısını alacaqdı ki, indi vaxtilə etdiklərini Ermənistana minnət kimi sırıyır? Əlbəttə, Moskva İrəvana minnət qoymalıdır. O anlamda ki, əgər Ermənistan Putinin indi haqqında söz açdığı təklifi qəbul etsəydi, itkiləri az olardı. Amma qəbul etmədi və görək V.Putin başqa nə deyir: "Hər şey gözlənildiyi kimi də alındı. Yekunda (Azərbaycan Ordusu - red) Şuşaya çıxdıqdan sonra biz danışdıq ki, hərbi əməliyyatlara son qoyulacaq. 2020-ci ilin noyabrında onların dayandırılması və bizim sülhməramlıların (Qarabağa-red.) yeridilməsi barədə müvafiq razılaşma da imzalandı (10 noyabr 2020-ci il tarixli üçtərəfli Bəyanat – red.). Və növbəti çox vacib məsələ – bizim sülhməramlıların statusu məhz həmin bəyanatla təsdiqləndi. Sülhməramlıların yalnız bir hüququ var idi – atəşkəs rejiminə nəzarət etmək. Vəssalam! Sülhməramlıların orada başqa heç bir hüququ yox idi. Ancaq atəşkəsi müşahidə etmək. Belə bir vəziyyət davam etdi".

*

Bəli, Azərbaycan, Rusiya və Ermənistan liderlərinin 10 noyabr 2020-ci il tarixli üçtərəfli Bəyanatından sonra Moskva hər vəchlə İrəvana göstərməyə çalışdı ki, onun nicat yolu Kremlə bağlılıqdır. Lakin ötən müddətdə baş nazir Nikol Paşinyan administrasiyası bunu anlamaq istəmədi. Nikol üçtərəfli əsasda Putinin iştirakı ilə görüşlərə qatılsa da, müharibə xofu aradan qalxdıqca, üzünü Qərbə tərəf çevirməyə başladı və bu proses, paralel şəkildə, Rusiyaya hörmətsizlik motivləri ilə müşayiət olundu. Eyni zamanda, Ermənistan özünün də üzv olduğu və Moskvanın hakim rol oynadığı Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatı müstəvisində Kremlin rolunu kiçiltməyə girişdi. Bəs, Azərbaycan nə etdi? Səbr və təmkinlə qarşısına qoyduğu məqsədlərə doğru irəlilədi və bu məqsədlərin leqallığını elə Putinin özü də dərk etdi. Əlbəttə, Avropa və dünya da məsələnin mahiyyətindən xəbərdar idi. Yəni, Rusiya liderinin istinad etdiyi 2022-ci ilin Praqa və 2023-cü ilin Brüssel görüşlərinin nəticələri labüd idi.

Kreml rəhbərinin sözlərindən isə belə çıxır ki, vəziyyət Ermənistan üçün belə olmaya bilərdi. Cənab Putinin "Valday"da söylədiklərinin davamına diqqət yetirək: "İndi siz, mənim də hörmət etdiyim, cənab Mişelin fikrini diqqətə çatdırdınız. 2022-ci ilin payızında Praqada cənab Mişelin vasitəçiliyi ilə, sonra Fransa prezidenti Makronun, Almaniya Kansleri cənab Şoltsun iştirakı ilə Ermənistanın və Azərbaycanın liderləri toplaşdılar. Onlar orada bəyanat imzaladılar. Başa düşürsünüzmü? O bəyanat ki, oradan belə nəticə hasil olur ki, Ermənistan Qarabağı Azərbaycanın tərkib hissəsi kimi tanıdı. Bununla yanaşı, Ermənistan nümayəndə heyətinin üzvləri birbaşa Azərbaycanın ərazilərini kvadratkilometrlə tanıdıqlarını təsdiqlədilər. Bura, sözsüz ki, Qarabağ da daxildir. Və qeyd etdilər ki, onlar Azərbaycanın ərazi bütövlüyünü, zamanında SSRİ-yə daxil olmuş Azərbaycan SSR-in əraziləri daxilində, tanıyırlar. Bilirsiniz ki, Azərbaycan SSR-in tərkibinə Qarabağ da daxil idi. Əslində, Qarabağın statusu üzərində olan çox vacib məsələ həllini tapdı...

Qarabağ özünün müstəqilliyini elan edəndə, heç kəs bunu tanımadı. Hətta, Ermənistan da. Düzünü desəm, mənim üçün qəribədir. Amma belə bir qərara gəlinmişdi. Onlar Qarabağın müstəqilliyini tanımamışdılar. Ancaq burada – Praqada onlar qəbul etdilər ki, Qarabağ Azərbaycana məxsusdur. Sonra 2023-cü ilin əvvəlində Brüsseldəki analoji görüşdə ikinci dəfə eyni şeyi təkrarladılar. Öz aramızdı, bizə bu barədə heç kəs heç nə deməmişdi. Mən şəxsən bunu mətbuatdan öyrəndim...

Həmişə hesab etmişəm ki, Qarabağ Azərbaycanın ərazisinin tərkib hissəsidir. Ancaq Qarabağın Azərbaycanın tərkib hissəsi kimi statusunun müəyyənləşdirilməsi məsələsində Ermənistan öz mövqeyində dəyişiklik etdi. Görüşlərin birində Prezident Əliyev mənə yaxınlaşdı və dedi ki, bax, görürsünüz, hamı qəbul etdi ki, Qarabağ bizimdir. Sizin sülhməramlılar bizim ərazimizdədirlər. Bilirsiniz, bizim sülhməramlıların statusu Qarabağın statusu müəyyənləşdikdən sonra müəyyən dəyişikliyə məruz qaldı. O (Prezident İlham Əliyev – red.) dedi ki, sizin hərbçilər bizim ərazimizdədirlər və gəlin, indi onların statusu barədə ikitərəfli əsasda danışaq. Baş nazir Paşinyan isə təsdiqlədi: – Bəli, indi siz ikitərəfli əsasda danışmalısınız... Yəni, Qarabağ getdi. Bu status barədə hər şey demək olar. Bu, həlledici sual idi – Qarabağın statusu. Bunun ətrafında on il ərzində hər şey fırlanırdı. Vəssalam, Ermənistan onu həll etdi. Qarabağ Azərbaycanın daxilinə rəsmi qaydada keçdi. Ermənistan dövlətinin mövqeyi budur. Bəs, biz nə edək? Bir müddət əvvəl Laçın dəhlizinin tutulması oldu. Bütün bunlar Azərbaycanın Qarabağ üzərindəki suverenliyinin tanınmasından sonra qaçılmaz idi. Bu, sadəcə zaman söhbəti idi ki, Azərbaycan nə vaxt və necə özünün Konstitusiyasına əsasən, orada konstitusion qayda-qanun yaradacaq. Buna nə demək olar? Necə reaksiya göstərək? Ermənistan tanıyıb, biz nə etməliyik? Yox, biz tanımırıq? Bu ki, nonsensdir... Cəfəngiyyatdır... Mən bizim diskussiyaların nüansları barədə qeyri-korrekt danışmaq istəmirəm. Amma son günlər, yaxud son həftələr baş verənlər Praqada və Brüsseldə edilmişlər fonunda qaçılmaz idi. Buna görə də cənab Mişel və onun həmkarları, bilmirəm hansı pərdə arxasında, harada, hansı kluarda Ermənistanın baş naziri cənab Paşinyanı bu addımı atmağa razı salmağa cəhd göstərəndə, birlikdə Qarabağın erməni əhalisinin taleyini düşünməli idilər. Heç olmasa, onları gözləyən məsələlər barədə nəyisə haradasa yazmalı idilər. Qarabağın Azərbaycana inteqrasiyası ilə bağlı hansısa qayda müəyyənləşdirməli idilər. Onların təhlükəziliyi və hüquqları ilə bağlı yazmalı idilər. Orada (Praqa və Brüssel anlaşmaları – red.) bütün bunlar yoxdur. Orada yalnız bu var – Qarabağ Azərbaycanın tərkib hissəsidir. Vəssalam! Əgər Ermənistan özü belə qərar veribsə, biz nə etməliyik? Bəs, biz nə etdik? Biz humanitar məsələləri həll etdik. Bilirsiniz ki, orada insanlarımız həlak oldular. Yeri gəlmişkən, Qarabağ ermənilərini müdafiə edərkən. Bizim sülhməramlılar. Biz onlara humanitar yardım göstərdik. Tibbi yardım göstərdik. Çıxmalarına şərait yaratdıq. Avropalı həmkarlarımıza gəldikdə, indi heç olmasa, başqa cür deyə bilmirəm, Qarabağdakı doğma yurdlarından çıxan o bədbəxt insanların saxlanılmasına humanitar yardım göstərsinlər. Mənə elə gəlir ki, bunu onlar edəcəklər. Böyük ölçüdə isə onların taleləri barədə uzunmüddətli perspektivdə danışmaq lazımdır".

*

Əvvəldə də dediyimiz kimi, V.Putin açdı sandığı, tökdü pambığı. Kreml rəhbərinin fikirlərindəki qəbuledilməzlikləri vurğuladıq. Ancaq, ilk baxışdan, onun söylədiklərində elə bir təəccüblü məqam yoxdur. Həm də ona görə ki, Rusiya lideri son bir ayda "Valday"da dilə gətirdiklərini artıq ikinci dəfədir vurğulayır. Əlbəttə, onun konkret məqsədi var. Bir halda ki, Ş.Mişel Ermənistanın daxili ictimai rəyinə mesaj verib orada Paşinyana qarşı "süngü çəkmişlərin" mövqeyini, belələrinin ruspərətsliyini qabardaraq, zəiflətmək istəyir, əlbəttə, cavab olmalıdır. Putin də Qarabağla bağlı erməni avantürizmini körükləyən fikirlər səsləndirir və günahı Qərbin üzərinə atırsa, atsın. Mövcud durumda udan tərəf isə Azərbaycandır.

***Əvəz CAHANGİROĞLU***
***XQ***

# "Paşinyan Ermənistanı inadla Ukraynanın gününə qoymaq istəyir"



**Dünən Türkiyədə ingilis dilində nəşr olunan nüfuzlu "The Daily Sabah Newspaper" qəzetində Ermənistanın baş naziri Nikol Paşinyanın ölkəsini Ukrayna ilə anoloji vəziyyətə sala biləcəyi barədə analitik yazı dərc olunub. Mövzunun aktuallığını və yazıdakı dərin mühakimələri nəzərə alaraq, onu kiçik ixtisarlarla hörmətli oxuculara təqdim edirik.**

Beləliklə, qəzetin əməkdaşı, tanınmış siyasi şərhçi Məlik Altınok yazır: "Ermənistan 2020-ci ildən bəri davamlı olaraq ərazilərini Azərbaycanın xeyrinə itirir. Azərbaycan Ordusu bu yaxınlarda Qarabağ üzərində tam nəzarətə nail olub".

Burada dərhal kiçik bir dəqiqləşdirməyə ehtiyac var. Müəllif belə bir faktı qeyd etməyi unudub ki, son üç ildə Ermənistanın "itirdiyi" torpaqlar bu təcavüzkar dövlətin 30 il əvvəl havadarlarının dəstəyi ilə işğal etdiyi Azərbaycan əraziləridir. Azərbaycan bu əraziləri beynəlxalq hüquqa əsaslananarq azad edib və orada öz suverenliyini tam təmin edibdir. Məqalədə sonra vurğulanır: "Bu hadisələrin fonunda Ermənistanın ənənəvi müttəfiqi olan Rusiyanın passiv, yaxud bitərəf qaldığı suallar doğurur. Ermənistanın baş naziri Nikol Paşinyan da, şübhəsiz, belə düşünür. O, Rusiyanın Qarabağdakı erməni əhalisini qorumaqda "aciz qaldığını" iddia edir. Paşinyan hesab edir ki, Ermənistanın təhlükəsizliyini yalnız Rusiyanın ixtiyarına vermək strateji səhvdir və ermənilər Qərb dövlətləri ilə daha geniş tərəfdaşlıq barədə düşünməlidirlər.

Bununla belə, Kreml Ermənistanın Qərblə "işvəkarlığı"nı sərt ritorika ilə rədd edir, "bizim regiondan çəkilmək niyyətimiz yoxdur" kimi bir-birinin ardınca qətiyyətli bəyanatlar səsləndirir.

Maraqlıdır ki, Qərbin özü də Ermənistanın xeyrinə İrəvanın arzu etdiyi qədər qətiyyətli və cəsarətli görünmür. Bu yaxınlarda Ermənistana birgə təlimlər üçün çox az sayda hərbçilər göndərilib. Bu, ona dəlalət edir ki, Qərb Rusiyanın "əsəbləri ilə oynamaq üçün" özündə cəsarət tapa bilmir".

Burada bir məqamı da aydınlaşdırmağa ehtiyac duyuruq. Əslində, Qərb təkcə Rusiya amilini deyil, eyni zamanda, Türkiyə və Azərbaycan ittifaqını da nəzərə almaya bilməz. Azərbaycan Ordusu hazırda regionun ən güclü ordularından biri olduğunu artıq sübut edibdir.

Məqalə müəllifi sonra yazır: "Görünən odur ki, Paşinyan iddialı hərəkətləri ilə Moskvanı Qərblə üzbəüz qoymağa cəhd edir. Hər halda İrəvan Kremli qıcıqlandıran addımlar atır. Bu yaxınlarda Ermənistan parlamentində Roma Statutunun təsdiqlənməsi bu istiqamətdə atılan son təxribatçı addımlardandır".

Məlum olduğu kimi, Roma Nizamnaməsi Beynəlxalq Cinayət Məhkəməsi (BCM) üçün əsas sənəddir. Roma Statutunu ratifikasiya etmiş ölkələr BCM qərarlarını icra etməyə borcludur, imzası olmayan dövlətlər isə xüsusi cinayətlər üzrə məhkəmə qarşısında iddia qaldıra bilərlər. Bir müddət əvvəl BCM ukraynalı uşaqların "qanunsuz deportasiyası" səbəbi ilə Rusiya Prezidenti Vladimir Putinin həbsinə order vermişdir.

Paşinyan Ermənistan parlamentində qəbul etdirdiyi son qərarla Rusiyanın dövlət başçısına belə bir sərt mesaj verir: O, Ermənistana səfər etdiyi təqdirdə həbs ediləcək. Bu ismarıcın sadə açıqlaması belədir. Bunu Kremldə gözəl anlayırlar və Paşinyanın "qırmızı xətti" keçdiyinin fərqindədirlər.

Müəllif soruşur: "Qeyri-ənənəvi" görünən bu addımın arxasında, Ukraynada baş verənlərə bənzər Moskvanı müdaxiləyə məcbur etməkdən başqa, hansı motiv dayana bilər?

Buna baxmayaraq, Vladimir Putin, hətta qlobal müxalifətlə qarşılaşanda belə səliqəli qərarlar qəbul etmək bacarığı ilə tanınan təcrübəli və əyilməz liderdir. Onu çətin vəziyyətə salmaq asan məsələ deyil".

Yazı müəllifi öz ehtimallarını belə sıralayır: "Ola bilsin, Paşinyan hesablayır ki, Putinin diqqətinin Ukraynaya yönəlməsi onu Ermənistanda yeni cəbhə açmaqdan çəkindirə bilər.

Halbuki Ermənistan Ukraynadan başqa, Afrika, Sakit okean və Suriyada ABŞ-la "şahmat oynayan" Putin üçün "ağır yük" deyil. O, müdaxilə etməyə, hətta bunu etiraf etməyə də meyilli görünmür".

Müəllifin sonrakı mülahizələri də maraqlıdır: "Kremlin "passiv" (əslində, beynəlxalq hüquqa hörmət nümayiş etdirən –müəllif) mövqeyindən bəhrələnən Azərbaycan Ordusu Ermənistan sərhədlərinə tərəf irəliləyir. Üstəlik, üç onillikdən bəri davam edən Qarabağ münaqişəsinin həlli qeyrəti və sədaqəti ilə xalqının dərin inamını qazanan Ali Baş Komandan cənab İlham Əliyevin peşəkar idarəçiliyində Azərbaycanın silahlı qüvvələri həmişə olduğu kimi güclüdür. Hamıya məlumdur ki, onlar Türkiyə tərəfindən sarsılmaz dəstək alırlar. Ermənistan ordusu gücsüz görünür və bu, heç kim üçün sirr deyil ki, onlar İrəvanı bir güllə belə atmadan Azərbaycana təslim edə bilərdilər".

Yenə də vurğulamaq istərdik ki, Azərbaycan xalqı və dövləti heç bir ölkənin ərazisinə və torpaqlarına iddia etmir.

Müəllifin məqalənin sonunda gəldiyi nəticələr də düşündürücüdür: "Bu dinamikanı bir kənara qoysaq, ABŞ-ın, xüsusən də bu ölkədə növbəti prezident seçkiləri ərəfəsində münaqişə ocaqlarına maliyyə yatırmaq niyyəti azdır. Bu yaxınlarda Ağ ev hətta bəyan etdi ki, ABŞ-ın Ukraynaya uzunmüddətli hərbi yardım üçün resursları yoxdur.

Afrikadan kənarlaşdırılan Fransanın prezidenti Emmanuel Makronun Ermənistana vəd etdiyi hərbi yardıma gəlincə, bu, Paşinyanın mövqeyini təmin etmək üçün qeyri-adekvat görünür".

Türkiyəli şərhçi hesab edir ki, Qərbin maliyyə vəsaitləri və zəmanətləri ilə idarə olunan Ukrayna prezidenti Vladimir Zelenskinin yolu ilə gedərkən baş nazir Paşinyan bir daha düşünməlidir. Belə bir yanlış kurs erməni xalqına yaxşı heç nə vəd etmir, üstəlik, bölgədə arzu olunan sülh və sabitliyin bərqərar olunmasına mane olur.

***Təqdim etdi:***
***Məsaim ABDULLAYEV***
***XQ***

*Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 6 oktyabr tarixli Fərmanı ilə təsdiq edilmişdir*

# İcra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının layihələrinin hazırlanması, razılaşdırılması, qəbul edilməsi və dərc edilməsi qaydası haqqında

## ƏSASNAMƏ

**1. Ümumi müddəalar**

1.1. Bu Əsasnamə "Normativ hüquqi aktlar haqqında" Azərbaycan Respublikası Konstitusiya Qanununun (bundan sonra – Konstitusiya Qanunu) 27.1-ci maddəsinə uyğun olaraq hazırlanmışdır və Azərbaycan Respublikasının Nazirlər Kabineti, mərkəzi icra hakimiyyəti orqanları, habelə digər dövlət orqanları, eləcə də nizamnamələrinə əsasən normativ hüquqi akt layihələrinin hazırlanmasında iştirak etmək səlahiyyəti olan Azərbaycan Respublikasının Prezidenti və ya Azərbaycan Respublikasının Nazirlər Kabineti tərəfindən yaradılan publik hüquqi şəxslər, dövlət mülkiyyətində olan və paylarının (səhmlərinin) nəzarət zərfi dövlətə məxsus olan hüquqi şəxslər (bundan sonra – dövlət orqanları (qurumları) tərəfindən Azərbaycan Respublikası Prezidentinin, Azərbaycan Respublikası Nazirlər Kabinetinin, mərkəzi icra hakimiyyəti orqanlarının (bundan sonra – icra hakimiyyəti orqanları) normativ hüquqi aktlarının layihələrinin hazırlanması, razılaşdırılması, təqdim edilməsi, qəbul edilməsi və dərc edilməsi ilə bağlı məsələləri tənzimləyir.

1.2. Bu Əsasnamənin müddəaları həmçinin aşağıdakı hallarda tətbiq olunur:

1.2.1. Azərbaycan Respublikası Prezidentinin qanunvericilik təşəbbüsü hüququnun həyata keçirilməsi ilə əlaqədar dövlət orqanları (qurumları) tərəfindən qanun layihələrinin hazırlanması, razılaşdırılması və Azərbaycan Respublikasının Prezidentinə təqdim edilməsi zamanı;

1.2.2. dövlət orqanları (qurumları) tərəfindən Azərbaycan Respublikası Prezidentinin sərəncamları layihələrinin hazırlanması, razılaşdırılması, təqdim edilməsi, qəbul edilməsi və dərc edilməsi zamanı.

1.3. Bu Əsasnamədə başqa hal nəzərdə tutulmamışdırsa, bu Əsasnamə Azərbaycan Respublikası Prezidentinin Administrasiyasında hazırlanan normativ hüquqi akt layihələrinə şamil edilmir.

1.4. Konstitusiya Qanununun 48.7-ci maddəsinə uyğun olaraq, normativ hüquqi akt layihələrinin hazırlanması, razılaşdırılması və normayaratma orqanına təqdim edilməsi "Normativ hüquqi aktlar" informasiya sistemi haqqında Əsasnamənin tələbləri nəzərə alınmaqla "Normativ hüquqi aktlar" informasiya sistemi vasitəsilə həyata keçirilir.

1.5. Dövlət sirrini əks etdirən normativ hüquqi akt layihələrinin hazırlanması, razılaşdırılması və normayaratma orqanına təqdim edilməsinə bu Əsasnamənin 1.4-cü bəndi tətbiq edilmir.

1.6. Bu Əsasnamədə istifadə edilən anlayışlar Konstitusiya Qanununda müəyyən olunmuş mənaları ifadə edir.

**2. Normativ hüquqi akt layihəsinin hazırlanması**

2.1. Normativ hüquqi akt layihəsinin hazırlanmasının ümumi qaydası Konstitusiya Qanununun 45-ci maddəsi ilə müəyyən edilir.

2.2. Normativ hüquqi akt layihəsi Azərbaycan Respublikası Konstitusiyasının 149-cu maddəsinin I hissəsinə uyğun olaraq hüquqa və haqq-ədalətə (bərabər mənafelərə bərabər münasibətə) əsaslanmaqla və Konstitusiya Qanununun 8-ci maddəsində müəyyən edilmiş normayaratma fəaliyyətinin əsas prinsipləri nəzərə alınmaqla hazırlanır.

2.3. Normativ hüquqi akt layihəsi dövlət orqanının (qurumunun) hüquq xidmətinin mütləq iştirakı ilə hazırlanır. Sahələrarası məsələlərə aid normativ hüquqi akt layihəsi hazırlanarkən dövlət orqanlarının (qurumlarının) həmin sahələrə aid olan struktur bölmələri ilə razılaşdırılmalıdır. İnzibati ərazi vahidinin mənafeyi və həmin inzibati ərazi vahidində fəaliyyət göstərən dövlət orqanlarının (qurumlarının) səlahiyyətləri ilə bağlı normativ hüquqi akt layihəsi hazırlanarkən həmin dövlət orqanları (qurumları) bu işə cəlb olunurlar.

2.4. Azərbaycan Respublikasının Prezidenti və (və ya) Azərbaycan Respublikasının Nazirlər Kabineti normativ hüquqi akt layihəsinin hazırlanmasını dövlət orqanlarına (qurumlarına), habelə bu məqsədlə yaradılmış müvəqqəti komissiyalara və ya işçi qruplara tapşıra, habelə layihənin hazırlanmasına müstəqil ekspertləri və mütəxəssisləri cəlb edə bilər.

2.5. Azərbaycan Respublikasının Nazirlər Kabineti tərəfindən müvafiq sahədə dövlət siyasətini və tənzimləməsini həyata keçirən dövlət orqanına (qurumuna) normativ hüquqi akt layihəsinin hazırlanması tapşırıldıqda, tapşırıqda icra müddəti qeyd edilməklə, həmin dövlət orqanı (qurumu) əsas icraçı kimi müəyyən olunmalı və layihənin razılaşdırılması vacib olan digər dövlət orqanları (qurumları) göstərilməlidir.

2.6. Normativ hüquqi akt layihəsinin hazırlanmasına dair Azərbaycan Respublikası Nazirlər Kabinetinin tapşırığında əsas icraçı qismində müəyyən olunan dövlət orqanının (qurumunun) rəhbəri əsas icraçının və (və ya) tapşırığın dəyişdirilməsi məqsədilə Azərbaycan Respublikasının Baş nazirinə müraciət edə bilər.

2.7. Azərbaycan Respublikası Nazirlər Kabinetinin tapşırığının icra müddətinin ilk üçdə bir hissəsi ərzində (bu Əsasnamənin 2.8-ci bəndi nəzərə alınmaqla) əsas icraçı tərəfindən müvafiq normativ hüquqi akt layihəsi hazırlanmalı və razılaşdırılmaq üçün aidiyyəti dövlət orqanlarına (qurumlarına) göndərilməlidir. Tapşırığın icra müddətinin qalan hissəsində normativ hüquqi akt layihəsi bu Əsasnamənin 3-cü hissəsinin tələbləri nəzərə alınmaqla razılaşdırılmalı və Azərbaycan Respublikasının Nazirlər Kabinetinə təqdim olunmalıdır.

2.8. Normativ hüquqi akt layihəsinin hazırlanması ilə bağlı tapşırığın müəyyən olunmuş müddətdə icrası mümkün olmadıqda, tapşırığı icra edən bunun səbəbləri və tapşırığın icra tarixini göstərməklə, yuxarı dövlət orqanına tapşırığın icrasının başaçatma tarixindən azı 7 (yeddi) iş günü əvvəl məlumat verməlidir.

2.9. Azərbaycan Respublikası Prezidentinin Administrasiyasından Azərbaycan Respublikasının Nazirlər Kabinetinə normativ hüquqi akt layihəsinin hazırlanması və ya yenidən işlənilməsi ilə bağlı göndərilən təklifə, həmçinin baxılması (münasibət bildirilməsi) üçün göndərilən normativ hüquqi akt layihəsinə ən geci 3 (üç) ay müddətində, əlavə araşdırma tələb olunduqda isə 6 (altı) aydan gec olmayaraq baxılmalıdır (münasibət bildirilməlidir). Azərbaycan Respublikası Prezidentinin Administrasiyası rəhbərinin məktubunda normativ hüquqi akt layihəsinin hazırlanması və ya yenidən işlənilməsi, habelə normativ hüquqi akt layihəsinə baxılması (münasibət bildirilməsi) üçün daha qısa müddət müəyyən edilə bilər.

2.10. Azərbaycan Respublikası Prezidentinin Administrasiyasından Azərbaycan Respublikasının Nazirlər Kabinetinə icra hakimiyyəti orqanlarının təsdiq edilmiş (qüvvəyə minmiş) normativ hüquqi aktlarının təkmilləşdirilməsi, aşkar edilmiş boşluqların, ziddiyyətlərin və digər nöqsanların aradan qaldırılması ilə bağlı göndərilən təkliflər nəzərə alınmalı və ən geci 1 (bir) ay müddətində müvafiq normativ hüquqi aktlarda dəyişiklik edilməsi və ya onların ləğv edilməsi ilə bağlı tədbirlər görülməli, nəticəsinə dair məlumat, təkliflərin nəzərə alınması mümkün olmadıqda isə bu barədə əsaslandırılmış cavab məktubu Azərbaycan Respublikasının Prezidentinə təqdim edilməlidir.

**3. Normativ hüquqi akt layihəsinin razılaşdırılması**

3.1. Normativ hüquqi akt layihəsinin razılaşdırılmasının ümumi qaydası Konstitusiya Qanununun 46-cı maddəsi ilə müəyyən edilir.

3.2. Normativ hüquqi akt layihəsi müvafiq sahədə dövlət siyasətini və tənzimləməsini həyata keçirən mərkəzi icra hakimiyyəti orqanları, habelə aidiyyəti üzrə digər dövlət orqanları (qurumları) ilə, Azərbaycan Respublikası Milli Məclisinin, Azərbaycan Respublikası Prezidentinin və Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının layihələri həmçinin Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi ilə, dövlət büdcəsinin gəlir və xərclərinə təsir edən normativ hüquqi akt layihəsi maliyyə ekspertizasının keçirilməsi məqsədilə həmçinin Azərbaycan Respublikasının Maliyyə Nazirliyi ilə razılaşdırılmalıdır.

3.3. Azərbaycan Respublikası Prezidentinin Administrasiyasından Azərbaycan Respublikasının Nazirlər Kabinetinə qəbul (təsdiq) edilmək üçün göndərilən normativ hüquqi akt layihəsi və ya normativ hüquqi akt layihəsinə dair təkliflər aidiyyəti dövlət orqanları (qurumları) ilə razılaşdırılmış hesab olunur. Azərbaycan Respublikasının Nazirlər Kabineti Azərbaycan Respublikası Prezidentinin Administrasiyasından daxil olmuş həmin normativ hüquqi akt layihəsini və ya təklifləri müvafiq olaraq razılaşdırılmaq üçün aidiyyəti dövlət orqanlarına (qurumlarına) göndərmədən ən geci 15 (on beş) gün müddətində müvafiq olaraq qəbul (təsdiq) edir və ya nəzərə alır. Belə layihədə dəyişiklik yalnız Azərbaycan Respublikası Prezidenti Administrasiyasının razılığı ilə edilə bilər.

3.4. Azərbaycan Respublikası Prezidentinin Administrasiyasından Azərbaycan Respublikasının Nazirlər Kabinetinə baxılması (münasibət bildirilməsi) üçün göndərilən normativ hüquqi akt layihəsi aidiyyəti dövlət orqanları (qurumları) ilə razılaşdırılır.

3.5. Yuxarı dövlət orqanı, digər aidiyyəti dövlət orqanları (qurumları) ilə razılaşdırılmaqla qəbul (təsdiq) olunan normativ hüquqi aktda dəyişiklik yalnız həmin dövlət orqanları (qurumları) ilə razılaşdırıldıqdan sonra edilə bilər (bu Əsasnamənin 3.3-cü bəndində nəzərdə tutulmuş hal istisna olmaqla). Belə normativ hüquqi aktda ona dəyişiklik edilməsi qaydası göstərilməlidir.

3.6. Bu Əsasnamənin 3.7-ci bəndində nəzərdə tutulan hallar istisna olmaqla, Azərbaycan Respublikası Prezidentinin və ya Azərbaycan Respublikası Nazirlər Kabinetinin aktlarında digər hal nəzərdə tutulmadıqda, razılaşdırılmaq üçün göndərilən normativ hüquqi akt layihəsinə müvafiq dövlət orqanı (qurumu) onun daxil olduğu gündən 60 (altmış) gün müddətində, təkrar razılaşdırılmaq üçün göndərildikdə isə həmin layihəyə onun daxil olduğu gündən 30 (otuz) gün müddətində münasibət bildirməlidir.

3.7. Azərbaycan Respublikası Prezidentinin və ya Azərbaycan Respublikası Nazirlər Kabinetinin aktlarında normativ hüquqi akt layihəsinin hazırlanması üçün 3 (üç) ay və ya daha az müddət müəyyən edildikdə, razılaşdırılmaq üçün göndərilən həmin layihəyə müvafiq dövlət orqanı (qurumu) onun daxil olduğu gündən 10 (on) gün müddətində, təkrar razılaşdırılmaq üçün göndərildikdə isə həmin layihəyə onun daxil olduğu gündən 5 (beş) gün müddətində münasibət bildirməlidir.

3.8. Razılaşdırılma haqqında məlumat bu Əsasnamənin 3.6-cı və 3.7-ci bəndləri ilə müəyyən edilmiş müddətlərdə təqdim edilmədikdə və Konstitusiya Qanununun 46.5-ci maddəsinə uyğun olaraq razılaşdırılma müddəti uzadılmadıqda, normativ hüquqi akt layihəsi razılaşdırılmış və vizalanmış hesab olunur.

3.9. Razılaşdırılmaq üçün göndərilən normativ hüquqi akt layihəsinə razılıq verilməsi və ya verilməməsi, o cümlədən irad və təkliflər barədə cavab məktubu müvafiq dövlət orqanının (qurumunun) rəhbəri (o olmadıqda isə onun vəzifələrini icra edən şəxs) tərəfindən imzalanmalıdır. Digər şəxslər tərəfindən imzalanmış cavab məktubu nəzərə alınmır.

3.10. Normativ hüquqi akt layihəsinin razılaşdırılması zamanı dövlət orqanının (qurumunun) irad və təklifləri olduqda, onlar əsaslandırılmalı və ya təklif edilən normativ göstərişlərlə razılaşmadıqda, normativ hüquqi aktın layihəsi və ya onun ayrıca struktur elementi normayaratma texnikasının müəyyən edilmiş qaydalarına uyğun əlavə olunmalıdır.

3.11. Normativ hüquqi akt layihəsinin razılaşdırılması zamanı hüquqi cəhətdən əsaslandırılmamış irad və təkliflərə baxılmır.

3.12. Normativ hüquqi akt layihəsinin razılaşdırılması zamanı aşağıdakı hallarda irad və təkliflər nəzərə alınmaya bilər:

3.12.1. irad və təkliflər aidiyyəti dövlət orqanının (qurumunun) fəaliyyət istiqamətlərindən irəli gəlmədikdə;

3.12.2. irad və təkliflər normativ hüquqi akt layihəsinin hazırlanması ilə bağlı tapşırığın predmetinə uyğun olmadıqda.

3.13. Normativ hüquqi akt layihəsinin razılaşdırılması zamanı müvafiq dövlət orqanı (qurumu) tərəfindən bildirilmiş irad və təkliflər nəticəsində normativ hüquqi akt layihəsi əsaslı dəyişikliyə məruz qaldıqda, layihə təkrar razılaşdırılmaq üçün aidiyyəti dövlət orqanlarına (qurumlarına) göndərilir.

3.14. Normativ hüquqi akt layihəsinə və ya onun ayrıca struktur elementinə dair fikir ayrılıqları olduqda, həmin layihə əsas icraçısı olan dövlət orqanının (qurumunun) rəhbəri və ya onun razılığı ilə müavini tərəfindən aidiyyəti dövlət orqanlarının (qurumlarının) rəhbərləri və ya onların müavinləri ilə iclas keçirilməklə müzakirə edilir. Layihənin müzakirəsinin nəticəsi iclas protokolu ilə rəsmiləşdirilir. Protokolda layihəyə razılıq verilməsi, razılıq əldə edilmədikdə isə bununla əlaqədar icraçıların rəyləri əks olunur. Protokol iclas iştirakçıları tərəfindən imzalanır.

3.15. Dövlət orqanları (qurumları) tərəfindən hazırlanmış normativ hüquqi akt layihələri (əldə olunması qanunla məhdudlaşdırılan informasiyaları əks etdirən layihələr istisna edilməklə) razılaşdırılmağa göndərildiyi andan Elektron Hökumət İnformasiya Sistemində, lisenziya və icazə verən orqanların hazırladığı sahibkarlıq sahəsinə aid normativ hüquqi aktların layihələri həmçinin "Lisenziyalar və icazələr" portalında yerləşdirilir. Bu zaman normativ hüquqi akt layihələrinə dair verilən təkliflər məqsədəuyğun hesab edildikdə nəzərə alınır.

3.16. Normativ hüquqi akt layihəsi razılaşdırıldıqdan (təkrar razılaşdırıldıqdan) dərhal sonra əsas icraçı tərəfindən vizalanmaq üçün layihəyə razılıq vermiş dövlət orqanlarına (qurumlarına) göndərilir. Həmin layihə dövlət orqanına (qurumuna) daxil olduğu gündən ən geci 7 (yeddi) gün keçənədək dövlət orqanının (qurumunun) rəhbəri (o olmadıqda isə onun vəzifələrini icra edən şəxs) tərəfindən vizalanmalıdır, əks halda layihə vizalanmış hesab olunur. Bu zaman dövlət orqanının (qurumunun) əlavə irad və təklifləri olduqda, bununla bağlı əsaslandırılmış rəyi və normativ hüquqi aktın layihəsi və ya onun ayrıca struktur elementinin təklif edilən redaksiyası normayaratma texnikasının müəyyən edilmiş qaydalarına uyğun əlavə edilməklə təqdim olunan layihə vizalanır.

3.17. Bu Əsasnamənin 3.16-cı bəndinə uyğun olaraq normativ hüquqi akt layihəsinin vizalanması zamanı müvafiq dövlət orqanının (qurumunun) əsaslandırılmış rəyi nəticəsində normativ hüquqi akt layihəsi əsaslı dəyişikliyə məruz qaldıqda, bu Əsasnamədə nəzərdə tutulmuş qaydada layihənin təkrar razılaşdırılması və vizalanması həyata keçirilir.

3.18. Bu Əsasnamənin 3.14-cü bəndinə uyğun olaraq normativ hüquqi akt layihəsinin müzakirəsi nəticəsində razılıq əldə etmək mümkün olmadıqda, digər dövlət orqanları (qurumları) tərəfindən vizalanmış layihə, ona razılıq verməyən icraçıların rəylərini əks etdirən iclas protokolu və Konstitusiya Qanununun 48.2-ci maddəsində göstərilənlər əlavə olunmaqla, Azərbaycan Respublikasının Baş nazirinə təqdim edilir. Bu qaydaya əməl edilmədən təqdim olunan sənədlər əsas icraçıya geri qaytarılır.

3.19. Razılıq əldə edilməsi mümkün olmayan normativ hüquqi akt layihəsinə və ya onun ayrıca struktur elementinə dair qarşılıqlı həllin tapılması məqsədilə Azərbaycan Respublikası Baş nazirinin tapşırığı ilə onun müavini və ya Azərbaycan Respublikası Nazirlər Kabineti Aparatının rəhbərinin yanında Aparatın müvafiq struktur bölməsinin (bölmələrinin), layihənin əsas icraçısının, habelə aidiyyəti dövlət orqanları (qurumları) rəhbərlərinin (onların müavinlərinin) iştirakı ilə müzakirə aparılır və nəticələr protokollaşdırılır. Müzakirə nəticəsində razılıq əldə etmək mümkün olmadıqda, bu barədə Azərbaycan Respublikası Baş nazirinin müavini və ya Azərbaycan Respublikası Nazirlər Kabineti Aparatının rəhbəri tərəfindən Azərbaycan Respublikasının Baş nazirinə məlumat verilir. Müzakirə nəticəsində qarşılıqlı həlli tapılmayan normativ hüquqi akt layihəsinə və ya onun ayrıca struktur elementinə dair Azərbaycan Respublikasının Baş naziri aşağıdakı tədbirlərdən birini görür:

3.19.1. razılığın əldə edilməməsi normativ hüquqi akt layihəsinin və ya onun ayrıca struktur elementinin qəbul edilməsinin məqsədəuyğunluğu ilə bağlıdırsa, layihəyə və ya onun ayrıca struktur elementinə dair öz qərarını həyata keçirir;

3.19.2. razılığın əldə edilməməsi qüvvədə olan normativ hüquqi aktların tələbləri ilə əlaqədardırsa, həmin tələblərə əsaslanaraq qərar qəbul edir.

3.20. Bu Əsasnamənin 3.6 – 3.8-ci və 3.15-ci bəndlərinin müddəaları Azərbaycan Respublikası Prezidentinin Administrasiyasına münasibətdə tətbiq edilmir.

3.21. Azərbaycan Respublikası Konstitusiyasının 96-cı maddəsinin III hissəsinə uyğun olaraq qanunvericilik təşəbbüsü qaydasında Azərbaycan Respublikası Prezidentinin Azərbaycan Respublikasının Milli Məclisinə təqdim etdiyi qanun layihəsində dəyişiklik edilməsinə dair digər icra hakimiyyəti orqanlarının təklifləri Azərbaycan Respublikasının Milli Məclisinə (deputatlara, komitələrə) təqdim oluna bilməz.

**4. Normativ hüquqi akt layihəsinin təqdim olunması və qəbul edilməsi**

4.1. Normativ hüquqi akt layihəsi Konstitusiya Qanununun 48-ci maddəsinə uyğun olaraq təqdim olunur.

4.2. Normativ hüquqi akt layihəsi ən geci onun hazırlanması ilə bağlı tapşırığın icra müddətinin son günü (həmin gün qeyri-iş gününə düşdükdə, növbəti ilk iş günü) tapşırığı verən yuxarı orqana təqdim olunur.

4.3. Konstitusiya Qanununun 48.2 – 48.5-ci maddələrinə uyğun olaraq, tapşırığı verən yuxarı orqana təqdim edilən normativ hüquqi akt layihəsinə, onun növündən asılı olaraq, aşağıdakılar əlavə edilir:

4.3.1. müşayiət məktubu;

4.3.2. normativ hüquqi akt layihəsinin uyğunluğunun təmini haqqında arayış;

4.3.3. normativ hüquqi aktın qəbul edilməsi zərurətinin əsaslandırılması, o cümlədən maliyyə-iqtisadi əsaslandırılması;

4.3.4. layihənin razılaşdırılması (vizalanması) haqqında məlumatı əks etdirən sənədlər;

4.3.5. layihəyə dair məcburi hüquqi ekspertizanın, o cümlədən layihənin sui-istifadəyə məruz qalmasına dair və digər ekspertizaların rəyləri;

4.3.6. hər bir dövlət orqanı (qurumu) göstərilməklə, layihəni hazırlamış şəxslərin siyahısı;

4.3.7. qanunda dəyişiklik edilməsi haqqında qanun layihələrinə maddənin və ya qanunun digər struktur elementinin redaksiyası və layihə ilə qanuna təklif edilən dəyişikliklər nəzərə alınmaqla maddənin və ya qanunun digər struktur elementinin redaksiyası göstərilməklə müqayisəli cədvəl;

4.3.8. bu Əsasnamənin 3.14-cü bəndi tətbiq olunduqda, layihəyə razılıq verməyən icraçıların rəylərini əks etdirən iclas protokolu;

4.3.9. layihəyə aid digər sənədlər (layihəni təqdim edən dövlət orqanının (qurumunun) qərarına əsasən).

4.4. Azərbaycan Respublikası Prezidentinin tapşırığı ilə normativ hüquqi akt layihəsinin hazırlandığı və ya layihənin birbaşa Azərbaycan Respublikasının Prezidentinə təqdim edilməsi zərurətinin əsaslandırıldığı hallar istisna edilməklə, hər hansı bir dövlət orqanının (qurumunun) hazırladığı normativ hüquqi akt layihəsi Azərbaycan Respublikasının Prezidentinə Azərbaycan Respublikasının Nazirlər Kabineti tərəfindən təqdim edilməlidir. Belə zərurət əsaslandırılmadıqda və ya bu cür əsaslandırma qaneedici olmadıqda, normativ hüquqi akt layihəsi baxılması (münasibət bildirilməsi) üçün Azərbaycan Respublikasının Nazirlər Kabinetinə göndərilir. Bu halda Azərbaycan Respublikasının Nazirlər Kabineti qaldırılan məsələ ilə bağlı aşağıdakı tədbirlərdən birini görür:

4.4.1. məqsədəuyğun hesab etdikdə, normativ hüquqi akt layihəsini hazırlayaraq Konstitusiya Qanununun 48.2-ci maddəsində müəyyən edilmiş qaydada Azərbaycan Respublikasının Prezidentinə təqdim edir;

4.4.2. məqsədəuyğun hesab etmədikdə, bu barədə əsaslandırılmış cavab məktubunu Azərbaycan Respublikasının Prezidentinə təqdim edir.

4.5. Normativ hüquqi akt layihəsinə baxılmasının və onun qəbul edilməsinin ümumi qaydası Konstitusiya Qanununun 70 – 74-cü maddələri ilə müəyyən edilir.

4.6. Yuxarı dövlət orqanlarının aktlarında dəyişiklik edilmədən, eyni məsələ üzrə aşağı dövlət orqanlarının aktlarında dəyişiklik edilməsinə yol verilmir.

4.7. Mərkəzi icra hakimiyyəti orqanının əsasnaməsində nəzərdə tutulmuş hallarda normativ hüquqi akt mərkəzi icra hakimiyyəti orqanının rəhbəri və ya kollegiyası tərəfindən qəbul edilir. Normativ hüquqi aktın qəbul edilməsi barədə mərkəzi icra hakimiyyəti orqanının kollegiyasının qərarını həmin orqanın rəhbəri imzalayır.

4.8. Konstitusiya Qanununun 78.2-ci maddəsinə uyğun olaraq normativ hüquqi aktı qəbul etmiş icra hakimiyyəti orqanı onu Azərbaycan Respublikasının Hüquqi Aktların Dövlət Reyestrinə (bundan sonra – Dövlət Reyestri) daxil edilmək üçün həmin aktın qəbul edildiyi gündən 3 (üç) gün keçənədək Azərbaycan Respublikasının Ədliyyə Nazirliyinə göndərir.

**5. Normativ hüquqi aktların dərc edilməsi**

5.1. Normativ hüquqi aktların rəsmi dərc edilməsinin ümumi qaydası və müddətləri Konstitusiya Qanununun 82-ci və 83-cü maddələri ilə müəyyən edilir.

5.2. Normativ hüquqi aktın mətni rəsmi dövri mətbu nəşrdə dərc edilməklə və Azərbaycan Dövlət İnformasiya Agentliyinin (AZƏRTAC-ın) informasiya ehtiyatında yerləşdirilməklə normativ hüquqi akt rəsmi dərc olunur.

5.3. İctimai radio və televiziya kanallarında səsləndirilmiş normativ hüquqi aktın mətni həmçinin rəsmi dövri mətbu nəşrdə dərc edilməli və Azərbaycan Dövlət İnformasiya Agentliyinin (AZƏRTAC-ın) informasiya ehtiyatında yerləşdirilməlidir.

5.4. Mərkəzi icra hakimiyyəti orqanının normativ hüquqi aktı Dövlət Reyestrinə daxil edildikdən (bu Əsasnamənin 5.5-ci bəndi nəzərə alınmaqla) sonra 72 saat müddətində həmin orqan tərəfindən elektron daşıyıcıda mətn faylları formasında rəsmi dərc edilməsi üçün bu Əsasnamənin 5.2-ci bəndində göstərilən media subyektlərindən azı birinə təqdim edilməlidir.

5.5. Mərkəzi icra hakimiyyəti orqanının normativ hüquqi aktı Dövlət Reyestrinə daxil edilmək üçün təqdim olunduqdan sonra 7 (yeddi) iş günü müddətində Dövlət Reyestrinə daxil edilmək üçün qəbulundan imtina edilməyibsə, həmin akt Dövlət Reyestrinə daxil edilmiş hesab olunur və rəsmi dərc edilməlidir, bu şərtlə ki, həmin müddət bitdikdən sonra 1 (bir) iş günü ərzində Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi tərəfindən normativ hüquqi aktın Dövlət Reyestrinə vaxtında daxil edilməməsinin səbəbləri barədə həmin orqana əsaslandırılmış məlumat verilməmiş olsun.

5.6. Normativ hüquqi aktların rəsmi dərc edilməsi dövlət dilində həyata keçirilir. Normativ hüquqi aktın digər dillərdə rəsmi dərc olunmasına yalnız həmin aktın müvafiq dövlət orqanı tərəfindən bu aktın qəbul edilməsi üçün müəyyən edilmiş qaydada təsdiq edilmiş müvafiq dilə tərcüməsi mövcud olduqda yol verilir.

5.7. Normativ hüquqi aktların dövlət sirrini əks etdirən ayrı-ayrı müddəaları dərc edilmir.

5.8. Normativ hüquqi aktlar (ayrı-ayrı müddəaları dövlət sirrini əks etdirən aktlar istisna olmaqla) tam şəkildə və məcburi rekvizitləri göstərilməklə dərc edilməlidir.

5.9. Normativ hüquqi aktların qeyri-rəsmi nəşrlərdə və digər media subyektlərində açıqlanması Konstitusiya Qanununun 84-cü maddəsinə uyğun olaraq həyata keçirilir.

5.10. Azərbaycan Respublikası Prezidentinin 2011-ci il 16 fevral tarixli 385 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Dövlət və yerli özünüidarə orqanlarının aktlarının elektron informasiya sistemləri vasitəsilə açıqlanması Qaydası"na uyğun olaraq, icra hakimiyyəti orqanları normativ hüquqi aktlarını qüvvəyə mindiyi gündən öz internet informasiya ehtiyatında açıqlamalıdırlar. İcra hakimiyyəti orqanları normativ hüquqi aktlarını digər internet informasiya ehtiyatlarında da açıqlaya bilərlər.

5.11. Qəbul edilmiş Azərbaycan Respublikası Prezidentinin aktları və Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarları Azərbaycan Respublikasının Qanunvericilik Toplusunda da dərc edilir.

**6. Keçid müddəa**

2025-ci il yanvarın 1-dək normativ hüquqi akt layihəsinin hazırlanması, razılaşdırılması və normayaratma orqanına təqdim edilməsi "Normativ hüquqi aktlar" informasiya sistemi vasitəsilə yanaşı, kağız daşıyıcıda və eyni zamanda elektron daşıyıcılarda mətn faylları formasında həyata keçirilir.

Azərbaycan Respublikası Prezidentinin
2023-cü il 6 oktyabr tarixli Fərmanı ilə təsdiq edilmişdir

# “Normativ hüquqi aktlar” informasiya sistemi haqqında

## ƏSASNAMƏ

**1. Ümumi müddəalar**

1.1. Bu Əsasnamə “Normativ hüquqi aktlar” informasiya sisteminin (bundan sonra – Sistem) formalaşdırılmasının, aparılmasının və digər dövlət orqanlarının (qurumlarının) informasiya sistemləri və ehtiyatları ilə “Elektron Hökumət İnformasiya Sistemi” (bundan sonra – EHİS) vasitəsilə inteqrasiyasının, habelə Sistemlə bağlı mühafizə tədbirlərinin təmin edilməsinin hüquqi, təşkilati və texnoloji əsaslarını müəyyən edir.

1.2. Sistemin formalaşdırılmasının məqsədi rəqəmsal texnologiyalardan, o cümlədən informasiya-kommunikasiya texnologiyalarından istifadə yolu ilə aşağıdakıları təmin etməkdir:

1.2.1. Azərbaycan Respublikasının Nazirlər Kabineti, mərkəzi icra hakimiyyəti orqanları, digər dövlət orqanları, habelə nizamnamələrinə əsasən normativ hüquqi akt layihələrinin hazırlanmasında iştirak etmək səlahiyyəti olan Azərbaycan Respublikasının Prezidenti və ya Azərbaycan Respublikasının Nazirlər Kabineti tərəfindən yaradılan publik hüquqi şəxslər, dövlət mülkiyyətində olan və paylarının (səhmlərinin) nəzarət zərfi dövlətə məxsus olan hüquqi şəxslər tərəfindən həyata keçirilən normayaratma fəaliyyətinin optimallaşdırılmasını, keyfiyyətinin və operativliyinin yüksəldilməsini;

1.2.2. normativ hüquqi akt layihələrinin hazırlanmasının, aidiyyəti dövlət orqanları (qurumları) ilə razılaşdırılmasının və yuxarı orqanlara təqdim olunmasının elektron qaydada həyata keçirilməsini, “kağızsız hökumət”ə keçid prosesinin sürətləndirilməsini;

1.2.3. Sistemdə saxlanılan sənədlərin (məlumatların) sistemliliyini və əlçatanlığını, analitik təhlilinin aparılmasını və hesabatların hazırlanmasını;

1.2.4. bu Əsasnamənin 1.2.2-ci yarımbəndində qeyd edilən fəaliyyətin həyata keçirilməsinə nəzarət edilməsini.

1.3. Sistemdə formalaşdırılan, yaradılan, əldə edilən, daxil edilən (ötürülən), toplanılan, mühafizə edilən və saxlanılan sənədlər (məlumatlar) Azərbaycan Respublikasının mülkiyyətidir.

1.4. Fərdi məlumatların Sistemdə toplanılmasının və işlənilməsinin məqsədi bu Əsasnamənin 1.2-ci bəndində qeyd olunan funksiyaların təmin edilməsidir. Fərdi məlumatların Sistemdə işlənilməsi və mühafizəsi “Fərdi məlumatlar haqqında” Azərbaycan Respublikasının Qanununa və Azərbaycan Respublikasının digər normativ hüquqi aktlarına uyğun olaraq həyata keçirilir.

1.5. Sistemin fəaliyyətinin təşkili, idarə olunması və təkmilləşdirilməsi ilə bağlı xərclər dövlət büdcəsi və qanunla qadağan olunmayan digər mənbələr hesabına maliyyələşdirilir.

1.6. Sistemdən istifadə ödənişsizdir.

1.7. Sistemin formalaşdırılmasına, aparılmasına, inteqrasiyasına və arxivləşdirilməsinə dair bu Əsasnamə ilə tənzimlənməyən digər məsələlər Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 12 sentyabr tarixli 263 nömrəli Fərmanı ilə təsdiq edilmiş “Dövlət informasiya ehtiyatları və sistemlərinin formalaşdırılması, aparılması, inteqrasiyası və arxivləşdirilməsi Qaydaları”na (bundan sonra – Qaydalar) uyğun olaraq həll edilir.

1.8. Sistemdə “Dövlət sirri haqqında” Azərbaycan Respublikasının Qanununa əsasən dövlət sirrini əks etdirən normativ hüquqi akt layihələrinin hazırlanmasına, digər dövlət orqanları (qurumları) ilə razılaşdırılmasına və yuxarı orqanlara təqdim olunmasına yol verilmir.

**2. Əsas anlayışlar**

2.1. Bu Əsasnamənin məqsədləri üçün aşağıdakı əsas anlayışlardan istifadə edilir:

**2.1.1. sahib** – normativ hüquqi aktlarla müəyyən edilmiş qaydada Sistem üzərində sahiblik və istifadə hüququnu həyata keçirən, Sistemin aparılmasını təmin edən Azərbaycan Respublikası Prezidentinin Administrasiyası;

**2.1.2. operator** – sahibin normativ hüquqi aktlarla müəyyən edilən həcmdə və şərtlərlə Sistemin fəaliyyətinin həyata keçirilməsi üzrə hüquq və vəzifələrini həvalə etdiyi İnnovasiya və Rəqəmsal İnkişaf Agentliyi vasitəsilə Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi;

**2.1.3. iştirakçı** – Azərbaycan Respublikası Prezidentinin Administrasiyası, Azərbaycan Respublikasının Nazirlər Kabineti, mərkəzi icra hakimiyyəti orqanları, digər dövlət orqanları, habelə nizamnamələrinə əsasən normativ hüquqi akt layihələrinin hazırlanmasında iştirak etmək səlahiyyəti olan Azərbaycan Respublikasının Prezidenti və ya Azərbaycan Respublikasının Nazirlər Kabineti tərəfindən yaradılan publik hüquqi şəxslər, dövlət mülkiyyətində olan və paylarının (səhmlərinin) nəzarət zərfi dövlətə məxsus olan hüquqi şəxslər (bundan sonra – dövlət orqanları (qurumları);

**2.1.4. elektron kabinet** – Sistemin iştirakçısını Vahid Giriş Sistemi vasitəsilə identikləşdirməklə, tapşırıqların daxil edilməsini, onların icrası üzrə bu Əsasnamənin 1.2.1-ci yarımbəndində qeyd edilən fəaliyyətin həyata keçirilməsini, həmçinin sahib və operatorun Sistem iştirakçıları ilə qarşılıqlı əlaqəsini, sənəd (məlumat) mübadiləsi aparılmasını təmin edən fərdi elektron səhifə.

2.2. Bu Əsasnamədə istifadə olunan digər anlayışlar “İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi haqqında” Azərbaycan Respublikasının Qanununda, Qaydalarda, eləcə də Azərbaycan Respublikasının digər normativ hüquqi aktlarında müəyyən edilmiş mənaları ifadə edir.

**3. Sistemin fəaliyyət prinsipləri**

3.1. Sistem Qaydaların 2.1-ci bəndində qeyd edilən prinsiplər nəzərə alınmaqla formalaşdırılır və aşağıdakı prinsiplər əsasında fəaliyyət göstərir:

3.1.1. istifadə rahatlığı – Sistemdən istifadənin və məlumat mübadiləsinin əlavə əməliyyatlar aparılmadan təmin edilməsi;

3.1.2. fasiləsizlik – Sistemdə aparılan təşkilati, inzibati, texniki və digər dəyişikliklərdən asılı olmayaraq, fəaliyyətin fasiləsiz həyata keçirilməsi;

3.1.3. operativlik – Sistemdə məlumatların yaradılması, toplanılması, işlənilməsi, saxlanılması və axtarışı proseslərinin sürətli şəkildə həyata keçirilməsi;

3.1.4. şəffaflıq – Sistemin fəaliyyətində aşkarlığın və hesabatlılığın təmin edilməsi, həyata keçirilən prosedurların və onların nəticələrinin izlənilməsi imkanının mövcudluğu.

**4. Sistemin texniki-texnoloji infrastrukturu**

4.1. Sistemin texniki-texnoloji infrastrukturu aşağıdakı əsas komponentlərdən ibarətdir:

4.1.1. proqram-texniki vasitələr və proqram təminatı;

4.1.2. telekommunikasiya qurğuları və kanalları;

4.1.3. informasiya ehtiyatı və onu idarəetmə paneli;

4.1.4. ehtiyat nüsxələr;

4.1.5. test mühiti.

4.2. Proqram-texniki vasitələr və proqram təminatı Sistemin funksiyalarının həyata keçirilməsini, fəaliyyətinin etibarlılığını və təhlükəsizliyini, habelə həmin Sistemdən istifadəni və məlumat mübadiləsini təmin edir.

4.3. Sistem onun fəaliyyətinin etibarlılığını və təhlükəsizliyini, operativ və keyfiyyətli xidmət göstərilməsini, habelə məlumat mübadiləsini təmin edən dayanıqlı, mühafizəli, yüksək ötürücülü fiber-optik əsas və digər ehtiyat telekommunikasiya qurğularına və kanallarına malikdir. Sistemdə, qurulma topologiyasına uyğun olaraq, telekommunikasiya qurğuları və kanalları iki səviyyədə təşkil edilir:

4.3.1. Sistemin fəaliyyətinin təşkili üçün müvafiq qurumdaxili telekommunikasiya qurğuları və kanalları sahibin aidiyyəti strukturları tərəfindən;

4.3.2. Sistemdə toplanılan məlumatların, eləcə də həmin məlumatların ehtiyat nüsxələrinin saxlanılması məqsədilə “Hökumət buludu”na ötürülməsinin, eləcə də məlumat mübadiləsinin təşkili üçün mərkəzləşdirilmiş mühafizə olunan telekommunikasiya qurğuları və kanalları Azərbaycan Respublikasının Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidməti tərəfindən.

4.4. Sistemdə formalaşdırılan, Sistemə daxil olunan və mübadilə edilən məlumatlar Sistemin informasiya ehtiyatında saxlanılır.

4.5. İdarəetmə paneli Sistemin informasiya ehtiyatının formalaşdırılmasını və idarə edilməsini, o cümlədən həmin informasiya ehtiyatından istifadəni təmin edir.

4.6. Sistemin fəaliyyətinin dayanıqlılığının və təhlükəsizliyinin təmin edilməsi məqsədilə Sistemdə toplanılan məlumatlar, o cümlədən onların ehtiyat nüsxələri “Hökumət buludu”nda saxlanılır.

4.7. Sistemdə aparılan dəyişikliklərin yoxlanılması test mühitində həyata keçirilir.

4.8. Sistemə qeyri-qanuni daxilolmalar və ya müdaxilələr həyata keçirildikdə, operator qeyd edilən əməllərə yol verən istifadəçilərin Sistemə girişini sahibə məlumat verməklə məhdudlaşdırır.

4.9. Elektron kabinetə daxil olan məlumatlar barədə eyni zamanda dövlət orqanının (qurumunun) rəsmi elektron poçt ünvanına və müvafiq kompüterdə olan istifadəçi ekranına Sistem vasitəsilə bildiriş göndərilir.

**5. Sistemə daxil edilən və ötürülən sənədlər (məlumatlar)**

5.1. Sistemə bu Əsasnamənin 9.3–9.6-cı bəndlərində qeyd edilən sənədlər (məlumatlar) daxil edilir. Sistemə EHİS üzərindən ötürülən, eləcə də həmin Sistem vasitəsilə sorğu edilən məlumatlar aşağıdakılardır:

5.1.1. dövlət orqanının (qurumunun) adı, rəhbərinin vəzifəsi, soyadı, adı və atasının adı;

5.1.2. dövlət orqanının (qurumunun) vergi ödəyicisinin eyniləşdirmə nömrəsi (olduğu halda);

5.1.3. dövlət orqanının (qurumunun) telefon nömrələri;

5.1.4. dövlət orqanının (qurumunun) vəzifəli şəxsinin soyadı, adı və atasının adı;

5.1.5. dövlət orqanının (qurumunun) vəzifəli şəxsinin fərdi identifikasiya nömrəsi (FİN).

5.2. Sistemlə digər dövlət informasiya sistemləri və ehtiyatları arasında məlumat mübadiləsini real vaxt rejimində həyata keçirmək mümkün olmadıqda, sənədlər (məlumatlar) həmin Sistemə aidiyyəti dövlət orqanları (qurumları) tərəfindən onların elektron kabinetləri vasitəsilə daxil olunaraq, təkmil sertifikatlı gücləndirilmiş elektron imzaları ilə təsdiq edilir.

5.3. Sistemdə tərtib olunan elektron sənədlər “Elektron imza və elektron sənəd haqqında” Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş tələblərə uyğun tərtib olunur və rəsmiləşdirilir.

**6. Sahibin vəzifə və hüquqları**

6.1. Sahibin aşağıdakı vəzifələri vardır:

6.1.1. Sistemin idarə olunmasını təşkil etmək, təkmilləşdirilməsi və funksional imkanlarının artırılması istiqamətində tədbirlər görmək;

6.1.2. Sistemə çıxışı olan, habelə Sistemin aparılmasında iştirak edən əməkdaşlarını təkmil sertifikatlı gücləndirilmiş elektron imza ilə təmin etmək;

6.1.3. tələb edilən sənədlər barədə məlumatlar digər dövlət informasiya ehtiyatlarında və sistemlərində olduqda, həmin məlumatların ilkin mənbədən əldə edilməsi üçün operatorla birlikdə tədbirlər görmək.

6.2. Sistemin fəaliyyətini təmin etmək üçün sahibin aşağıdakı hüquqları vardır:

6.2.1. Sistemin formalaşdırılması, aparılması, inteqrasiyası və arxivləşdirilməsi işlərinin layihələrə, texniki reqlamentlərə, beynəlxalq standartlara və normativ hüquqi aktlarla müəyyən edilmiş tələblərə uyğun formada aparılmasına nəzarət etmək;

6.2.2. Sistemin dayanıqlı və fasiləsiz fəaliyyətinin təmin olunmasına nəzarət emək;

6.2.3. Sistemdə dəyişikliklər, təkmilləşdirmələr aparılması üçün operatora tapşırıqlar vermək və onların həyata keçirilməsinə nəzarət etmək.

**7. Operatorun vəzifə və hüquqları**

7.1. Operatorun aşağıdakı vəzifələri vardır:

7.1.1. Sistemin informasiya təhlükəsizliyini Azərbaycan Respublikasının Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidməti və sahiblə birlikdə təmin etmək;

7.1.2. Sistemin monitorinqi və auditi üçün Azərbaycan Respublikasının Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidmətinin yerində baxış keçirməsinə şərait yaratmaq, bu məqsədlə Azərbaycan Respublikasının normativ hüquqi aktları ilə müəyyən edilmiş məlumatları (sənədləri) həmin Xidmətə təqdim etmək;

7.1.3. fərdi məlumatların Sistemdə işlənilməsinin və mühafizəsinin fərdi məlumatlar sahəsində Azərbaycan Respublikasının normativ hüquqi aktlarının tələblərinə uyğunluğunun təmin edilməsi üçün tədbirlər görmək;

7.1.4. yaranan elektron təhlükələr barədə aidiyyəti dövlət orqanlarına (qurumlarına) məlumat vermək və birgə tədbirlər həyata keçirmək;

7.1.5. Sistemə daxil edilmiş və (və ya) ötürülmüş məlumatların aktuallığının, etibarlılığının, təhrifolunmazlığının, əlçatanlığının, tamlığının, konfidensiallığının təmini, habelə həmin məlumatların, informasiya ehtiyatlarının və sistemlərinin təkmilləşdirilməsi ilə bağlı tədbirlər görmək;

7.1.6. Sistemin mühafizəsinin, o cümlədən onun ehtiyat nüsxələrinin “Hökumət buludu”nda saxlanılmasının və aparılmasının təmin edilməsi üçün tədbirlər görmək;

7.1.7. Sistemin təhlükəsizliyi pozulduqda, fəaliyyətində nasazlıq yarandıqda, əsas avadanlıqlarında hər hansı qəza (xəta) baş verdiyi halda nasazlığın və qəzanın (xətanın) qeydiyyatını aparmaq, dərhal aradan qaldırılması üçün tədbirlər görmək, bu mümkün olmadıqda, həmin Sistemin “Hökumət buludu”nun ehtiyat Data Mərkəzində fəaliyyətini davam etdirməsi üçün zəruri tədbirlər görmək;

7.1.8. Sistemin fəaliyyətinin idarə olunması, onun funksional imkanlarının artırılması və təkmilləşdirilməsi istiqamətində tədbirlər görmək;

7.1.9. Sistemdən sərbəst və maneəsiz istifadəni, onun dayanıqlı və fasiləsiz fəaliyyətini təmin etmək məqsədilə Sistemin proqram kompleksinə nəzarəti həyata keçirmək və mütəmadi texniki baxışlar təşkil etmək;

7.1.10. Sistemi EHİS-ə inteqrasiya etmək, digər dövlət informasiya ehtiyatları və sistemləri ilə məlumat mübadiləsini EHİS vasitəsilə həyata keçirmək;

7.1.11. Sistemə çıxışı olan, habelə onun aparılmasında iştirak edən əməkdaşlarını təkmil sertifikatlı gücləndirilmiş elektron imza ilə təmin etmək;

7.1.12. Sistemin komponentlərinin və proqram təminatının təyinatı üzrə istismarını, texniki xidmətini, təmirini və yenilənməsini təmin etmək, bunların təkmilləşdirilməsinə dair profilaktik iş aparmaq;

7.1.13. aidiyyəti dövlət orqanlarının (qurumlarının) və sahibin təklifləri, habelə öz təşəbbüsü əsasında Sistemdə dəyişikliklər edilməsi və təkmilləşdirmələr aparılması üçün tədbirlər görmək;

7.1.14. sahibin müraciəti, habelə öz təşəbbüsü əsasında, normativ hüquqi aktlarda edilən dəyişikliklərə əsasən proqram təminatında uyğunlaşdırmalar aparılmasını, eləcə də yeni proqram modullarının yazılmasını və sınaqlar keçirilməsini təmin etmək;

7.1.15. Sistemin formalaşdırılması, aparılması, inteqrasiyası və ya arxivləşdirilməsi ilə bağlı rəsmi sənədləri və texniki məlumatları sahibə təqdim etmək;

7.1.16. bu Əsasnamənin 7.1.7-ci yarımbəndində qeyd edilən hallar barədə sahibi məlumatlandırmaq;

7.1.17. Sistemin formalaşdırılması, aparılması, inteqrasiyası və arxivləşdirilməsi işlərini layihələrə, texniki reqlamentlərə, beynəlxalq standartlara və Qaydalarla müəyyən edilən tələblərə uyğun formada aparmaq;

7.1.18. aidiyyəti dövlət orqanlarının (qurumlarının) Sistemin fəaliyyəti ilə bağlı sorğularını vaxtında və hərtərəfli cavablandırmaq, habelə qeyd edilən sorğular əsasında zəruri məlumatları (sənədləri) onlara təqdim etmək.

7.2. Operatorun aşağıdakı hüquqları vardır:

7.2.1. Sistemin fəaliyyətinin təmin olunması ilə bağlı zəruri məlumatları (sənədləri) əldə etmək üçün aidiyyəti dövlət orqanlarına (qurumlarına) sorğular vermək və həmin dövlət orqanlarından (qurumlarından) belə məlumatları (sənədləri) almaq;

7.2.2. Sistemin formalaşdırılması, istifadəsi və inkişaf etdirilməsi ilə bağlı beynəlxalq təcrübəni və standartları öyrənmək, bu sahədə müvafiq ölkədaxili və beynəlxalq qurumlarla əməkdaşlıq etmək;

7.2.3. normativ hüquqi aktlarla müəyyən edilmiş hüquqlarının həyata keçirilməsi, vəzifələrinin və ya funksiyalarının icrası zamanı əldə etdiyi zəruri məlumatları (sənədləri) Sistemə daxil etmək;

7.2.4. Sistemin təkmilləşdirilməsi istiqamətində rəy və təkliflər vermək;

7.2.5. Sistemdən sərbəst və maneəsiz istifadə, eləcə də onun funksiyaları ilə bağlı maarifləndirmə və məlumatlandırma işi aparmaq;

7.2.6. Sistemlə məlumat mübadiləsində iştirak edəcək digər dövlət informasiya ehtiyatları və sistemləri müəyyən edilmiş texniki və funksional tələblərə cavab vermədiyi hallarda onlarda zəruri dəyişiklik və təkmilləşdirmə aparılması məqsədilə məsələ qaldırmaq;

7.2.7. Sistemin parametrlərində dəyişiklik etmək və bütün mümkün parametrlər üzrə hesabatlar əldə etmək;

7.2.8. sahiblə razılaşdırmaqla iştirakçıların Sistemə giriş imkanını ləğv etmək və ya məhdudlaşdırmaq.

**8. İştirakçıların vəzifə və hüquqları**

8.1. İştirakçıların aşağıdakı vəzifələri vardır:

8.1.1. Sistemə çıxışı olan, habelə onun aparılmasında iştirak edən əməkdaşlarını təkmil sertifikatlı gücləndirilmiş elektron imza ilə təmin etmək;

8.1.2. Sistemə daxil olmağa imkan verən elektron imza vasitələrinin konfidensiallığını (məxfiliyini) təmin etmək;

8.1.3. aktual, tam və etibarlı sənədləri (məlumatları) vaxtında və dolğun şəkildə sahibi və ya operatoru olduğu dövlət informasiya ehtiyatlarına və sistemlərinə, eləcə də Sistemə daxil etmək (ötürmək), bu məlumatların təhlükəsizliyinin təmin edilməsi üçün zəruri tədbirlər görmək;

8.1.4. məlumatların mühafizəsini təmin edən avadanlığa və proqram vasitələrinə müdaxilə etməmək;

8.1.5. Sistemdən, habelə həmin Sistemdə olan sənədlərdən (məlumatlardan) yalnız xidməti məqsədlər üçün istifadə etmək;

8.1.6. Sistemdə saxlanılan sənədlərdə (məlumatlarda) aşkar edilmiş səhvlərin aradan qaldırılması məqsədilə dərhal sahibə və operatora məlumat vermək;

8.1.7. sahibin və operatorun sorğularını vaxtında və tam cavablandırmaq, habelə qeyd olunan sorğular əsasında zəruri məlumatları (sənədləri) ona təqdim etmək;

8.1.8. sahibin və operatorun Sistemə daxil etdikləri və iştirakçının bilavasitə fəaliyyəti ilə bağlı olan yeni məlumatları izləmək;

8.1.9. Sistemin fəaliyyətinə zərər gətirəcək, habelə onun fəaliyyətinin ləngiməsinə və ya dayanmasına səbəb ola biləcək hərəkətlərə yol verməmək;

8.1.10. sahibi və ya operatoru olduğu dövlət informasiya ehtiyatlarının və sistemlərinin informasiya təhlükəsizliyini aidiyyəti dövlət orqanları (qurumları) ilə birlikdə təmin etmək;

8.1.11. sahibi və ya operatoru olduğu dövlət informasiya ehtiyatlarının və sistemlərinin dayanıqlı və fasiləsiz fəaliyyətini təmin etmək;

8.1.12. məlumat mübadiləsi zamanı aşkar olunmuş çatışmazlıqların və yaranan nasazlıqların aradan qaldırılması ilə bağlı tədbirlər görmək, bu barədə sahibə və operatora, o cümlədən aidiyyəti dövlət orqanlarına (qurumlarına) məlumat vermək;

8.1.13. öz təşəbbüsləri, habelə sahibin və aidiyyəti dövlət orqanlarının (qurumlarının) əsaslandırılmış təklifləri əsasında sahibi və ya operatoru olduğu dövlət informasiya ehtiyatlarında və sistemlərində zəruri dəyişiklik və təkmilləşdirmələr aparmaq.

8.2. İştirakçıların aşağıdakı hüquqları vardır:

8.2.1. Sistemin fəaliyyəti ilə bağlı zəruri məlumatları (sənədləri) əldə etmək üçün operatora sorğu vermək və ya ondan belə məlumatları (sənədləri) almaq;

8.2.2. Sistemin təkmilləşdirilməsi istiqamətində sahibə və operatora təkliflər vermək.

**9. Sistemdən istifadə qaydası**

9.1. Dövlət orqanlarının (qurumlarının) Sistemdən istifadəsi onların elektron kabinetləri vasitəsilə təmin edilir. Bunun üçün hər bir dövlət orqanının (qurumunun) möhür hüquqlu və təkmil sertifikatlı gücləndirilmiş elektron imzası olan rəhbər vəzifəli şəxsi tərəfindən məsul struktur bölməsinin əməkdaşı Sistemdə qeydiyyatdan keçirilir və Vahid Giriş Sistemi vasitəsilə identikləşdirildikdən sonra avtomatik qaydada yaradılan elektron kabinetinə daxil olaraq Sistemdən istifadə edir.

9.2. Sistemdə normativ hüquqi akt layihələrinin hazırlanması, digər dövlət orqanları (qurumları) ilə razılaşdırılması və yuxarı orqanlara təqdim olunması ilə bağlı proseslər icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının layihələrinin hazırlanması, razılaşdırılması, qəbul edilməsi və dərc edilməsi qaydası haqqında əsasnaməyə uyğun olaraq təşkil edilir.

9.3. Normativ hüquqi akt layihələrinin hazırlanması ilə bağlı Azərbaycan Respublikası Prezidentinin aktlarında nəzərdə tutulan tapşırıqlar Sistemə “Dövlət Nəzarəti İnformasiya Sistemi” ilə inteqrasiya olunmaqla daxil edilir.

9.4. Tapşırığın icraçısı, o cümlədən əsas icraçısı Azərbaycan Respublikasının Nazirlər Kabineti müəyyən edildikdə, habelə Azərbaycan Respublikasının Konstitusiya qanunu və ya qanunu daxil olduqda, bununla bağlı Azərbaycan Respublikasının Nazirlər Kabineti tərəfindən qəbul edilən sərəncamda nəzərdə tutulan tapşırıqlar Sistemə daxil edilir. Bu zaman sərəncamın adı, növü, nömrəsi, tapşırığı nəzərdə tutan struktur elementi, tapşırığın məzmunu, icra müddəti, əsas və digər icraçıları qeyd edilir, icrasının təmin edilməsi məqsədilə qəbul edildiyi Azərbaycan Respublikasının Konstitusiya qanunu, qanunu və ya Azərbaycan Respublikası Prezidentinin aktı ilə əlaqələndirilir, olduğu təqdirdə qeydlər əlavə edilir, habelə sərəncamın surəti yüklənilir.

9.5. Azərbaycan Respublikasının Nazirlər Kabinetində keçirilən iclasın nəticələrinə əsasən Azərbaycan Respublikası qanunlarının, Azərbaycan Respublikası Prezidenti və Nazirlər Kabinetinin aktları layihələrinin təkmilləşdirilməsi zərurəti yarandıqda, həmin layihələrin hazırlanması barədə tapşırıqlar və keçirilmiş iclasın protokolu da Sistemə daxil edilir.

9.6. Azərbaycan Respublikası Prezidentinin Administrasiyasından Azərbaycan Respublikasının Nazirlər Kabinetinə normativ hüquqi akt layihələrinin hazırlanması və ya yenidən işlənilməsi ilə əlaqədar göndərilən təklif, həmçinin baxılması (münasibət bildirilməsi) üçün göndərilən normativ hüquqi akt layihəsi ilə bağlı, habelə Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı əsasında normativ hüquqi akt layihələrinin hazırlanması barədə Azərbaycan Respublikasının Nazirlər Kabineti tərəfindən tapşırıq verilməsi də Sistem vasitəsilə təmin edilir.

9.7. Azərbaycan Respublikasının Nazirlər Kabineti və digər dövlət orqanları (qurumları) tərəfindən hazırlanmış normativ hüquqi aktların layihələri (əldə olunması qanunla məhdudlaşdırılan informasiyaları əks etdirən layihələr istisna olmaqla) razılaşdırılmağa göndərildiyi andan EHİS-də, lisenziya və icazə verən orqanların hazırladığı sahibkarlıq sahəsinə aid normativ hüquqi aktların layihələri həmçinin “Lisenziyalar və icazələr” portalında yerləşdirilir. Bu zaman Sistemdə elektron kabinet vasitəsilə EHİS-ə və “Lisenziyalar və icazələr” portalına keçid edilərək, layihə üzrə tələb edilən məlumatlar həmin informasiya sisteminə (portala) daxil olunur.

9.8. Dövlət orqanlarının (qurumlarının) təşəbbüsü əsasında hazırlanan normativ hüquqi akt layihələri də, icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının layihələrinin hazırlanması, razılaşdırılması, qəbul edilməsi və dərc edilməsi qaydası haqqında əsasnamənin tələbləri nəzərə alınmaqla, Sistem vasitəsilə hazırlanır, razılaşdırılır və yuxarı orqanlara təqdim edilir.

9.9. Normativ hüquqi akt layihəsi dövlət orqanlarının (qurumlarının) təşəbbüsü əsasında hazırlandıqda, təşəbbüs göstərən dövlət orqanı (qurumu) razılaşdırma müddətini və razılaşdırılacaq aidiyyəti dövlət orqanlarını (qurumlarını) seçməklə, habelə zəruri hesab etdiyi sənədləri əlavə etməklə layihəni Sistem vasitəsilə münasibət bildirilməsi üçün göndərir. Həmin normativ hüquqi akt layihələrinin razılaşdırılması, habelə EHİS-də və “Lisenziyalar və icazələr” portalında yerləşdirilməsi bu Əsasnamənin 9.7-ci bəndi ilə müəyyən edilmiş qaydada həyata keçirilir.

9.10. Mərkəzi icra hakimiyyəti orqanları özlərinin qəbul etməli olduğu normativ hüquqi aktların layihələrinin digər dövlət orqanları (qurumları) ilə razılaşdırılmasını Sistem vasitəsilə həyata keçirirlər. Bu zaman mərkəzi icra hakimiyyəti orqanları razılaşdırılma müddətini və razılaşdırılacaq aidiyyəti dövlət orqanlarını (qurumlarını) seçməklə, habelə zəruri hesab etdikləri sənədləri əlavə etməklə layihələri Sistem vasitəsilə münasibət bildirilməsi üçün aidiyyəti dövlət orqanlarına (qurumlarına) göndərirlər. Həmin normativ hüquqi akt layihələrinin razılaşdırılması, EHİS-də və “Lisenziyalar və icazələr” portalında yerləşdirilməsi bu Əsasnamənin 9.7-ci bəndi ilə müəyyən edilmiş qaydada həyata keçirilir.

9.11. Mərkəzi icra hakimiyyəti orqanlarının bu Əsasnamənin 9.10-cu bəndinə uyğun olaraq razılaşdırıldıqdan sonra qəbul olunan normativ hüquqi aktları Azərbaycan Respublikası Prezidentinin 2011-ci il 1 iyul tarixli 463 nömrəli Fərmanı ilə təsdiq edilmiş “Hüquqi aktların Azərbaycan Respublikasının Hüquqi Aktların Dövlət Reyestrinə daxil edilməsi qaydaları haqqında Əsasnamə”də nəzərdə tutulan sənədlərlə birlikdə Hüquqi Aktların Dövlət Reyestrinə daxil olunması üçün Azərbaycan Respublikasının Ədliyyə Nazirliyinə göndərilir.

9.12. Normativ hüquqi aktların layihələrini əsas icraçı olan dövlət orqanı (qurumu), vizalanma müddətini və viza verəcək aidiyyəti dövlət orqanlarını (qurumlarını) qeyd etməklə, vizalanması üçün Sistem vasitəsilə digər icraçı dövlət orqanlarına (qurumlarına) göndərir.

9.13. Normativ hüquqi aktların layihələrinə Sistemdə təkmil sertifikatlı gücləndirilmiş elektron imza vasitəsilə viza verilir.

9.14. Razılaşdırılma və ya vizalanma müddəti başa çatdıqda, layihəyə irad və təkliflərini bildirməyən və ya viza verməyən dövlət orqanının (qurumunun) elektron kabinetinə layihənin həmin dövlət orqanı (qurumu) ilə razılaşdırılmış və ya vizalanmış hesab edildiyi barədə Sistem tərəfindən dərhal məlumat göndərilir və konkret tapşırıq üzrə layihəyə irad, təklif və ya viza verilməsi imkanı məhdudlaşdırılır, habelə layihənin avtomatik olaraq razılaşdırıldığı dövlət orqanları (qurumları) barədə əsas icraçı dövlət orqanının (qurumunun) elektron kabinetinə məlumat göndərilir.

9.15. Normativ hüquqi akt layihələri ilə bağlı işlər yekunlaşdıqdan sonra layihələr Sistem vasitəsilə aidiyyəti üzrə Azərbaycan Respublikası Prezidentinin Administrasiyasına və ya Azərbaycan Respublikasının Nazirlər Kabinetinə göndərilir.

# Azərbaycan XİN ölkəmizə qarşı qərəzli ittihamları rədd edir

**Azərbaycan Xarici İşlər Nazirliyi ATƏT-in fəaliyyətdə olan sədri, Şimali Makedoniyanın xarici işlər naziri Buyar Osmaninin Azərbaycana qarşı qərəzli ittihamlarla dolu bəyanatı şiddətlə qınayıb və rədd edbr.**



XİN-in bununla bağlı dünənki şərhində bildirilib ki, həmin bəyanat ATƏT sədrliyinin mandatına açıq şəkildə ziddir. Azərbaycanın ATƏT-in mövcud öhdəliklərinə uyğun olaraq ardıcıl çağırışlar etməsinə baxmayaraq, onilliklər ərzində bu təşkilatın ölkəmizin suverenliyinin və ərazi bütövlüyünün bərpasını və yüz minlərlə azərbaycanlı məcburi köçkünün öz evlərinə qayıtmaq hüququnu təmin etmək üçün öz mandatını yerinə yetirməsinə maneə törədilib. Münaqişədən sonrakı bərpa və quruculuq səylərində, o cümlədən minalardan təmizlənmə proseslərində müsbət rol oynamasına dair ATƏT-ə ünvanlanmış çağırışlarımıza da məhəl qoyulmayıb. Təşkilatın fəaliyyətdə olan sədrinin müstəqil beynəlxalq müşahidə missiyasına istinadları anlaşılan deyil.

Açıqlamada Helsinki Yekun Aktında təsbit olunmuş güc tətbiq edilməməsi prinsipi də daxil olmaqla, bütün prinsiplərin birbaşa olaraq Ermənistan tərəfindən pozulduğu, habelə BMT Nizamnaməsi və beynəlxalq hüququn norma və prinsipləri çərçivəsində həm diplomatik, həm də hərbi baxımdan öz ərazilərinin işğalına son qoymağın hər zaman Azərbaycanın legitim hüququ olduğu da bir daha xatırladılır.

Bundan əlavə, milli azlıqlara mənsub şəxslərdən dövlətlərin suverenliyi və ərazi bütövlüyünü pozmaq üçün alət kimi istifadənin qadağan edildiyi də nəzərə çatdırılır: "Bu baxımdan, biz bütün tərəfləri bu öhdəliyə ciddi riayət etməyə və Azərbaycanın daxili işlərinə müdaxilə etmək cəhdlərindən çəkinməyə çağırırıq. Azərbaycan öz Konstitusiyasına və müvafiq beynəlxalq öhdəliklərinə uyğun olaraq, regionda sülh və Qarabağ bölgəsində yaşayan erməni sakinlərin bərabərhüquqlu vətəndaş kimi reinteqrasiyasına nail olmaq əzmində olduğunu bir daha təsdiqləyir".

*

Azərbaycan XİN növbəti açıqlamasında Fransa Prezidenti Emmanuel Makronun oktyabrın 5-də Avropa Siyasi Birliyinin Qranada görüşü çərçivəsində mətbuat konfransı zamanı Azərbaycana qarşı səsləndirdiyi əsassız iddiaları da qətiyyətlə pisləyib və rədd edib.

Bu barədə XİN-in şərhində bildirilib: "Fransa Prezidentinin Qranadada Azərbaycanın və Türkiyənin iştirakdan imtina etməsi məsələsi ilə bağlı iddiaları riyakarlıq nümunəsidir. Tədbir iştirakçılarının hər birinə yaxşı məlumdur ki, məhz Fransa tərəfi Türkiyənin görüşə qatılmasına qarşı çıxıb. Fransa Prezidentinin bu məsələdə yalan məlumatlar yayması dövlət başçısına yaraşmayan yanaşmadır".

Açıqlamada daha sonra qeyd edilir ki, tarixdə özünün soyqırımı siyasəti ilə yadda qalan, Avropa İttifaqına üzv ölkələr arasında Milli Azlıqların Müdafiəsi haqqında Çərçivə Konvensiyasına qoşulmayan yeganə ölkə olan Fransanın çoxsaylı etnik xalqların sülh və əmin-amanlıq şəraitində yaşadığı, multikultural və multietnik dəyərləri ilə nümunə təşkil edən Azərbaycana azlıqların hüquqları barədə dərs keçməyə cəhd etməsi qəbuledilməzdir: "Azərbaycanlıların yaşadığı kütləvi qırğınlara, onlara qarşı zor tətbiq edilərək düşdükləri məcburi köçkün və qaçqın həyatına, eləcə də BMT Təhlükəsizlik Şurasının dörd qətnaməsinin gözardı edilməsinə, şəhər və kəndlərin yerlə-yeksan edilməsinə, Ermənistanın öhdəliklərinə zidd olaraq Azərbaycandan erməni silahlı qüvvələrini çıxarmamasına, davam etdikləri hərbi-siyasi təxribatlara heç bir əhəmiyyət verməyən Fransanın bitərəf və neytral vasitəçi olduğunu iddia etməsi bu ölkənin niyyətindən xəbər verir".

XİN-in şərhində Azərbaycana təzyiq edilməsinə çağıran Fransaya xatırladılır ki, Azərbaycanla təzyiq dilində danışmaq mənasız və qəbuledilməzdir: "Belə məsuliyyətsiz bəyanatlar vermək əvəzinə, Fransanın bölgəmizdə məkrli siyasətinə son qoyması daha faydalı olardı. Azərbaycan erməni sakinlərin reinteqrasiyası üçün müvafiq tədbirlər həyata keçirir və bölgəmizdə sülh quruculuğunda ən maraqlı tərəfdir".

**XQ**

# Bişkekdə Ulu öndər barədə yeni kitab

**Bişkekdəki Türkdilli Dövlətlərin Siyasətinə Dəstək Fondunun təşəbbüsü ilə ulu öndər Heydər Əliyevin 100 illiyi ilə əlaqədar türk şair və tərcüməçi Yusif Aslanın "100 yaşın mübarek Haydar Aliyev" şeirlər kitabı türk dilində nəşr edilib.**




Bişkekdəki "Uluu Toolor" nəşriyyatında nəfis tərtibatla çap olunan topluda ümummilli lider Heydər Əliyevin Vətənə, anaya, ataya, ağsaqqallara, qadınlara, uşaqlara münasibətini əks etdirən poeziya nümunələri verilib.

Bu kitab fondun Bişkekdə ulu öndər Heydər Əliyevin 100 illiyi ilə əlaqədar nəşr etdirdiyi səkkizinci topludur.

Xatırladırıq ki, bu fondun Azərbaycan həqiqətləri ilə bağlı Qırğızıstanda çap etdirdiyi 157-ci topludur.

Onu da deyək ki, fondun çap etdirdiyi kitablar Mərkəzi Asiya ölkələrində pulsuz yayılır.

**Qulu KƏNGƏRLİ,**
**"Xalq qəzeti"nin xüsusi müxbiri**
**Bişkek**

# Azərbaycan və Serbiya bir-birini daim dəstəkləyir

**"Azərbaycan ilə Serbiya arasında əlaqələr ən yüksək səviyyədədir. Bu, dövlətlərimizin başçıları arasındakı çox gözəl şəxsi münasibətlərdən, əməkdaşlıq, etibar və qarşılıqlı hörmətdən qaynaqlanır".**



Serbiya Respublikasının Milli Assambleyasının sədri Vladimir Orliç Bakıda jurnalistlərə bu müsahibəsinin davamında söyləyib ki, bu dostluq və strateji tərəfdaşlığa əsaslanaraq, biz əsl dostlar kimi bir-birimizi daim dəstəkləyirik: "Əhəmiyyətli hesab etdiyimiz məsələlərdə bir-birimizin yanındayıq. Serbiya Azərbaycanın suverenliyini və ərazi bütövlüyünü qəti şəkildə dəstəkləyir".

Səfər çərçivəsində Prezident İlham Əliyev ilə görüşməkdən böyük şərəf və məmnunluq hissi duyduğunu vurğulayan qonaq bildirib ki, indiyədək çox gözəl əməkdaşlığımız mövcud olub: "İki ölkə arasında icra olunan layihələrin uğurla davam etdiriləcəyinə ümidvarıq. Hər iki ölkə BMT-nin Nizamnaməsində təsbit olunan beynəlxalq ictimai hüququ dəstəkləyir".

**XQ**

# Ermənistan mina xəritələrini verməyə məcbur edilməlidir




**Ermənistanın yerləşdirdiyi minalar azərbaycanlıların həyatına son qoymaqda davam edir.**

Bu barədə Xarici İşlər Nazirliyi "X" hesabında paylaşım edib.

Bildirilib ki, bu gün Tərtərdə mina partlaması nəticəsində daha bir azərbaycanlı mülki şəxs həlak olub.

"44 günlük müharibənin bitməsindən sonra mina qurbanlarının sayı 330-a çatıb. Beynəlxalq ictimaiyyət Ermənistanı mina xəritələrini verməyə məcbur etməlidir", – deyə qeyd olunub

**XQ**

# Ədliyyə nazirinin Ankara görüşləri



**Ədliyyə naziri Fikrət Məmmədov "Türk Dünyası Notariuslar Assosiasiyasının yaradılması haqqında" Anlaşma Memorandumunun imzalanması mərasimində iştirak etmək üçün Ankarada səfərdə olub.**

Səfər çərçivəsində nazir Türkiyənin ədliyyə naziri Yılmaz Tunç ilə görüşüb. Görüşdə Azərbaycan–Türkiyə qardaşlıq və dostluq münasibətlərinin ulu öndər Heydər Əliyevin "Bir millət, iki dövlət" prinsipinə uyğun uğurla inkişaf etdiyi bildirilib, Prezident İlham Əliyev və Prezident Rəcəb Tayyib Ərdoğan tərəfindən əlaqələrimizin müttəfiqlik səviyyəsinə yüksəldiyi vurğulanıb.

Azərbaycanın ədliyyə naziri Ankarada, həmçinin qazaxıstanlı həmkarı Azamat Eskarayev ilə görüşüb. Ortaq tarixi köklərə malik xalqlarımız arasında ikitərəfli münasibətlərin möhkəmləndirilməsində dövlət başçılarının xüsusi rolu vurğulanıb, hüquqi sahədə əlaqələrə toxunulub. Bildirilib ki, Ulu öndərin Qazaxıstana tarixi səfəri zamanı Ədliyyə nazirlikləri arasında əməkdaşlığa dair Saziş imzalanıb, nümayəndə heyətləri müntəzəm səfərlər edərək faydalı təcrübə mübadiləsi aparırlar.

Səfər zamanı, həmçinin Özbəkistan və Qırğız respublikalarının ədliyyə orqanlarının rəhbərləri ilə danışıqlar aparılaraq əməkdaşlığın perspektivləri müzakirə olunub. Eyni zamanda, Türk Dövlətləri Təşkilatının Baş katibi ilə işgüzar görüş keçirilib, növbəti ay quruma sədrliyin Özbəkistandan Qazaxıstana keçəcəyi qeyd olunaraq təşkilat çərçivəsində gələcək tədbirlər barədə faydalı fikir mübadiləsi aparılıb.

**XQ**

# Masallıda yanğın xəsarəti alanlara tibbi yardım

**Oktyabrın 6-da Masallı şəhərində ticarət mərkəzində baş vermiş yanğınla bağlı TƏBİB-in tabeliyindəki Masallı Rayon Mərkəzi Xəstəxanasının Təcili tibbi yardım şöbəsinə çağırış daxil olub. Dərhal hadisə yerinə 4 təcili yardım briqadası cəlb edilib.**

TƏBİB-dən bildirilib ki, yanğında xəsarət alan 7 nəfər təcili tibbi yardım briqadası tərəfindən Masallı Rayon Mərkəzi Xəstəxanasına təxliyə olunub. dərhal zəruri tibbi yardım göstərilib, 1 nəfər müvafiq tibbi yardımdan sonra (sol saidin kəsilmiş yarası diaqnozu ilə) ambulator müalicə üçün evə buraxılıb.



Xəsarət alan şəxslərdən 6 nəfəri yanğın tüstüsünün təsiri, 1 nəfər isə sol saidin kəsilmiş yarası diaqnozu ilə xəstəxanaya daxil olub. Zərərçəkənlərə Digər 6 nəfərin müşahidədə saxlanılmaqla müalicəsi davam etdirilir.

**XQ**

# Qurumuş ağaclar təhlükə mənbəyidir

**Oktyabrın 6-da Dövlət Ekoloji Ekspertiza Agentliyində qurumuş və ya qəzalı vəziyyətdə olan ağacların götürülməsi ilə bağlı növbəti ictimai dinləmə keçirilib.**

Ekoloqların, icra hakimiyyəti, bələdiyyə, QHT və KİV nümayəndələrinin, həmçinin digər maraqlı tərəflərin iştirakı ilə keçirilən ictimai dinləmədə paytaxtın Yasamal, Nizami, Nərimanov, Qaradağ və Pirallahı rayonları üzrə ümumilikdə 85 ədəd qurumuş və ya qəzalı vəziyyətə düşmüş müxtəlif cinsli ağacın götürülməsi müzakirə edilib.

Agentliyin İdarə Heyətinin sədri Mirsalam Qənbərov qeyd edib ki, icra hakimiyyəti orqanları və bələdiyyələr öz ərazilərində mövcud olan yaşıllıqlara mülkiyyətləri kimi yanaşmalı, vaxtında və düzgün aqrotexniki qulluq tədbirləri görməlidirlər.

Qeyd olunub ki, gecikdirilən hər bir hal xoşagəlməz vəziyyət, hətta insan sağlamlığına ağır xəsarət yetirilməsi ilə nəticələnə bilər.

**XQ**

# QAİ ATƏT sədrinin ədalətsiz mövqeyini pisləyib

**Qərbi Azərbaycan İcması ATƏT-in fəaliyyətdə olan sədri, Şimali Makedoniyanın xarici işlər naziri Buyar Osmaninin 2023-cü il 6 oktyabr tarixli açıqlamasını yersiz hesab edir.**

İcmanın bununla bağlı açıqlamasında deyilir ki, ATƏT özünün kif basmış, tarixin arxivinə getmiş yanaşmasından hələ də tam xilas olmayıb: "B.Osmaninin diqqətinə çatdırırıq ki, Azərbaycan ərazisində "Stepanakert" adlı bir ərazi yoxdur. ATƏT-in fəaliyyətdə olan sədrinin Azərbaycanla "Yerdə beynəlxalq mövcudluq üçün müzakirələr davam etmədidir" tonunda danışması istehza doğurur. "Müstəqil beynəlxalq müşahidə missiyası"ndan dəm vuran sədr hiss olunur ki, bəzi anti-Azərbaycan dairələrin təsirinə düşüb".

Daha sonra bildirilir ki, "Mübahisələrin güc yolu ilə həlli qəbuledilməzdir" deyən ATƏT 30 il ərzində Ermənistanın Azərbaycan ərazilərinin işğalını, etnik təmizləmə siyasətini bir dəfə də pisləməyib: "Ermənilərin qayıdışı, onların hüquq və təhlükəsizliyinin qorunmasının Azərbaycanın məsuliyyəti olmasından danışan B.Osmaniyə sual vermək istərdik ki, bəs, Ermənistan necə, deportasiya etdiyi azərbaycanlıların hüquq və təhlükəsizliyini təmin etməməlidir? ATƏT-in fəaliyyətdə olan sədrini öz açıqlamalarında diqqətli və məsuliyyətli olmağa çağırırıq".

**XQ**

**“AZƏRNƏŞR” – 100**

**Kitablar səssiz müəllimlərdir, öyrədir, aydınladır. Yetişən nəslini kitabla bəsləməyən cəmiyyət ağır xəstəliklərə məhkumdur. Kitab oxumaq insan oğluna sağlam düşünə bilməyi, alicənablığı, səbri, təmkini, nəzakətli davranışı, qarşısındakını dinləmək mədəniyyətini, gözəl xəyallar qurmağı təlqin edir, aqressivliyin, pis vərdişlərin yaranmasına mane olur. Kitab oxuyan insanlar çevrəsini işıqlandırmağa can atırlar. Zəngin tarixə və mədəniyyətə malik xalqımızın mədəni, elmi, siyasi səviyyəsinin yüksəlməsində Azərbaycan kitabının böyük rolu olmuşdur. Bu kitabların yaradılması, poliqrafiya prosesində çap olunub oxucuya çatdırılması isə nəşriyyatların və naşirlərin əməyidir.**



# Şərqin ilk kitab nəşriyyatı

Tarixi mənbələr göstərir ki, Şərqdə bir çox ilklər Azərbaycandan başlayıb. İlk demokratik dövlət, ilk demokratik seçki sistemi, ilk parlament, ilk qız məktəbi, ilk opera, ilk teatr, ilk kino, ilk dövri mətbuat və ilk nəşriyyat və sair. 1920-ci ilə qədər – Bakıda gizli şəkildə fəaliyyət göstərən Nina mətbəəsi, 1906–17-ci illərdə Orucov qardaşlarına məxsus mətbəə-nəşriyyat fəaliyyət göstərirdi. Azərbaycan Xalq Cümhuriyyəti 23 aylıq fəaliyyəti dövründə kitab nəşrinə diqqət göstərsə də, bolşevik işğalı bunu gerçəkləşdirməyə fürsət verməmişdi. Lakin maarifə, irfana, cəmiyyətin savadlanmasına üstünlük verən AXC hökuməti mətbuatı milli mədəniyyətimizin mühüm tərkib hissəsinə çevirə bilmiş, qəzet nəşri vüsət almışdı.

1920-ci ilin aprel işğalından sonra Azərbaycanda yaranan Sovet hakimiyyəti quruluşu ölkənin qarşısında duran quruculuq işlərini həyata keçirmək üçün tədbirlər proqramı hazırlayır. Proqramda göstərilən əsas sahələrdən biri nəşriyyatın yaranması idi. Kitab nəşri tariximizlə bağlı bir sıra araşdırmalarda Şərqdə ilk rəsmi dövlət nəşriyyatı kimi fəaliyyətə başlayan “Azərnəşr”in yaranma tarixi 1920-ci ildən göstərilir. “Kommunist” qəzetinin tozlu səhifələrində Azərbaycanda poliqrafiyanın mərkəzləşmiş təşkilinə və inkişaf etdirilməsinə 1920-ci ilin may ayından başlandığı qeyd edilir. Mənbələr göstərir ki, nəşriyyatın yaradılması Azərbaycan SSR İnqilab Komitəsini sədri Nəriman Nərimanovun diqqətində olan ən vacib məsələlərdən biri idi. O, 1920-ci il iyunun 9-da mətbuat və dövlət nəşriyyatı şöbəsi – “Azərmərkəzimətbuat”ın yaradılması haqqında 8 paraqrafdan ibarət 40 saylı dekret imzalayır. Bu paraqraflarda “Azərmərkəzimətbuat”ın fəaliyyəti istiqamətləndirilir.

Həmin dekretlə Azərbaycanda Dövlət Nəşriyyatının, yəni, “Azərnəşr”in əsası qoyulur, ancaq adı “Azərmərkəzimətbuat” kimi qeyd edilir, ilk müdiri isə Ağababa Yusifzadə olur. Dekretin birinci paraqrafında deyilir: “Bütün komissarlıqların və idarələrin, partiya və sovet təşkilatlarının nəşriyyat fəaliyyətini mərkəzləşdirmək məqsədilə Xalq Maarifi Komissarlığının yanında Azərbaycan Mətbuat Şöbəsi və Dövlət Nəşriyyatı – “Azərmərkəzimətbuat” təsis edilsin və edilir. Leninin “İşçi qadınların qurultayında nitq” adlı kitabı nəşriyyatın ilk məhsulu olur. Nəriman Nərimanov nəşriyyatda, ilk növbədə, elmi-kütləvi ədəbiyyatın, dərsliklərin və dərs vəsaitlərinin nəşrinin həyata keçirilməsi üçün çalışır və buna nail olur.

“Kommunist” qəzetinin 1920-ci il rusca nəşrinin 29 iyun tarixli sayında yazılır: “Mütəxəssis çapçı və mürəttib kadrların çatışmaması kitab nəşrinin təşkili sahəsində ciddi çətinliklər törədir. Bununla əlaqədar Xalq Maarifi Komissarlığı iyunun 10-da başqa işlərdə çalışan azərbaycanlı mürəttiblərin qeydə alınması haqqında xüsusi əmr verdi. Kadr çatışmazlığını aradan qaldırmaq üçün köhnə mütəxəssislərdən istifadə etməklə bərabər, Bakı mətbəələrində şagirdlərdən ibarət yeni mütəxəssislər hazırlanması sahəsində ciddi iş aparılmasına başlanıldı. Bu mühüm tədbirlərdən sonra Azərbaycan Dövlət Nəşriyyatında ilk sovet kitablarının nəşrinə başlandı.

1920-ci il dekabrın 15-nə qədər “Azərmərkəzimətbuat”ın nəşriyyat şöbəsi 45 nəşri 3.089405 nüsxə ilə çapdan buraxmış, yüzə qədər nəşri isə 1000000 nüsxə ilə buraxmaq üçün çapa vermişdir. 1921-ci ildə görülən tədbirlər nəticəsində respublikada kitab nəşrinin ümumi həcmi artmış, 30-dan çox adda müxtəlif kitab çap edilmişdir. Bu dövrdə dilçiliyə və lüğətçiliyə aid maraqlı kitablar nəşr edilmişdir. R.Q. Mirzəzadə: “Təfsirli xalq lüğəti” (1921), S.M.Qənizadə: “Lüğəti-rusu və türkü” (1922), Ə.Seyidzadənin təht müdriyyəti müqəddiməsi ilə “İctimai-iqtisadi istilahati-elmiyyə lüğəti” (1922) kitablar “Azərnəşr”in 1920-ci ildən fəaliyyət göstərdiyini sübut edir.

Göründüyü kimi, müxtəlif tədqiqatların və dövrün qəzetlərinin gün işığına çıxardığı dəlillərdə Azərbaycan Dövlət Nəşriyyatı – “Azərnəşr”in 1920-ci ildə yarandığı öyrənilir. Lakin 1923-cü il sentyabrın 9-da respublika hökuməti Azərbaycan Dövlət Nəşriyyatının yenidən təşkil olunması barədə qərar verir və Zaqafqaziya Xalq Komissarları Soveti nəşriyyatın yenidən təşkili üçün 3 min manat vəsait ayırır. Beləliklə, Azərbaycan Dövlət Nəşriyyatı “Azərnəşr” kimi nəşr tariximizə 1923-cü ildən yazılır. Yeni formada təşkil edilən “Azərnəşr” Xalq Maarifi Komissarlığı şöbəsinin bazası əsasında təkmilləşdirilir. Poliqrafiya sənayesinin təşkili və maddi-texniki bazasının möhkəmləndirilməsi üçün mühüm tədbirlər görülür. Bu qərardan sonra nəşriyyat xeyli müstəqillik də qazanır. Şuranın qəbul etdiyi nizamnamədə göstərilir ki, nəşriyyatın tərkibində mətbəə, cildxana, mərkəzi kitab anbarı, mərkəzi kitab mağazası, mərkəzi kağız anbarı, musiqi not mağazası, musiqi alətləri emalatxanası yaradılır.

Fəaliyyətə başladığı gündən cəmiyyətin savadlanmasına, elmin, təhsilin, mədəniyyətin və ədəbiyyatın inkişafına xidmət edən “Azərnəşr” dövrün tələblərinə uyğun minlərlə müxtəlif profilli kitab və başqa maarifləndirici çap məhsulları nəşr etmişdir. 1924–1925-ci illərdə məktəblər üçün müxtəlif dərsliklər nəşr etmiş, uşaq ədəbiyyatı, bədii ədəbiyyat, təbliğat-təşviqat, hərbi, xüsusilə də ayrı-ayrı elm sahələri üzrə kitabların nəşrinə nail olmuşdur.

“Azərnəşr”in hansı istiqamətlərdə nəşr etdiyi kitabları araşdırarkən, tədris kitabları ilə daha çox rastlaşırıq. Əlbəttə, ictimai-siyasi, fəlsəfə, tarix, maarif, təhsil, pedaqogika sahələri də əhatə olunub, lakin dərslik və tədris kitabları çoxluq təşkil edir. Bütün fəaliyyəti dövründə müstəqil dövlət müəssisəsi kimi fəaliyyət göstərmiş, ölkəmizdə keyfiyyət və kəmiyyət etibarilə ümumi kitab məhsulunun 50 faizə qədərini əhatə etmişdir. “Azərnəşr” ilk dəfə seriyalarla kitabları 1924-cü ildən nəşr etməyə başlayıb. 1924–1934-cü illərdə 5-6 seriyada kitab çap edilirdisə, 1960–1970-ci illərdə 20-yə qədər seriyada müxtəlif elm sahələrinə dair kitablar nəşr etmişdir.

Yeni binanın tikilib istifadəyə verilməsinə qədər “Azərnəşr” Morskoy (indiki Bülbül prospekti) və Krasno-Xristovski (indiki Şeyx Şamil) küçələrinin tinində yerləşmişdir. 1927-ci il noyabrın 8-də Bazarnı (indiki Azərbaycan) və Zeytuyev küçələri arasında, Parapet bağı yaxınlığında (indiki Fəvvarələr bağı) olan yerdə Azərbaycan Dövlət Nəşriyyatının yeni tikiləcək binasının – “Mətbuat sarayı”nın bünövrəsi qoyulur. Bir ara müxtəlif səbəblərdən tikinti dayandırılsa da, 1930-cu ildə yenidən davam etdirilir. “Mətbuat sarayı”nın memarı Moskvanın tanınmış memarı Stansislav Peno şəxsən özü inşaat işlərinə rəhbərlik etmişdir. 1933-cü ildə “Mətbuat sarayı” tam şəkildə istifadəyə verilir. “Mətbuat sarayı”nın alt mərtəbəsində kağız anbarı və çap olunmuş kitablar üçün yerlər müəyyən edilir. Nəşriyyatın binasının sağ tərəfində sütunların altında “Azərnəşr”in nümunəvi kitab mağazası da tikilir. Binanın tikintisinə 1 milyon 200 min manat xərclənir.

Hazırda bu bina Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin reyestrində yerli əhəmiyyətli memarlıq abidəsi statusu altında qeydiyyata alınıb. Lakin 1995-ci ildə “Mətbuat sarayı”nın, yəni, “Azərnəşr”in binasında Bank Standartın baş ofisi açılır və “Azərnəşr” öz evindən çıxarılaraq, başqa ünvanda – Mehdi Hüseyn küçəsi 61, dalan 2, ev 3-də yerləşən kiçik bir binada fəaliyyətini davam etdirir. Bank Standart tərəfindən bina alındıqdan sonra əsaslı təmirə başlanılır və bu proses 2005-ci ildə başa çatır. Öyrəndiyimizə görə, bu gün həmin binada bank Standart fəaliyyət göstərmir, hətta binanın boş, istifadəsiz qaldığı da deyilir.

XX əsr Azərbaycan ədəbiyyatının inkişafında və nəşr olunaraq oxucu kütləsinə çatdırılmasında “Azərnəşr”in böyük rolu olmuşdur. Vaxtilə direktorları və redaktorları olmuş bir çox görkəmli ziyalılarımızın yaradıcılıq və əmək fəaliyyəti yolu “Azərnəşr”dən keçib. Ağababa Yusifzadənin, Xəlil İbrahimin, Cəfər Cabbarlının, Abdulla Şaiqin, Yusif Vəzir Çəmənzəminlinin, Ömər Faiq Nemanzadənin, Salman Mümtazın, Ruhulla Axundovun, Ahmet Triniçin, Vəli Xuluflunun, Əhməd Cavadın, Məmməd Səid Ordubadinin, Hənəfi Zeynallının, Mikayıl Rəfilinin, Əhməd Pepinovun, Qılman Musayevin, Həmid Araslının, Əli Səbrinin, Məmməd Arazın, Hüseyn Arifin, Mustafa Əfəndiyevin, Əliağa Vahidin, Sürəyya Bəylərbəyovanın, Mirvarid Dilbazinin, Əyyub Abbasovun, İlyas Əfəndiyevin, Əjdər Xanbabayevin, Azər Mustafazadənin və daha onlarla irfan işıqlarımızın o binada ayaq izləri, səsləri, nəfəsləri, ruhları yaşayır. Təəssüflə və inancımla bildirirəm ki, bu gün onların ruhları narahatdır. 1937-ci ilə qədər orada direktor və redaktor kimi çalışan tarixi şəxsiyyətlərimizin bir çoxu stalinizm repressiyasına uğrayaraq elə orada həbs edilərək aparılıb, bir daha geri dönməyiblər. Vaxtilə o şəxsiyyətlərimizin sayəsində nəşriyyatda minlərlə maraqlı, məzmunlu, elmi səviyyəsi, bədii və poliqrafik tərtibatı yüksək olan kitablar çap olunmuşdur.

Yaranışının yüzüncü ilində “Azərnəşr”in öz evinə dönməsi kitab mədəniyyətimizə verilmiş ən böyük töhfə olardı. Beş mərtəbədən ibarət “Azərnəşr”in möhtəşəm binasının, heç olmasa, iki mərtəbəsi özünə verilsin və biz bundan sonrakı fəaliyyətimizi doğma evimizdə davam etdirək. Qeyd etdiyimiz kimi, bu addım o binanın divarlarında ruhu dolaşan görkəmli şəxsiyyətlərimizə də sayğı olardı. Eyni zamanda, Şərqdə ilk kitab nəşriyyatı kimi fəaliyyət göstərən məbədin Azərbaycan olduğunun da tarixi sübutu olar.

Yeri gəlmişkən, bu gün “Azərnəşr”in daha müasir çağırışlarla səsləşməyə, ən müasir kitab standartlarına uyğun yeni nəşrlərə də ehtiyacı var. İnanırıq ki, əgər öz evimizə, “Azərnəşr”in əsl binasına dönərsək, fəaliyyətimiz daha da şaxələnər, ölkəmizin kitab mədəniyyətinin zənginləşməsinə və genişlənməsinə daha həvəslə xidmət edərik.

Ulu öndər Heydər Əliyevin birinci hakimiyyəti dövrünü Azərbaycanda kitab nəşrinin zirvəsi hesab etmək olar. Azərbaycan ədəbiyyatının təkamülü hesab edilən həmin dövrdə yaranmış bədii əsərlər, maraqlı romanlar, povestlər, şeirlər, dünya ədəbiyyatı incilərindən tərcümələr “Azərnəşr”in qrifi ilə yüksək tirajlarla çap olunaraq oxuculara çatdırılırdı. Ən mühüm təbliğat vasitəsi kimi “Azərnəşr” dövlətin hərtərəfli qayğısı ilə əhatə olunmuşdu. Çünki Heydər Əliyev kitabın inkişafına və zənginləşməsinə diqqət və qayğı ilə yanaşırdı. “Azərnəşr” də Heydər Əliyev irsinin nəşrinə və geniş oxucu kütləsinə çatdırılmasına çalışmışdır. Onun zəngin irsi, ayrı-ayrı əsərləri 1969–1990-cı illərdə “Azərnəşr” tərəfindən Azərbaycan və rus dillərində çap edilmişdir. Bundan başqa, ictimai-siyasi ədəbiyyatın tipologiyasında xüsusi əhəmiyyət kəsb edən çoxcildli əsərləri də nəşriyyatımız tərəfindən çap olunmuşdur. Ulu öndərin ikinci hakimiyyəti illərində onun siyasi fəaliyyətini əhatə edən “Müstəqilliyimiz əbədidir” çoxcildliyinin 46 cildi “Azərnəşr” tərəfindən nəfis tərtibatda çap olunaraq ictimaiyyətə çatdırılmışdır.

2001-ci ildən Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin tabeliyində fəaliyyət göstərən “Azərnəşr”in kollektivi 2008-ci ildən Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin dövlət başçısı kimi işə başladığı gündən bütün siyasi və dövlətçilik fəaliyyəti – çıxış, nitq, məruzə, görüş və məktublarını “İnkişaf – Məqsədimizdir” adlı çoxcildlikdə ən yüksək poliqrafik keyfiyyətdə nəşr edir. Bu günlərdə 130-cu cild işıq üzü görəcək. Tərtibatçı redaktoru olduğum çoxcildliyi hazırda 131-ci cildi tərtib olunur.

Ermənilərin "Böyük Ermənistan" xülyası uğrunda vacib hesab etdikləri addımlardan biri qondarma soyqırımı iddiaları ilə Türkiyəyə qarşı yönəlmiş planları həyata keçirməkdir. Bunun üçün vaxtilə erməni fəaliyyətlərinin əsasını təşkil edən "Dörd T" təşkilatı yaradılmışdı. Tanıtma, Tanınma, Təzminat və Torpaq. Yəni, qondarma erməni soyqrımı dünyada tanınacaq, Türkiyəyə qəbul etdiriləcək və Türkiyə buna görə ağır təzminat ödəyəcək. Azərbaycan Dövlət Nəşriyyatının kollektivi görkəmli naşir, uzun illərdir “Azərnəşr”in baş redaktoru kimi çalışan Əlövsət Ağalarovun rəhbərliyi ilə mühüm bir seriya üzərində işləməyi öhdəsinə götürdü.

Olduqca əhəmiyyətli mahiyyət daşıyan, gərgin axtarışlar və zəhmət tələb edən işi başa gətirmək üçün Əlövsət Ağalarov aylarla Gürcüstanda və müxtəlif ölkələrin arxivlərində işləmiş, müəlliflərin mövzu ilə əlaqəli əlyazmalarını, kitab və broşürlərini, faktları təsdiq edən sənədlərin rəsmlərini əldə edib Bakıya gətirdi. Erməni soyqırımının olmadığını, əksinə, ermənilərin Türkiyə və Azərbaycanda zaman-zaman törətdikləri amansız qətl və soyqırımlara aid erməni, rus, ingilis müəlliflərinin yazdıqları əsərlərdən ibarət tam 17 adda kitab “erməni soyqırımının 100 illiyi” ərəfəsində nəşr olunaraq dünya oxucularına təqdim olundu.

Dünya oxucularına deyirik ki, kitabların müəllifləri rus, ingilis, alman, gürcü olduğu kimi, 4 dildə – rus, alman, fransız və ingilis dillərində nəşr edilmişdir. Bu kitablar dəfələrlə dünyanın müxtəlif ölkələrində keçirilən Beynəlxalq Kitab Sərgilərinə çıxarılmışdır. 2016-cı ildə isə mənim iştirakımla İstanbul Universitetində kitabların geniş təqdim olunması mərasimi keçirildi. “Azərnəşr”in rəhbərliyi hər cilddən bir neçə nüsxə İstanbul Universitetinin kitabxanasına və Tarix fakültəsinə hədiyyə etdi. 2017-ci ildə keçirilən V Bakı Beynəlxalq Kitab Sərgi-Yarmarkasında “Azərnəşr”in gərgin əməyi sərginin “Ən yaxşı kitab nominasiyası”nın qalibi oldu.

Araşdırmalar göstərir ki, bütün zamanlarda Azərbaycan Dövlət Nəşriyyatı ölkə əhalisinin, xüsusilə, oxucuların, elmi, siyasi, bədii, estetik, informasiya və s. səviyyəsini nəzərə alıb və bu istiqamətdə oxucuların kitab nəşri vasitəsilə sorğu və tələbatlarının ödənilməsinə xüsusi səy göstərib. “Azərnəşr” kitabçılıq və kitabşünaslıq işinin aktual problemlərinə aid, xüsusilə Vətən tarixinə, erməni terrorizminə, onun ifşa edilməsinə, ərazi bütövlüyünün bərpa olunmasına kömək edən kitab nəşrini genişləndirmişdir. “Azərnəşr”ə bundan sonra da yaradıcılıq uğurları, kitab bolluğu və kitab mədəniyyətimizə xidmət etmək üçün daha neçə yüzillər arzulayırıq.

Son olaraq bildirirəm ki, kitab ən sağlam doyurucu qidadır. Bir naşir kimi insanları kitabla daha çox qidalanmağa dəvət edirəm.

***Rəsmiyyə Rzalı-QARAYEVA,***
***“Azərnəşr”in redaktoru***

# Regional media cəmiyyətdən dəstək gözləyir

## *Lənkəranda jurnalistlər bu barədə ətraflı fikir mübadiləsi aparıblar*

**(əvvəli 1-ci səhifədə)**

Tədbirdə çıxış edən Medianın İnkişafı Agentliyinin Media subyektləri və jurnalistlərlə iş şöbəsinin müdiri Natiq Məmmədli bildirdi ki, region mediası, onun ümumi vəziyyəti, mümkün inkişaf perspektivləri daim bu qurumun diqqət mərkəzindədir və cənub bölgəsinin media subyektləri nümayəndələrinin iştirakı ilə keçirilən bu görüş konkret əməli inkişaf proqramlarının tərtibinə yönəlib. O qeyd etdi ki, Prezident İlham Əliyevin media islahatlarının dərinləşdirilməsi ilə bağlı imzaladığı sərəncamdan da göründüyü kimi, dövlətimiz mətbuat sahəsində dövrün çağırışlarına cavab verən təşəbbüslər dəstəkləyir, cəmiyyət və media strukturları arasında etimad mühitinin gücləndirilməsinə mühüm önəm verir.

44 günlük Vətən müharibəsində böyük qələbədən sonra Şuşada keçirilmiş Qlobal Forumda çağdaş mətbuatın qarşısında duran ən vacib vəzifələrə diqqət cəlb olunub. Ötən il Quba rayonunda da analoji müzakirələr keçirilib və gələcəkdə digər bölgələrdə belə işgüzar görüşlər təşkil olunacaq ki, son nəticədə hərtərəfli diaqnostik icmal hazırlanaraq icrası təmin edilsin.

Sonra Audiovizual Şuranın üzvü Bəxtiyar Balakişiyev region mediasında yeniliklərin tətbiqi naminə atılan addımların, ümumilikdə, ölkə mediasının daha da canlandırılmasına müsbət təsir göstərəcəyini bildirdi və həmkarlarını müzakirələrdə fəal iştiraka çağırdı.

Agentliyin nümayəndəsi Pərvanə İbrahimovanın moderatorluğu ilə keçən görüşdə region mediasına dair diaqnostik icmalın hazırlanması məqsədilə mövcud media ekosisteminin xüsusiyyətlərinin və cari ehtiyacların müəyyənləşdirilməsi üçün müxtəlif istiqamətlər üzrə müzakirələr aparıldı. Müzakirələrdə “Cənub xəbərləri” regional xəbər saytının təsisçisi və baş redaktoru Zahir Əmənov, “Lənkəran” qəzetinin baş redaktoru Əlimərdan Əliyev, Salyan rayonunda çıxan “Qələbə” qəzetinin baş redaktoru Rüstəm Məlikov, AZTV-nin bölgə müxbiri Pərvanə Əliyeva, “Asia.az” portalının rəhbəri Cəfər Cəfərov, “Respublika” qəzetinin bölgə müxbiri Əlisəfa Həsənov, “Report.az”ın bölgə nümayəndəsi Asəf Ayazoğlu və başqaları region mediasının fəaliyyət prinsipləri, başlıca hədəfləri və cari problemləri ilə bağlı fikirlərini bölüşdülər. Mətbu orqanların haqqında məlumatların sistemləşdirilməsinə xidmət edən elektron informasiya ehtiyatı – Media Reyestrinin aparılması qaydaları, “Xalq qəzeti”nin səhifələrində eyni mövzunun ətraflı müzakirələrinin aparıldığı təqdir olundu.




Çıxışlarda qeyd edildi ki, medianın təsirli vasitəyə çevrilməsi yerlərdə jurnalistlərin nüfuzunun gücləndirilməsindən, mətbuatda qaldırılan məsələlərə bütün səviyyələrdə çevik reaksiya verilməsindən çox asılıdır. Həmçinin bəzi nazirliklərin və dövlət qurumlarının mətbuat xidmətlərinin yarıtmaz işinin media operativliyinə mənfi təsir etməsi ciddi tənqid olundu. Bildirildi ki, regionlarda müasir mətbəələr yaradılsa, yerli qəzetlərin çapı üçün hər dəfə paytaxt Bakıya üz tutmağa gərək qalmaz.

Bəzi rayonlarda həyatın güzgüsü, uğurların salnaməsi missiyasına xidmət edən qəzetlərin çapının dayandırılması, bəzilərinin isə dövriliyinin yerli icra strukturları rəhbərlərinin əhval-ruhiyyəsindən asılı olması ilə bağlı da həyəcan təbili çalındı. Mətbuatda plagiatlıq hallarının artması, istifadə olunan informasiya ilə bağlı ilkin mənbənin göstərilməsinə çox vaxt həvəssiz yanaşılması ilə bağlı narahatlıqlar da ifadə olundu. Jurnalist fəaliyyətinin müntəzəm stimullaşdırılması, vaxtlı-vaxtında əməkhaqlarının verilməsi, abunələrin təşkili kimi məsələlər də qabardıldı.

Natiq Məmmədli bütün təklif və qeydlərin diqqətə alındığını və sistemləşdirilərək, müvafiq diaqnostik icmala daxil ediləcəyini bildirdi, müzakirənin iştirakçılarına mətin və şərəfli işlərində uğurlar arzuladı.

Daha sonra layihə çərçivəsində Bakı Dövlət Universitetinin Beynəlxalq jurnalistika və informasiya siyasəti kafedrasının dosenti Vəfa İsgəndərovanın təqdimatında 60-a yaxın region gəncinin iştirakı ilə “Media savadlılığı” mövzusunda təlim keçirildi.

***Əli NƏCƏFXANLI***
***XQ***

COVID–19 sürprizləri

# Koronavirus zəifləri haqlayır

## Yoluxmalar təhlükəli həddə deyil, lakin arxayınlaşmaq da olmaz

**Ümumdünya Səhiyyə Təşkilatının (ÜST) eksperti Mariya van Kerxove bildirib ki, dünyada koronavirusun EG.5 variantının yayılması, hələ ki bu xəstəliyin daha ağır gedişatına gətirib çıxarmayıb. O qeyd edib ki, hazırda dünyada SARS – CoV-2-nin dominant variantı yoxdur. Yayılan bütün variantlar xəstəliyin tam spektrinin meydana gəlməsinə səbəb ola bilər, lakin ağırlaşmalar müşahidə edilmir.**





Van Kerxove son ayların narahatlıq doğuran tendensiyasına – bir sıra ölkələrdə aşkar olunan koronavirus hadisələrinin sayının artmasına diqqət çəkib. Deyib ki, xəstəxanalara yerləşdirilmə sayının artması daha çox narahatlıq yaradır. Hazırda koronavirusun omikron ştamı ilə bağlı 3 variantı ÜST-da "maraq doğuran (VOI)" kateqoriyaya aid edilib. Bunlar XB.1.5, XBB.1.16 və EG.5-dir. EG.5-in dünyada artım prosesi davam edir, amma, XBB 1.5 və XBB.1.16 isə azalma mərhələsindədir. Van Kerkhove dünya üzrə bu xəstəliyin hazırda dominant variantının mövcud olmadığını açıqlayıb.

2023-cü ilin may ayında Ümumdünya Səhiyyə Təşkilatı COVID-19 pandemiyasının sona çatdığını elan etsə də, avqust ayından etibarən virusa yoluxma halları yenidən artmağa başlayıb. COVID-19 testlərinin həyata keçirilməsi azaldığından mövcud statistika yoluxma səviyyəsini tam əks etdirmir. Amma koronavirus mutasiyaya davam edir və bu, əvvəlki variantlardan daha təhlükəli və daha aqressiv ola biləcək yeni ştamların – "eris" və "pirola"nın yaranmasına səbəb olub.

Koronavirusa yoluxmanın artmasının səbəblərindən biri insanların başqa ölkələrdə keçirdikləri yay istirahətindən qayıtmalarıdır. ÜST-nın məlumatına görə, Cənubi Koreya, İtaliya, ABŞ, Böyük Britaniya, Avstraliya və Sinqapurda koronavirusa yoluxma hallarında kəskin artım müşahidə olunur. Bu "dalğalar" dünyada başlayandan, təxminən, iki həftə sonra Rusiyaya çatıb. Buna görə ölkənin Hökumət Evində qoruyucu maska rejimi bərpa olunub. Xəstəliyin yayılmasına bir səbəb də payızın əvvəlində havaların xeyli soyuması olur. Bu mövsümdə immunitet azalır, buna görə də getdikcə daha çox insan xəstələnir.

Türkiyənin Yoluxucu Xəstəliklər və Klinik Mikrobiologiya mütəxəssisi, professor Dr. Ümit Savaşçı bildirib ki, COVID-19-un yeni variantı olan "pirola"nın Türkiyədə də müşahidə edilməsi mümkündür. Mütəxəssisin sözlərinə görə, koronavirusun yeni variantı "pirola" başqa bir submutasiya olduğundan, türkiyəli alimlər bundan narahatdır. Çünki hazırda ölkədə bu yeni varianta qarşı peyvənd yoxdur. Ona görə də qış fəslinin yaxınlaşması ilə bu vəziyyət bizi bir az da narahat edir. Bir çox ölkələrdə "pirola" variantının olduğuna diqqət çəkən mütəxəssis həmin ştamın hələ çox geniş yayılmadığını bildirib. Deyib ki, "pirola" ştamı "eris" variantı qədər çox yayılmayıb. Amma laboratoriyada araşdırmalar zamanı peyvəndlə müalicə olunmayacaq simptomlar tapılıb. Bu, əlbəttə ki, elm adamlarını çox narahat edir. Çünki virus peyvənddən yan qaça bilir.

**Səhiyyə Nazirliyinin mütəxəssis-eksperti Təyyar Eyvazovdan hazırkı durumla bağlı vəziyyətə açıqlama verməsini xahiş etdik. İnfeksionist dedi:**

– Payız aylarında hava-damcı yolu ilə yayılan infeksiyaların yoluxma dinamikasında artım çox olur. COVID-19 da hava-damcı yolu ilə yayılan infeksiya olduğu üçün mövsümlərə görə, yoluxma dinamikasında dəyişiklik var. Bu tip infeksiyalar payıza doğru aktivləşir. Unutmayaq ki, zaman keçdikcə, əldə olunmuş kollektiv immunitet zəifləyir. Pandemiyanın hər yeni dalğası virusun daha sürətli və immun nəzarətindən asan yayına bilən mutant variantlarını törədir. Bundan əlavə, əksər qadağaların aradan qaldırılması virusun yayılması üçün münbit şərait yaradır. Ona görə də hazırda ölkəmizdə yoluxma halının yüksəlməsi istisna deyil.

Payız aylarında virusa yoluxmamaq üçün hər kəs diqqətli olmalıdır. Soyuq havalarda insanlar daha çox qapalı məkanlarda olduqlarından və immunitet zəiflədiyindən yoluxma ehtimalı artır. Mümkün qədər insanların çox toplaşdığı məkanlardan uzaq durmaq lazımdır. Dezinfeksiyaedici məhsullardan istifadəni də unutmaq olmaz. Bu sadə tövsiyələr pandemiyanın şiddətli vaxtlarında özünü dəfələrlə doğruldub. Epidemiyanın alovlanma dövrlərində bu qaydalara etinasızlığın nələrə səbəb olduğunu artıq öz acı təcrübəmizdən bilirik və bunu unutmamalıyıq. Buna görə də hər kəs sağlamlığının qeydinə qalsa, nə yoluxma sayı artar, nə də xəstəxanaya ehtiyac olar.

Onu da qeyd etməliyəm ki, hazırda xəstələrin böyük qismi mövsümi qripə yoluxanlardır. Nəzərə almalıyıq ki, soyuq aylarda respirator virus infeksiyalarına yoluxma hallarında artım qeydə alınır. Buna da infeksiyanın fəsilliyi deyilir. COVID-19 infeksiyasının fəsilliyi haqqında danışmaq hələ tezdir. Çünki pandemiyanın başlanmasından cəmi bir il yarım keçib. Bunu zaman göstərəcək ki, həmin infeksiya, həqiqətən fəsillik xarakterlidir, yoxsa yox. Müalicənin düzgün aparılması üçün özündə narahatlıq hiss edən, temperaturu yüksələnlər test etməlidirlər. Hazırda Səhiyyə Nazirliyi qripə qarşı vaksin almaq niyyətindədir. Qurum bu viruslu xəstəliyə qarşı dördvalentli vaksinin alınması üçün tender elan edib. Tenderə əsasən, birdəfəlik şprislərdə 50 min dozada dərman preparatlarının alınması nəzərdə tutulub. Qeyd edək ki, peyvəndlərin satın alınması Ümumdünya Səhiyyə Təşkilatının (ÜST) "Qripə mübarizəyə dair Qlobal Strategiya 2019–30" strategiyasına uyğun olaraq həyata keçirilir.

Koronavirus infeksiyasının qlobal pandemiya elan olunduğunu və virusun geniş yayılma tendensiyasının davam etdiyini nəzərə alaraq, bir daha vətəndaşlarımızı diqqətli olmağa, ÜST-nın tövsiyələrinə riayət etməyə, əhalinin sağlamlığının etibarlı qorunması və təhlükəsizliyinin təmin edilməsi məqsədilə qəbul edilən qərarlara və müəyyənləşdirilən qaydalara tam əməl etməyə çağırıram.

Qeyd edək ki, ölkəmizdə koronavirus infeksiyasına ötən həftə 380 yeni yoluxma faktı qeydə alınıb, 221 nəfər müalicə olunaraq sağalıb. Operativ qərargahdan verilən məlumata görə, analiz nümunələri müsbət çıxan 11 nəfər vəfat edib.

Azərbaycanda indiyədək, ümumilikdə, 833 189 nəfər koronavirus infeksiyasına yoluxub. Onlardan 822 484 nəfər müalicə olunaraq sağalıb, 10 332 nəfər vəfat edib, aktiv xəstə sayı 373 nəfərdir.

*Zərifə BƏŞİRQIZI*
*XQ*

# Alimlərimiz beynəlxalq endokrinoloji konqresdə




**Avropa uşaq endokrinoloqlarının 61-ci illik beynəlxalq elmi konqresi bu il Niderlandın Haaqa şəhərində keçirilib. Dünyanın aparıcı ölkələrindən 5 minə yaxın nümayəndənin iştirak etdiyi məclisdə Azərbaycanı Tibb Universiteti II Uşaq xəstəlikləri kafedrasının dosenti, tibb elmləri doktoru Gündüz Əhmədov və assistent İlsur Novruzov təmsil ediblər.**

Soydaşlarımızın "Uşaqlarda osteogenez imperfekta və onun klinik xüsusiyyətləri" mövzusunda məruzəsi konqres iştirakçıları tərəfindən böyük maraqla qarşılanıb. Məruzədə qeyd olunub ki, bu patologiyaya uşaqlar arasında az rast gəlinməsinə baxmayaraq, xəstəliyin diaqnostikası və müalicəsi indiyədək tam öyrənilməyib. Müəlliflər bu tip patologiyalı uşaqların klinik, laborator diaqnostikasını, müalicəsini ətraflı araşdırdıqlarını vurğulayaraq, əldə olunan nəticələri iştirakçıların nəzərinə çatdırıblar.

**Gündüz Əhmədov XQ-yə bildirdi ki,** konqresdə son illərdə uşaqlarda piylənmə, onun yaranma səbəbləri və müalicəsinin aparılması kimi məsələlər diqqət mərkəzində olub: "Bu baxımdan piylənmənin müalicəsi üçün Liraqlütid tərkibli dərman preparatlarının istifadəsi mütəxəssislərdə maraq doğurdu. Konqresdə uşaqlarda boy problemləri, cinsi inkişaf pozulmaları, böyrəküstü vəzin patologiyaları, şəkərli diabet mövzularından da ətraflı söhbət açıldı. Məruzələrdə göstərildi ki, son illərdə uşaqlarda endokrinoloji patologiyaların müasir müalicəsinə də diqqət artıb. Məclisdə gündəlik boy hormonu inyeksiyaları əvəzinə, həftəlik inyeksiyaların artıq istifadəsinin, adrenal patologiyalarda hidrokortizonun sutka ərzində düzgün paylanmasını təmin edən yeni preparatların və uşaqlarda hiperxolesterinemiyanın müalicəsində istifadə edilən müasir statin preparatların da təqdimatı oldu.

ATU-nun mətbuat xidmətindən isə bildirdilər ki, universitetin əməkdaşlarının belə bir nüfuzlu tədbirdə iştirak etməsi tədris müəssisəsinin beynəlxalq nüfuzunun yüksək olmasından irəli gəlir.

*Z.HÜSEYNOVA*
*XQ*

İdman uğurlarımız

# Ağırlıqqaldırma üzrə güclü nəsil yetişir

## Bunu son nəticələr də sübut edir



**Müasir dövrün ən populyar idman növlərindən biri olan ağırlıqqaldırma yarışları qədim Misir, Yunanıstan və Çin dövründən məlumdur. Eramızdan əvvəl daşlardan müasir ştanqların bəzi prototiplərinin düzəldilməsi haqqında çoxlu sübutlar var. Bu qədim idman növünə Azərbaycanda da böyük maraq olub. "Odlar yurdu"nun pəhləvanları ağırlıq qaldırma üzrə ad-san çıxarıb, səs-soraqları elləri, obaları gəzib dolaşıb.**

Digər idman növləri kimi, ağırlıqqaldırmanın da kütləviliyi və inkişafı da Azərbaycanın müstəqillik dövrünə təsadüf edib. Nizami Paşayev 2000-ci illərin əvvəllərində dünya çempionatının dördqat qalibi kimi şöhrət qazanıb. Digər ağırlıqqaldıranlarımızın dünya, Avropa çempionatlarında yüksək nəticələri bu idman növünün inkişafından xəbər verirdi. 2016-cı ildə Azərbaycanın ağırlıqqaldırma üzrə yığmasının dopinqdən istifadəyə görə ağır cəza alaraq yarışlardan kənarlaşdırılması bu idman növünün inkişafını xeyli ləngitsə də, son illər yeniyetmələrdən ibarət komandamızın qazandığı yüksək nailiyyətlər güclü idmançı nəslinin yetişməsindən xəbər verir.

Yeniyetmələrdən ibarət yığma komandanın böyük məşqçisi Oktay Muxtarov "XQ"yə müsahibəsində son illər əldə uşaq və yeniyetmələr arasında ağırlıqqaldırmanın kütləviliyinin artırılması istiqamətində görülən işlərdən danışdı. O qeyd etdi ki, ağırlıqqaldırma çətin idman növü olduğundan onunla kiçik yaşlardan məşğul olmaq, sirlərinə yiyələnərək təcrübə toplamaq lazımdır.

### 7 medal və Avropa rekordu

Əslində, bu nəticələr artıq var. Ötən ilin avqustunda Polşanın Raşin şəhərində yeniyetmələr arasında Avropa birinciliyində komandamız əla çıxışla yadda qaldı. Turan Əliyev, Qasım İsmayılov və Ravin Alməmmədov toplam 7 medal – 1 qızıl, 3 gümüş, 3 bürünc və bir Avropa rekordu ilə tarixi nəticəyə imza atdılar. Mütəxəssisin bildirdiyinə görə, yeniyetmə idmançıların builki nəticələri daha böyük uğurlar vəd edir.

Bu il yeniyetmələrdən ibarət komanda beynəlxalq arenalarda keçirilən yarışlarda möhtəşəm nailiyyətləri ilə diqqəti cəlb edir. Albaniyanın Dürres şəhərində yeniyetmələr arasında keçirilən dünya birinciliyində Ravin Alməmmədov rekord nəticə qazanıb. Qazaxın "Göyəzən" Ağır Atletika Klubunun təmsilçisi 73 kiloqram çəki dərəcəsində 136 kiloqramla birdən, 167 kiloqramla təkanla qaldırma hərəkətlərində, toplam 303 kiloqram (136+167) nəticə ilə isə yekun sıralamada gümüş medala sahib olub. O, həmçinin təkanla qaldırma 167 kiloqramı ram etməklə türkiyəli Karaca Yaşara aid 163 kiloqramlıq Avropa rekordunu, bu hərəkətin toplamında da rumıniyalı Yonut Donoseyə aid 300 kiloqramlıq rekordu da geridə qoyub.



Bununla yanaşı, azyaşlıların effektiv çalışmaları üçün müvafiq infrastruktur qurulmalı, mütəxəssislər yetişdirilərək iş imkanı yaradılmalı, digər faktorlar nəzərə alınaraq müvafiq addımlar atılmalıdır. Məhz bundan sonra Olimpiya zirvələrini fəth edəcək gənclərin yetişməsi mümkün olacaq, qələbələrə şahidlik edəcəyik.

### Kəndlər də çempion yetişdirəcək

Məşqçi bildirdi ki, Azərbaycan Ağırlıqqaldırma Federasiyası (AAF) son illər ölkəmizin müxtəlif regionlarındakı yeniyetmə və gənc idmançıların seçilməsi, yığma komandaların heyətinə cəlb edilərək beynəlxalq arenalarda çıxışını təmin edib: "Azərbaycanda adətən Mərkəzi Aran, cənub və şərq zonasında ağırlıqqaldırma inkişaf etsə də, son illərdə görülən işlər bu coğrafiyanın genişlənməsinə, ölkənin demək olar ki, bütün regionlarını əhatə etməsinə gətirib çıxarıb. 2009–2020-ci illər ərzində mütəmadi keçirilən zona-mərhələ yarışlarının keçirilməsiylə Gəncə, Qazax, Goranboy, Yevlax, Zaqatala, Şamaxı, Qusar, Qobustan və digər yerlər də bu idman növündə öncüllük yarışına girə biliblər. Son bir ildə isə birbaşa federasiya rəhbərliyi tərəfindən "Kəndlər çempion yetişdirəcək" şüarı altında həyata keçirilən layihə öz müsbət effektini verməkdədir. 2022-ci il ərzində bölgələrdə yaradılan 20-yə yaxın yeni ağırlıqqaldırma klubları isə bu işin peşəkar statusunu daha da möhkəmləndirə bilib. Hazırda Azərbaycan ağırlıqqaldırmasında yeni nəslin inkişafı üçün bütün imkanlar yaradılıb və yaxın zamanlarda bunun nəticəsini görmək mümkün olacaq".

### Onlar Olimpi fəth edəcəklər

Bu ilin iyun ayında 15 və 17 yaşadək idmançıların Avropa birinciliyində ağırlıqqaldıranlarımızın əldə etdikləri mükafatlar onların potensialını bir daha sübut edir. Moldovanın paytaxtı Kişineuda 17 yaşlı yeniyetmə oğlanlar arasında Ravin Alməmmədovun (73 kq) çıxış etdiyi bütün hərəkətlərdə qızıl medal qazanması qürurvericidir. Birdən qaldırma hərəkətində və təkanla qaldırma hərəkətlərində qızıl medal qazanan idmançımız toplam 299 kiloqram (137+162) nəticə göstərərək yekun sıralamada da birinci yeri tutub. Komandamızın daha bir üzvü – 15 yaşadək idmançılar arasında mübarizə aparan Hüseyn Heydərov (81 kq) da 3 qızıl medalla idman ictimaiyyətini sevindirib.

Atletimiz də komanda yoldaşı kimi, həm birdən qaldırma, həm də təkanla qaldırma hərəkətləri üzrə fəxri kürsünün ən yüksək pilləsində qərarlaşıb. Toplam 257 kiloqram (118+139) nəticə göstərən H.Heydərov yekun sıralamada da qızıl medal qazanıb. Ümumilikdə, komandamız qitə birinciliyində 8-i qızıl, 4-ü gümüş, 2-si bürünc olmaqla 14 medala sahib olub.

Oktay Muxtarovun sözlərinə görə, yeniyetmə idmançılar arasında gələcəyin olimpiyaçıları yetişir. Məhz onların qazandıqları nailiyyətlər bunu deməyə əsas verir.

*Leyla QURBANOVA*
*XQ*

Xalq qəzeti
XQ
xalqqazeti.az
№ 218 (30334) 7 oktyabr 2023-cü il, şənbə

# Zəncanlı soydaşımız Nobel Sülh Mükafatına layiq görüldü




**"İnsan hüquqları müdafiəçiləri" mərkəzinin vitse-prezidenti Nərgiz Mohammadi Nobel sülh mükafatına layiq görülüb. Laureat hazırda həbsxanada cəza çəkir.**

Norveç Nobel Komitəsinin məlumatına görə, Nərgiz Mohammadi mükafata İranda qadınların hüquqlarının pozulmasına qarşı mübarizədə səylərinə görə layiq görülüb. Mükafat, həmçinin "Qadın-Həyat-Azadlıq" şüarı ilə İranda qadınların hüquqlarının pozulmasına etiraz edən yüz minlərlə iranlıya həsr edilib.

Nərgiz Mohammadi ölkədə ölüm hökmünün ləğvinə çalışan hüquq-müdafiə təşkilatına rəhbərlik etdiyinə görə 2016-cı ildə 16 il həbs cəzasına məhkum olunub. 2020-ci ildə azadlığa buraxılan qadın 2021-ci ildə yenidən həbs edilərək Tehrandakı Evin həbsxanasına salınıb.

Məlumat üçün bildirək ki, 1972-ci ildə Zəncanda anadan olmuş güneyli soydaşımız buvaxtadək 13 dəfə həbs edilib. Nərgiz Mohammadi 2023-cü il üçün Nobel Sülh Mükafatına 500-dən çox namizəd arasından seçilib.

**XQ**

## Kosmos

# Günəş "halqavari" tutulacaq

**Bu barədə mətbuata Bakı Dövlət Universitetinin fizika fakültəsinin Astrofizika kafedrasından bildirilib. Məlumatda bildirilir ki, bu, halqavari Günəş tutulmasıdır.**

Ay Yerdən uzaq məsafədə olduqda bucaq ölçüsü Günəşin bucaq ölçüsündən kiçik olduğuna görə, tutulma zamanı Günəşin səthini tam bağlamır və Ayın ətrafında parlaq halqa yaranır.



Tutulma hadisəsi oktyabrın 14-də Bakı vaxtı ilə saat 19:03:45-də başlayacaq və oktyabrın 15-də saat 00:55:11-də sona çatacaq. Tutulmanın maksimumu saat 21:59:27-də olacaq. Tutulma hadisəsi 5 saat 51 dəqiqə 26 saniyə davam edəcək. Mərkəzi tutulma hadisəsi isə saat 20:10:09-da başlayacaq və 23:48:56-da qurtaracaq. Mərkəzi tutulma prosesi 3 saat 38 dəqiqə 47 saniyə davam edəcək.

Bu tutulma hadisəsi Qərbi Afrika, Şimali Amerika, Cənubi Amerika, Sakit okean, Atlantik okeanı və Arktikada müşahidə olunacaq. Tutulma hadisəsi Azərbaycanda müşahidə olunmayacaq.

**XQ**

## İdman xəbərləri

# Futzal millimiz qalib gələ bilmədi



**Futzal üzrə Azərbaycan milli komandası "Dünya çempionatı–2024"ün elit-raund mərhələsində növbəti oyununu keçirib.**

Vitali Borisovun baş məşqçi olduğu kollektiv Bakıda qrup lideri Qazaxıstan yığması ilə qarşılaşıb. Bakı İdman Sarayında keçirilən görüşün 12-ci dəqiqəsində komandamızın üzvü Hadi Ahmadi hesabı açıb. Qonaqlardan 23-cü dəqiqədə Birjan Orozov hesabı bərabərləşdirib. Onun komanda yoldaşları Duqlas Juniorun 27-ci, Dauren Tursaqulovun 36-cı dəqiqədə vurduqları qol ilə rəqib iki top fərqi ilə üstünlük qazanıb.

Edson 39-cu dəqiqədə komandasının 4-cü qolunu vurub. Matçın son qolunu isə 40-cı dəqiqədə yığmamızın heyətində Maneka rəqib qapısından keçirib.

Beləliklə, Qazaxıstan Azərbaycan millisinə 4:2 hesabı ilə qalib gəlib.

Matçı Finlandiyadan olan hakimlər briqadası idarə edib.

# Cüdoçumuz dünya gümüşü qazanıb



**Portuqaliyanın Odivelas şəhərində keçirilən gənclər arasında dünya çempionatında komandamız daha bir medal qazanıb.**

Yığmamızın aktivinə gümüş mükafatı Vüqar Talıbov (90 kq) yazdırıb.

Mübarizəyə 1/16 finaldan başlayan 20 yaşlı idmançı finala qədər bütün rəqiblərini məğlub etsə də, həlledici görüşdə yaponiyalı Komei Kavabataya uduzub.

Qeyd edək ki, bundan əvvəl Azərbaycan cüdoçularından Vüsal Qələndərzadə (73 kq) qızıl, Nizami İmranov (60 kq) gümüş medal əldə ediblər.

# Karate Federasiyası böyüyür

**Azərbaycan Karate Federasiyasının (AKF) nəzdində fəaliyyət göstərən Ənənəvi Karate-Do Federasiyasının tərkibinə 3 yeni təşkilat daxil olub.**

Həmin təşkilatlar Şito Ryu Karate do, AYAZ Karate do klubu və Fudokanın Azərbaycan nümayəndəliyidir.

Adları sadalanan klublarla Ənənəvi Karate-Do Federasiyası arasında AKF-nin baş ofisində qarşılıqlı müqavilə imzalanıb.

***Leyla SABİRQIZI***
***XQ***

## Maraq dünyamız

# Zirvələr niyə kiçilir?

**Alp dağlarında yerləşən Avropanın ən hündür zirvəsi hesab edilən Monblan son 10 ildə 2,2 metrədək kiçilib. Bu barədə Yuxarı Savoyya departamentinin tədqiqatçıları xəbərdarlıq ediblər.**



Ölçmələr bir qrup topoqraf, alim və idmançılar tərəfindən aparılıb. Onların hesablamalarına görə, dağın hazırkı hündürlüyü 4805,59 metrdir.

Tədqiqatçıların sözlərinə görə, dağın hündürlüyü hər il zirvədəki yağıntı və qar əriməsindən asılı olaraq bir qədər dəyişir.

Geomorfoloq Lüdovik Ravanel bildirib: "Biz indi Monblanı izləməliyik ki, növbəti illər ərzində yüksəklikdəki qalxma və enmə hadisəsini müşahidə edə bilək. Amma biz dağlardakı buzun qalınlığının azalmağa doğru getdiyini hiss edirik. Bu da o deməkdir ki, 2100-cü ilə qədər Alp buzlaqları həcminin 99 faizini itirəcək".

***F. SALMANOVA***
***XQ***



*Foto Elşən Ağalarındır*

# "Eyfel" necə böyüyür?

***Parisin rəmzlərindən biri "Eyfel" qülləsinin yayda 15 santimetr böyüməsi baş verir. Bu nəhəng qurğuda poladın uzanması temperatur genişləndirici birləşmələr vasitəsilə nizamlanır.***



Polad qızan zaman genişlənməyə başlayır və daha çox həcm tutur. Buna istilik genişlənməsi deyilir. Əksinə, temperaturun düşməsi həcmin azalmasına gətirib çıxarır. Bu səbəbdən körpülər kimi, böyük qurğular da zədələnmədən ölçülərini dəyişməyə imkan verən genişləndirici birləşmələrlə tikilir.

Xatırladaq ki, "Eyfel"in adı onu inşa edən memarın – Qustav Eyfelin adından miras qalmışdır. Memar özü tikilini "300 metrlik qüllə" adlandırmışdır. "Eyfel" qülləsini ildə 6 milyon turist ziyarət edir.

# Venera – tərsinə fırlanan planet

***Venera saat əqrəbi istiqamətində hərəkət edən yeganə planetdir. Elm adamları bunun niyə baş verdiyinə dair bir çox versiyaya malikdirlər.***



Ən çox ehtimal olunan budur ki, planet keçmişdə onun kursuna təsir edən hansısa nəhəng asteroidlərlə toqquşub və ya atmosferin yuxarı hissəsində hava cərəyanlarının güclü dövranı səbəbindən fırlanma istiqaməti dəyişib.

Merkuridən sonra Venera Günəşə ən yaxın planetdir. Eyni zamanda, o, Günəş və Aydan sonra Yerdən ən aydın və ən parlaq görünən planet kimi seçilir. Antik Romada məhəbbət və gözəllik ilahəsi Veneranın adını daşıyan planet, demək olar ki, Yerlə eyni ölçüdə və kütlədədir. Bu səbəbdən Venera Yerin "əkiz bacısı" kimi də tanınır.

***XQ***

*✓ Əliyev Həsən Məhərrəm oğluna verilmiş 002749 nömrəli müharibə veteranı vəsiqəsi itdiyi üçün etibarsız sayılır.*

## Sağlamlıq guşəsi

# Su qripi zəiflədir



***Qrip və soyuqdəymə zamanı sağalmağa dərmanla yanaşı, su müalicəsi də köməyə gəlir. Terapevt Svetlana Burnatskaya mövsümi yoluxucu infeksiyalar zamanı çoxlu su içməyi tövsiyə edib.***

O bildirib ki, qripin müalicəsi zamanı qələvi tərkibli mineral su içmək vacibdir. Yoluxmanın ilk günlərində belə su içmək xəstəliyin ağırlaşmasının qarşısını alır. Belə ki, viruslar qələvi mühitdə dözümlü olmadığından orqanizmdə turşu-qələvi mühiti tənzimlənir.

Araşdırmalarla qripə, eləcə də müxtəlif xəstəliklərə qarşı insan orqanizmini möhkəmləndirən, immuniteti gücləndirən 2 – C və D vitamininin təsirli olduğu sübut edilib.

Kim mövsümdə tez-tez soyuqlayır, qrip olur, xəstələnirsə, D vitamini qəbul etmək tövsiyə edilir. Eləcə də C vitamininin qəbulu qripin profilaktikası üçün çox vacibdir.

# Möhkəmlik resepti

***Qrip və viruslar mövsümündə qidalanma, fiziki məşqlər və həyat tərzini dəyişdirmək lazımdır.***

**1. Fərqli vitaminlərlə qidalan:** A vitamini – brokkoli, pomidor, kələm, narıncı rəng tərəvəz və meyvələr, C vitamini – antioksindant təsirli – bibər, sitrus meyvələri, brüssel kələmi, E vitamini – avokado, yağlar, badam, çərəzlər, D vitamini – yağlı balıq, mərci, yumurta, küncüt, müxtəlif otlar, çaylar, ədviyyatlar – sarımsaq, qara zirə, sarıkök, yaşıl çay – hamısı immunitetə təsir edir.

**2. Günün planını düzgün qur:** Yuxu saatı, istirahət, hər gün eyni saatda yemək, həftədə 1 gün ac qalmaq, bol maye, 10 min addım – bunlar müntəzəm edilməlidir.

**3. Bağırsağı təmizlə:** Məhz bağırsaqlarda immun hüceyrələri yaşayır. Bağırsaq florasını fermentləşdirilmiş qidalar və qatıqla zənginləşdir.

**4. Qaraciyəri toksinlərdən azad et:** Alkoqol və siqareti tərgidə bilmirsinizsə, azaldın. Gündə 5–10 ədəd siqaret immun sistemini və ağciyərləri zəiflədir.

**5. Məşq elə:** 20 dəqiqəlik gəzintidən başlayın, gimnastika və yoqa edin, oyunlar oynayın. Gündəlik aktivlik orqanizmdə iltihabi prosesləri azaldır.

***Z.HÜSEYNLİ***
***XQ***

## HAVA

# Leysan, şimşək, dolu...



**Milli Hidrometeorologiya Xidmətindən verilən xəbərə görə, oktyabrın 7-də Bakıda və Abşeron yarımadasında hava şəraitinin dəyişkən buludlu olacağı, arabir tutulacağı, əsasən, yağmursuz keçəcəyi gözlənilir. Lakin gündüz bəzi yerlərdə qısamüddətli yağış yağacağı ehtimalı var. Mülayim şimal-qərb küləyi gündüz arabir güclənəcək.**

Havanın temperaturu gecə 13-18° isti, gündüz 20-25° isti olacaq. Atmosfer təzyiqi 762 mm civə sütunundan 766 mm civə sütununa yüksələcək. Nisbi rütubət gecə 60-70 faiz, gündüz 45-55 faiz olacaq.

Azərbaycanın rayonlarında havanın əsasən yağmursuz keçəcəyi, lakin gündüz bəzi yerlərdə arabir yağış yağacağı gözlənilir. Qısamüddətli leysan xarakterli olacağı, şimşək çaxacağı, dolu düşəcəyi ehtimalı var. Gecə və səhər bəzi rayonlarda duman olacaq. Mülayim qərb küləyi əsəcək.

Havanın temperaturu gecə 13-17° isti, gündüz 22-27° isti, dağlarda gecə 3-8° isti, gündüz 12-17° isti olacaq.

***Q.QƏZƏNFƏR***
***XQ***

# ALLAH RƏHMƏT ELƏSİN

Azərbaycan Milli Elmlər Akademiyası Naxçıvan Bölməsinin sədri akademik İsmayıl Hacıyev Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin birinci vitse-prezidenti, akademik

**XOŞBƏXT YUSİFZADƏNİN**

vəfatından kədərləndiyini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.

BAŞ REDAKTOR
ƏFLATUN AMAŞOV

TELEFONLAR:
Reklam və elanlar: 493-82-21
Qəbul şöbəsi: 493-24-75
Məsul katib: 493-61-02
Texniki şöbə: 493-59-64
Mühasibatlıq: 498-85-29
E-mail: xalqqazeti@gmail.com
info@xalqqazeti.az
+994(51) 280-16-44

"Xalq qəzeti"nin kompüter mərkəzində yığılıb və səhifələnib, "Azərbaycan" nəşriyyatında çap olunub.

ÜNVANIMIZ:
AZ-1000, Bakı şəhəri, Bülbül prospekti, 30.
Şəhadətnamə 022273

İNDEKS 0282
TİRAJ 4820
SİFARİŞ 2563
QİYMƏTİ 40 qəpik

Növbətçi redaktor
Məsaim ABDULLAYEV

Çapa imzalanmışdır 00:00